KHAZAR REVIEW

№ 362 May 2017

# XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ

ISSN 2218-2772

khazar-review.khazar.org










# İÇİNDƏKİLƏR


"Xəzər"in rəqs kollektivləri yenə "Tələbə baharı" festivalının qalibləri sırasında . . . . 4

"Amerikada da yazıb - oxumağı bacarmayanlar var, amma..." (*Professor Hamlet İsaxanlı ilə müsahibə*) . . . . 6

Universitet xəbərləri . . . . 7

Xəzər Universitetində "Açıq qapı" günü . . . . 8

"Xəzər" Türkiyə universitetlərinin təhsil sərgisində . . . . 10

В Азербайджане нет спроса на государственный язык? (*Интервью с профессором Гамлетом Исаханлы*) . . . . 14

Hamlet İsaxanlı "yanlışdır" dedi (*Professor Hamlet İsaxanlı ilə müsahibə*) . . . . 16

Misirin təhsil nazirinin birinci müavini Xəzər Universitetində . . . . 17

Xəzər Universitetində 42-ci məzunluq mərasimi . . . . 18

"Yeddi gözəlin sevgi əfsanəsi" . . . . 22

Jean Monnet Conference on the EU - Azerbaijan Relations . . . . 26

Polşa səfiri Xəzər Universitetində . . . . 30

İlk fərqli biblioqrafiya . . . . 32

Şekspir yaradıcılığına həsr olunmuş tədbir . . . . 34

Xəzər Universitetində İrandan gələn "Şalu" zərb alətləri ansamblının konserti . . . . 36

Хазар в лицах . . . . 40

*Ayla Türksoy*. Hazar'ın sorağında . . . . 50

Yeni kitabın təqdimatı . . . . 56

*Hamlet İsaxanlı*. Musiqili... şöhrət azarı (*hekayə*) . . . . 64



1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Zemire Qurbanova

Kompüter tərtibatçısı:
Gözəl Həbibova

Foto:
Multimedia Mərkəzi



XƏZƏR UNİVERSİTETİ
1991
BAKI

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org



Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published
since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial member:
Jamal Mustafayev
Aidar Aghayev
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Zemira Qurbanova

Computer graphics:
Gozal Habibova

Photo:
Multimedia Centre



# "XƏZƏR"İN RƏQS KOLLEKTİVLƏRİ YENƏ "TƏLƏBƏ BAHARI" FESTİVALININ QALİBLƏRİ SIRASINDA

Aprelin 27-də Azərbaycan Dövlət Musiqili Teatrında Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının birgə təşkil etdikləri "Tələbə baharı" yaradıcılıq festivalının qala-konserti keçirildi və qaliblər elan olundu. İyirmidən artıq ali təhsil müəssisəsindən səkkiz yüzdən çox tələbənin iştirak etdiyi seçmə turu aprelin 3-6-da keçirilmişdi.

Tədbirdə Gənclər və idman naziri Azad Rəhimov çıxış edərək, festivalın hər il yeni istedadlar üzə çıxarması etibarilə böyük əhəmiyyətindən danışdı, iştirakçılara və münsiflər heyətinə təşəkkürünü bildirdi.

Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin rəhbərliyi ilə universitetin musiqi kollektivləri artıq 10-cü dəfə keçirilən festivalda daim iştirak etmiş və həmişə qaliblər sırasında olmuşdur. Builki festivalda da universitetin qızlardan ibarət rəqs qrupu (müəllim Səbinə İsmayılova) "Müasir rəqslər" nominasiyasında birinci yerə, oğlanlardan ibarət rəqs qrupu (müəllim əməkdar artist Telman Əliyev) isə "Milli rəqslər" nominasiyasında ikinci yerə layiq görüldülər. Qaliblərə diplomlar təqdim olundu.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və Direktorlar və Qəyyumlar Şurası sədrinin müşaviri, "Dünya" məktəbinin təsisçisi Nailə xanım İsayeva da iştirak edirdilər.

Tədbir ölkə mediasında işıqlandırılmışdır.



# KHAZAR UNIVERSITY'S DANCE GROUP AMONG THE WINNERS OF "STUDENT SPRING" FESTIVAL

On April 27, gala concert of "Student Spring" student arts festival was held and the winners were announced in Azerbaijan State Musical Theater organized by The Ministry of Youth and Sports in cooperation with the Azerbaijan Student Youth Organizations' Union.

The qualifying round where more than 20 high educational institutions and more 800 students participated was held on the 3-6th of April. Azad Rehimov,the Minister of Sports and Youth delivered a speech emphasizing the importance of the event for discovering new talents each year and expressed his gratitude to jury and the participiants.

Under the leadership of the Department of Music and Fine Arts, Khazar University's music groups always participated and were among the winners in the event held for the 10th time. In this year's festival Univeristy's girls' dance group (instructor Sabina Ismayilova) won the first place in the nomination "Modern Dances", boys' dance group (instructor Honoured Artist Telman Aliyev) won the second place in the nomination "National Dances". The winners were awarded diplomas.

Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and Advisor to the Chairman of the Board of Directors and Trustees, Nailakhanim Isayeva, co-founder of Khazar University's affiliate Dunya School and Advisor to the Board of Directors and Trustees also participated in the event.

The event was covered by local media.



# PROFESSOR HAMLET İSAXANLI ABİTURİYENTLƏRİN NƏTİCƏLƏRİNƏ MÜNASİBƏT BİLDİRDİ

*2017-ci il aprelin 27-də "Şərq" qəzetinin rəsmi internet səhifəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının abituriyentlərin imtahan nəticələrinə münasibəti yayımlanmışdır. Yazını təqdim edirik.*

## "AMERİKADA DA YAZIB - OXUMAĞI BACARMAYANLAR VAR, AMMA..."

*"Qəbul imtahanlarında iştirak edən abituriyentlərin aşağı nəticə göstərməsinin səbəblərini bilmək üçün ilk növbədə onlara təqdim olunan testlərə baxmaq lazımdır".*

Bunu Sherg.az-a ötən il I-IV ixtisas qrupları üzrə sənəd verən abituriyentlərin 55,4 faizinin 200 baldan aşağı nəticə göstərməsinə münasibət bildirərkən Xəzər Universitetinin təsiscisi, professor Hamlet İsaxanlı deyib.

O bildirib ki, testlərin çətinlik dərəcəsindən çox şey asılıdır:

*"Testləri elə hazırlayarlar ki, abituriyentlərin 20,30, 40 faizi kəsilə bilər. Ona görə ciddi elmi araşdırma lazımdır ki, testlərin səviyyəsi müəyyən olunsun. Bundan başqa, dəyişmələr inqilabi yolla olmur. Düşünmürəm ki, qısa zaman içərisində orta məktəblərdə təhsilin keyfiyyətini mühüm dərəcədə artırmaq olsun. Bu səbəbdən böyük dəyişiklik olmayanda, ciddi islahat aparılmasa, ciddi nəticə də gözləmək olmaz".*

Azərbaycanda 9-11-ci siniflərdə oxuyan 92 şagirdin yazıb-oxuya bilməməsinə gəlincə, ekspert düşünür ki, heç yazmağı bacarmayan yəqin ki, yoxdur:

*"Ola bilər həmin şagirdlər zəif yazı yazıb, savadsız nəticə göstəriblər. Hər halda, hamı hərfləri tanıyar, yazmaq hərfləri öyrənməyə deyilir. Hərfləri öyrənmək üçün ciddi istedad tələb olunmur. Amma tək-tük insanlar var ki, qeyri-adi dərəcədə savadsız olurlar. Onlar dünyanın hər yerində var. Hətta təhsil cəhətdən inkişaf etmiş Amerikada da yazıb-oxumağı bacarmayanlar var. Amma , bu, o demək deyil ki, amerikalılar savadsızdır. Az sayda insanın yazıb-oxuya bilməməyi mümkün olan hadisədir".*

**Aysel Aslan**

http://www.sherg.az/site/id-30128/"Amerikada_da_yazıb-oxumağı_bacarmayanlar_var,_<font_color=red>amma..."</font>#.WQLbvkXyjDc;

http://mektebgushesi.az/2017/04/27/hamlet-isaxanli-amerikada-da-yazib-oxumagi-bacarmayanlar-var-amma/

## STATİSTİKA ŞURASININ ÜZVÜ HAMLET İSAXANLI ŞURANIN İCLASINDA İŞTİRAK ETDİ

Aprelin 28-də Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının üzvü, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı şuranın iclasında iştirak etdi.

H. İsaxanlı müzakirə olunan məsələlər və qarşıda duran problemlər haqqında fikirlərini söylədi, statistik göstəricilərin və dövlət proqramının mükəmməlləşdirilməsi yolları barədə danışdı.

## HAMLET ISAKHANLI, MEMBER OF STATISTICAL COUNCIL TAKES PART IN THE COMMITTEE'S MEETING

On April 28, Professor Hamlet Isakhanli, a member of the the Statistical Council under the State Statistical Committee of the Republic of Azerbaijan , the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees paticipated in the meeting of the Council.

Hamlet Isakhanli shared his opinions about the discussed issues and problems, ways of improving statistical indicators and governmetal programs as well.

## PROFESSOR HAMLET İSAXANLI ŞƏMKİR ŞAHMAT TURNİRİNİN BAĞLANIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETDİ

Aprelin 20-dən mayın 1-dək "Synergy Group" tərəfindən Vüqar Qasımovun xatirəsinə həsr olunmuş şahmat turniri keçirildi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı bağlanış günü yarışları canlı şəkildə izlədi, şahmatçılar, hakimlər, ictimaiyyət nümayəndələri və Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı ilə görüşdü.

Professor İsaxanlı turnirin təntənəli bağlnış banketində Azərbaycanda və dünyada şahmatın inkişafı, 4-cü Şəmkir superturniri, turnirin qalibi olan Şəhriyar Məmmədyarov və bir sıra digər məsələlər barəsində danışdı.

## PROFESSOR HAMLET ISAKHANLI TAKES PART IN CLOSING CEREMONY OF CHESS TOURNAMENT IN SHAMKIR

Chess Tournament devoted to the memory of Vugar Gasimov was held by "Synergy Group" on April 20-May 1. Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, watched the tournament lively on the closing day, and met chess players, judges, public representatives and the head of executive power of Shamkir.

In the closing banquet of the tournament Prof. Isakhanli gave a talk about the development of chess in Azerbaijan and in the world, the Fourth Shamkir super tournament, its winner Shahriyar Mammadyarov and some other issues.

## PROFESSOR HAMLET İSAXANLI TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ DÖVLƏT DİLİNİN VƏZİYYƏTİNƏ MÜNASİBƏT BİLDİRDİ

Mayın 2-də "Exo" qəzetinin internet səhifəsində "В Азербайджане нет спроса на государственный язык?" ("Azərbaycanda dövlət dilinə tələbat yoxdurmu?") başlıqlı məqalə yayımlanmışdır. Məqalə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə aparılmış söhbət əsasında yazılmışdır. Məqaləni tam şəkildə bu linklər vasitəsilə oxumaq olar:

*http://ru.echo.az/?p=59105*

*http://gapp.az/news/352143-v-azerbaydjane-net-sprosa-na-gosudarstvennyiy-yazyik*

*(Məqalə jurnalın 14-15-ci səhifələrində dərc olunur).*

## PROFESSOR HAMLET ISAKHANLI SHARES OPINION ON STATUS OF OFFICIAL LANGUAGE IN EDUCATIONAL INSTITUTIONS

On May 2, an article entitled "Isn`t there any need to state language in Azerbaijan?" was published on the official website of the newspaper "Exo" (in Russian). The article was written based on the interview with Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees.

For the full version of the article visit the following links:

*http://ru.echo.az/?p=59105*

*http://gapp.az/news/352143-v-azerbaydjane-net-sprosa-na-gosudarstvennyiy-yazyik*





## XƏZƏR UNİVERSİTETİNDƏ "AÇIQ QAPI" GÜNÜ

Aprelin 28-də Xəzər Universitetində "Açıq qapı" günü keçirildi. Bakının 242, 61, 64, 72, 11 saylı məktəblərinin XI sinif şagirdləri universitetin "Mərmər" zalına toplaşmışdılar. Zalda ixtisaslar və universitetdə fəaliyyət göstərən mərkəzlər (xarici əlaqələr, karyera, psixologiya, kitabxana-informasiya və s.) üzrə masalar qurulmuşdu.

Tədbiri universitetin rektoru Dr. Hassan Niknafs açaraq, şagirdlərə universitet haqqında ətraflı məlumat verdi. Universitetin müəllimi professor Fuat Rəsulov və İctimai əlaqələr və media üzrə direktor Ələvsət Əmirbəylinin idarə etdikləri görüşdə şagirdlər ixtisas və mərkəz masaları ətrafında əməkdaşlar tərəfindən geniş məlumatlandırıldılar və onların sualları cavablandırıldı.

Şagirdlər Xəzər Universiteti haqqında videoçarxlara baxdılar və onlara bukletlər paylanıldı. "Mərmər" zalda universitetin dövlət sektorunda və özəl qurumlarda yüksək vəzifələr tutan məzunları haqqında nümayiş etdirilən stend şagirdlərdə böyük maraq doğurdu.

"Mərmər" zalda tədbir başa çatdıqdan sonra şagirdlər universitetlə tanış oldular. Elektronika, inşaat mühəndisliyi, biologiya, kompüter və s. laboratoriyalarda, Kitabxana - İnformasiya Mərkəzində şagirdlərə ətraflı məlumat verildi və suallar cavablandırıldı.

Məktəblilər Xəzər Universitetindən xoş təəssüratla ayrıldılar.

## "OPEN DOOR" DAY AT KHAZAR UNIVERSITY

On April 28, "Open Door" day was held at Khazar University. The high class students of schools of 242, 61, 64, 72, 11 etc. gathered in the Marble Hall where tables giving information about specialties and centers (international affairs, career, psychology, library- information etc.) of the university were set.

Dr. Hassan Niknafs, the rector of the university, opened the event and gave thorough information about Khazar University.

In the meeting, chaired by Professor Fuat Rasulov, instructor of the university and Alovsat Amirbeyli, Director for Public Relations and Media information tables provided students with information about the centers and specalities of the university.

The schoolchildren watched the video presentation about Khazar University and brochures were distributed to them. The stand in the "Marble Hall" demonstrating university graduates who hold high positions in the public sector and private organizations caused a great interest in students.

After the event, students got acquainted with the university and their questions were answered in the laboratories of Electronics, Civil Engineering, Biology, Computer etc. and Library-Information Center.













# "XƏZƏR" TÜRKİYƏ UNİVERSİTETLƏRİNİN TƏHSİL SƏRGİSİNDƏ

Aprelin 29-30-da Bakı şəhərində "Academy Group" tərəfindən "Razi Vəliyev: Türkiyə Universitetləri Təhsil Sərgisi" keçirildi. Təhsil sərgisində Türkiyənin 30-a yaxın universiteti ilə yanaşı, Xəzər Universiteti də iştirak edirdi.

Tədbir "Academy Group"un qurucusu Razi Vəliyevin anım mərasimi ilə başladı. Mərasimdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli də çıxış etdi. Sonra sərgi orta məktəb şagirdləri, valideynlər, təhsil işçiləri və ictimaiyyət üçün açıq elan edildi.

Təhsil sərgisinə bu il maraq daha böyük idi. Xəzər Universiteti, hər zaman olduğu kimi, bu il də şagirdlərin, valideynlərin, Türkiyə universitetləri nümayəndələrinin diqqət mərkəzində idi. Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov, İğdır Universitetinin rektoru professor Mehmet Hakkı Alma, İstanbul Aydın Universitetinin Xarici əlaqələr üzrə prorektoru Selman Arslanbaş, İstanbul Zaim Univesitetinin Xarici əlaqələr üzrə koordinatoru Fatih Pehlivan, Bilgi Universitetinin nümayəndəsi Sinan Can Kaymak, Üsküdar Universitetinin Xarici əlaqələr üzrə direktoru Emre Üçsular, təhsil ekspertləri, media nümayəndələri və digərləri Xəzər Universitetinin sərgi salonu ilə tanış oldular.

Kompüter elmləri, inşaat mühəndisliyi, kompüter mühəndisliyi, maliyyə, iqtisadiyyat, psixologiya üzrə bakalavr ixtisasları Xəzər Universitetinin ən çox maraq göstərilən ixtisasları idi. Universitetin magistratura ixtisasları da sərgiyə gələnləri çox maraqlandırırdı. İctimai əlqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Tələbə və qəbul şöbəsinin müdiri Lamiyə Namazova və Ümumi şöbənin koordinatoru Sevinc Şəfiyeva universitetlə bağlı geniş məlumat verdilər və çoxsaylı sualları cavablandırdılar. Sərgi iştirakçılarınau niversitetin fakültələri və ixtisasları ilə bağlı broşürlər təqdim edildi.




# KHAZAR UNIVERSITY AT "EDUCATION FAIR OF TURKISH UNIVERSITIES"

On April 29-30, "Razi Valiyev: Turkish Universities Education Fair "was held by "Academy Group" in Baku. Along with the 30 Turkish Universities , Khazar University took part in Education fair as well. Education Fair started with the memorial ceremony of "Academy Group" founder Razi Valiyev. Alovset Amirbeyli, Director for Public Relations and Media at Khazar University also made a speech at the ceremony. Then the exhibition was declared open for secondary school students, parents, teaching staff and public.

There was an even greater interest to the eduacation fair than previous years. Khazar Unviersity as always was in the spotlight of students, parents and Turkish Universities this year. Professor Adalat Muradov , Rector of Azerbaijan State University of Economic (UNEC); Professor Mehmet Hakki Alma, Rector of Igdir University; Salman Arslanbash, Vice President for Foreign Affairs of Istanbul Aydin University; Emre Ucsular, Coordinator on International Relations at Istanbul Zaim

University, education experts, mass media representatives and others visited the exhibition hall of the Khazar University. The most interested bachelor's specialties of Khazar University were computer science, civil engineering, computer engineering, finance, economics, psychology. Education fair visitors were more interested in Master specialties of University. Alovset Amirbeyli, Director for Public Relations and Media, Lamia Namazova, Head of the Department of Admission and Sevinj Shafiyeva, Coordinator of General Department gave detailed information about University and answered questions of visitors. A large number of brochures associated with faculties and majors of University were presented to exhibition visitors. Photos were taken with vititors.



## İĞDIR UNİVERSİTETININ REKTORU "XƏZƏR"DƏ

Mayın 2-də Türkiyənin İğdır Universitetinin rektoru professor Mehmet Hakkı Alma və həmin universitetin dosenti Şahin Əhmətoğlu Xəzər Universitetində oldular. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı qonaqları səmimi salamlayaraq, onlara universitet haqqında geniş məlumat verdi. Görüşdə İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli iştirak etdir-di

Professor H. İsaxanlı və professor M. H. Alma arasında hərtərəfli əməkdaşlıq və Mevlana Proqramı çərçivəsində müqavilələr imzalandı. Qonaqlar Xəzər Universitetinin laboratoriyaları ilə tanış oldular, xalçaçılıq və zərgərlik proqramları üzrə dərs alan tələbələrlə görüşdülər.

## RECTOR OF IGDIR UNIVERSITY VISITS KHAZAR UNIVERSITY

On May 2, Professor Mehmet Hakki Alma, Rector of Igdir University and Shahin Ahmedoglu, associate professor of the university visited Khazar university. Professor Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees, welcomed the guests and gave them through information about the university. Alovsat Amirbeyli,the Director of Public Relations and Media Office also took part in the meeting.

Professor Hamlet Isakhanli and professor Mehmet Hakki Alma , the Rector of Igdir University signed agreements within the framework of comprehensive cooperation and Mevlana Program. The guests visited the university laboratories, met with the students studying carpet weaving and jewelry programs.

## İRAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN SƏDRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Mayın 2-də İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin sədri Əsgər Farsi Xəzər Universitetində oldu. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Mədəniyyət Mərkəzinin sədrini səmimi salamladı. Ona Xəzər Universiteti haqqında və İran Mədəniyyət Mərkəzi ilə birgə görülən işlər haqqında məlumat verdi. Ə.Farsi gələcəkdə Mədəniyyət Mərkəzi ilə birgə maraqlı mədəni tədbirlərin keçirilməsi üçün Xəzər Universiteti tərəfindən köməklik göstərilməsini xahiş etdi.



## HEAD OF THE CULTURAL CENTER OF IRAN VISITS KHAZAR UNIVERSITY

On May 2, Asger Farsi, the Head of the Cultural Center of Iranian Embassy in Azerbaijan visited Khazar University. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, greeted guests, and gave information about Khazar University, joint works done in coorperation with Cultural Center of Iran. Asger Farsi asked for support from Khazar University to hold various cultural events in future

ŞƏRQ
GÜNDƏLİK İCTİMAİ SİYASİ QƏZET
www.sherg.az

## PROFESSOR ISAKHANLI SPEAKS ABOUT SHORTCOMINGS IN TEACHING FOREIGN LANGUAGES

On May 3, an article, entitled "Hamlet Isakhanli said "it is wrong" was published on the official website of "Şərq" (Sherg) newspaper. Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees elucidates the reasons for the failures in teaching foreign languages in institutions of higher education.

For the full version of the article visit the following link:

*http://www.sherg.az/site/id-30480/Hamlet_İsaxanlı_"yanlışdır"_dedi.*

AVRASİYA ƏMƏKDAŞLIQ FONDU

## PROFESSOR HAMLET İSAXANLI AVRASİYA ƏMƏKDAŞLIQ FONDUNUN NÖVBƏTİ GÖRÜŞÜNDƏ İŞTİRAK ETDİ

Mayın 5-6-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı idarə heyətinin üzvü olduğu Avrasiya Əməkdaşlıq Fondunun Tbilisidə keçirilən növbəti görüşündə iştirak etdi.

USAID-in Missiya rəhbərinin müavini cənab Thomas Morris, Gürcüstanın Təhsil naziri Aleksandre Jejelava, Gürcüstanın Avropaya və Avro-Atlantik Məkana İnteqrasiya naziri Victor Dolidze, Niderland Krallığının Gürcüstandakı səfiri Jos Doumas, İsveç səfirliyinin nümayəndələri Helena Sanço və Zviad Kvlividze, İnsan Hquqları Komitəsinin rəhbəri Sofio Kiladze, Təhsil Komitəsinin rəhbəri Mariam Jashi və başqa dövlət rəsmiləri, səfirlik nümayəndələri və parlamentarların qatıldığı tədbirdə professor İsaxanlı bir sıra vacib görüşlər həyata keçirdi.

EURASIA PARTNERSHIP FOUNDATION

## PROFESSOR HAMLET ISAKHANLI AT THE NEXT MEETING OF EURASIA PARTNERSHIP FOUNDATION

On April 5-6, Professor Hamlet Isakhanli, Founder of Khazar University, the Chairman of its Board of Directors and Truestees, participated at the next meeting of Eurasia Partnership Foundation held in Tbilisi. He is a Board Member of Eurasia Partnership Foundation.

Professor Isakhanli had a number of important meetings in the event attended by Mr. Thomas Morris, USAID Deputy Mission Director; Aleksandre Jejelave, Minister of Education and Science of Georgia; Victor Dolidze, State Minister on European and Euro-Atlantic Integration; Jos Doumas, Ambassador of Netherlands to Georgia, Helena Sancho and Zviad Kvlividze, representatives of the Swedish Embassy; Sofo Kiladze, the Chair of the Human Rights and Civil Integration Committee; Mariam Jashi , the Chair of the Education, Science and Culture Committee and a number of other government officials, embassy representatives and parliamentarians.



# В АЗЕРБАЙДЖАНЕ НЕТ СПРОСА НА ГОСУДАРСТВЕННЫЙ ЯЗЫК?

_С. Алиева

echo.az
2 мая, 2017

Пожалуй, Азербайджан - одна из немногих республик на постсоветском пространстве, в которой так мирно уживаются представители самых разных национальностей.

Прямым доказательством толерантности является и тот факт, что у нас до сих пор достаточно большое количество школ с русским сектором обучения, имеются также вузы и факультеты, на которых высшее образование азербайджанские студенты также получают на русском языке. Без сомнения, это самый лучший индикатор толерантности нашего общества.

Однако с качеством преподавания и знания государственного языка, то бишь азербайджанского, не все так хорошо, как этого хотелось бы, точнее все совсем не хорошо.

Так, на прошлогодних выпускных экзаменах в Баку 8,51% выпускников получили по азербайджанскому языку «2», 30,40% - «3», 35,67% - «4», а 25,42% - «5». Как сообщает Report, об этом отмечается в 12-м выпуске журнала «Абитуриент» Государственного экзаменационного центра.

Как отметил в беседе с Echo.az **эксперт по вопросам образования, учредитель университета «Хазар» Гамлет Исаханлы**, вся суть проблемы исходит из отношения многих граждан страны к родному языку.

«К сожалению, весьма «прохладное» отношение к изучению азербайджанского имело место быть еще во времена СССР, и сегодня, к сожалению, в этом вопросе мало что изменилось. Во время Советского Союза при изучении русского языка, иностранных языков использовалась более методически продуманная программа по сравнению с программой, предусмотренной для преподавания родного языка. Сегодня происходит фактически то же самое», - отметил он.

По словам эксперта, наши граждане полагают, что английский, немецкий, русский или любой другой иностранный язык гораздо важнее для их ребенка, нежели национальный или государственный язык, а потому его изучению они уделяют мало внимания.

«Понятно, что в период глобализации иностранные языки крайне необходимы, но, в первую очередь нужно знать родной язык. Почему-то многие граждане нашей страны этого не понимают, а потому, грубо говоря, спроса на изучение государственного языка нет,» - сказал он.

«Приведу вам простой пример из собственного опыта: при университете «Хазар» действует школа «Дюнья». Когда мы создавали эту школу, то, руководствуясь принципом того, что образование должно быть на государственном языке, открыли начальную школу на азербайджанском языке. Конечно, в школе преподавались на высоком уровне и английский, и русский языки, но весь процесс обучения осуществлялся на азербайджанском. Однако, спустя пару лет к нам стали обращаться родители с вопросами по поводу того, почему мы не создадим английский и русский секторы. У нас частная школа и мы, руководствуясь спросом родителей, открыли еще русский и английский секторы. Спустя какое-то время мы заметили, что спрос на сектора с английским и русским языком обучения выше, чем на азербайджанский сектор. При этом в эти секторы своих детей отдают не иностранные граждане, а азербайджанцы…».

Эксперт также отметил, что не раз задавался вопросом о том, как же изменить ситуацию, как сделать так, чтобы спрос именно на азербайджанский язык, являющийся государственным, вырос.

«Думаю, что тут единственный выход - государство должно серьезно заняться этим вопросом и изменить систему контроля за качеством преподавания азербайджанского языка. Тут нужно разрабатывать некие новые механизмы и менять подход к вопросу на все 100%. Еще раз повторюсь - качество преподавания определяется, в первую очередь, спросом на язык, если спроса нет, то и качества не будет», - отметил наш собеседник.

По словам Г.Исаханлы, еще один момент, который необходимо пересмотреть, - это система экзаменирования при проверке знания азербайджанского языка.

«Проверка уровня знания языка у нас в стране подразумевает исключительно проверку знания грамматики, но это в корне не верный подход. Грамматика необходима, но не настолько, как живая речь, используемая в общении. Нужно проверять знание языка как средства коммуникативного общения, а не как нечто статичное, состоящее из свода правил,» - объяснил он.

«Если система будет строиться таким образом, то граждане начнут больше общаться на правильном родном языке, так как они будут знать, что в случае незнания родного языка они не поступят в вуз, не получат работу и т.д. Нам нужно брать пример с системы образования США, где при поступлении в вуз абитуриент сдает всего два экзамена - экзамен по математике и экзамен на знание национального языка, причем знание языка проверяется в динамике общения, а не на основании знания правил», - резюмировал Исаханлы.

Как ранее отмечала в беседе с Echo.az **председатель общественного объединения «Поддержка развития связей с общественностью» Шалала Гасанова**, вопрос знания государственного языка на высоком уровне должен быть одним из приоритетных направлений у правительства АР.

«Сегодня азербайджанский язык оказался в не очень хорошем положении. На государственном языке плохо говорят даже жители Азербайджана, что уж говорить о наших соотечественниках, проживающих за рубежом. Конечно, это касается далеко не всех», сказала она. «Многие наши соотечественники хотят выучить азербайджанский язык, но сталкиваются с проблемой отсутствия необходимых материалов.»

*http://ru.echo.az/?p=59105*

ŞƏRQ

# HAMLET İSAXANLI "YANLIŞDIR" DEDİ

*2017-ci il mayın 3-də "Şərq" qəzetinin internet səhifəsində "Hamlet İsaxanlı "yanlışdır" dedi" başlıqlı məqalə yayımlanmışdır. Məqalədə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ali təhsil müəssisələrində xarici dil tədrisindəki qüsurların səbəblərini izah edir. Məqaləni oxucularımıza təqdim edirik.*

"Xarici dilin öyrədilməsində qrammatika yox, ünsiyyət ön plana çıxmalıdır. Bizdə ənənə belə olub ki, daha çox dilin qramatikasını öyrətsinlər. Ona görə də, uşaqlar xaricə gedəndə və danışmaq lazım gələndə problemlərlə üzləşirlər"

Təhsil Nazirliyinin illik hesabatında çıxış edən nazir Mikayıl Cabbarov bəzi dərsliklərdə dəyişiklik ediləcəyini bildirib. Belə ki, ilk dəfə olaraq xarici dil tədrisində istifadə olunan dərsliklərin beynəlxalq mütəxəssislərin iştirakı ilə hazırlanması nəzərdə tutulur.

Nazir, təhsilin məzmununun təkmilləşdirilməsi məqsədilə xarici dillərin tədrisi üzrə bir sıra layihələrin hazırlandığını qeyd edib. M. Cabbarov, həmçinin, bu cür pilot layihələrin bir çox fənn dərsliklərində də tətbiq ediləcəyini bildirib.

Beynəlxalq mütəxəssislərin xarici dil dərsliklərinin hazırlanmasında iştirakını müsbət qiymətləndirən Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı bu gün xarici dilin öyrədilməsi ilə bağlı proqressiv metodlar olduğunu deyib. Professorun sözlərinə görə, ölkəmizdə olan orta və ali məktəblərdə xarici dilin öyrədilməsini daha çox qrammatika ilə əlaqələndirirlər. Lakin bu, yanlış yanaşmadır: "Milli dərsliklərimizdə ölkə ilə bağlı bir sıra ideoloji məsələlər olur. Hansı ki, xarici mütəxəssislər onu başqa cür başa düşürlər.

Dünya bu sahədə çox inkişaf edib. Təbii ki, böyük təcrübəsi olan beynəlxalq mütəxəssislər var. Onlar dərsliklərin hazırlanması ilə bağlı bir söz deyə bilərlər.

Kimsə ərəb dili öyrənir, 4 il ali məktəbdə oxuyur, universiteti bitirəndən sonra dili yaxşı bilmir. Lakin qrammatika ilə bağlı yetərincə anlayışı var. Məqsəd qrammatika öyrətmək deyil. Dilin öyrədilməsi ilə qrammatikanın öyrədilməsi fərqli şeylərdir. Qrammatikanı o adam öyrənir ki, o, ərəb dili üzrə mütəxəssis olur. Ərəb dili mütəxəssisi olan adama bir az da qrammatika öyrədilir ki, o başa düşsün. Bir də var ki, bu adam ərəb dilində danışmalı, oxumalı və yazmalıdı. Məhz buna görə də dərsliklər dediyimiz prinsiplərə, işin fəlsəfəsinə görə tərtib olunur".

Professorun sözlərinə görə, xarici dilin öyrədilməsində interaktiv metodlardan istifadə etmək lazımdır. Yəni, qrammatika yox, ünsiyyət ön plana çıxmalıdır:

"Bizdə ənənə belə olub ki, daha çox dilin qrammatikasını öyrətsinlər. Ona görə də, uşaqlar xaricə gedəndə və danışmaq lazım gələndə problemlərlə üzləşirlər. Məsələn, uşaq doğma dilini öyrənərkən valideynləri, qardaş və bacısı ilə ünsiyyətdə olur. Düzgün şəkildə dil öyrənmək də bu formada olmalıdır.

Bu problemlərlə çox üzləşmişəm. Xəzər Universitetini təsis edəndə xarici dili öyrətməklə bağlı təcrübəm var idi. Mən dərslərin adını - "reading", "writing", "speaking" kimi, yəni "oxumaq", "yazmaq" və "danışmaq" formasında olmasını təklif edirdim. Amma razılaşmaq istəmirdilər, bildirdilər ki, adlar fonetika, qrammatika və morfologiya kimi olmalıdır. Çünki müəllimlər özləri o cür öyrəniblər və şagirdlərə, tələbələrə də elə öyrədə bilirlər. Ona görə məcbur oldum ki, ovaxtkı müəllimlərin hamısı xaricə təlimə göndərilsin və xaricdən mütəxəssis cəlb edilsin. Xarici dillərin tədrisində beynəlxalq mütəxəssislərin təcrübəsini öyrənmək və onları tətbiq eləmək olduqca lazımlı bir addımdır".

**Yeganə Bayramova**

*http://www.sherg.az/site/id-30480/Hamlet_İaxanlı_"yanlışdır"_dedi*



## MİSİRİN TƏHSİL NAZİRİNİN BİRİNCİ MÜAVİNİ XƏZƏR UNİVERSİTETİNDƏ

Mayın 4-də Misir Ərəb Respublikası Təhsil nazirinin birinci müavini professor Hossam El-Malehy və Misir Mədəniyyət və Təhsil Attaşesi Dr.Ahmet Sami Elaydi Xəzər Universitetində oldular. Qonaqları Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı səmimi salamlayaraq, yenidən görüşmələrinə məmnun olduğunu bildirdi. O, Xəzər Universiteti haqqında qonaqlara məlumat verdi.

Sonra H.İsaxanlı qonaqlara Xəzər Universitetinin rəhbərliyini təqdim etdi. Misirli qonaqlar universitetin rektoru professor Hassan Niknafs, Akademik işlər üzrə prorektor professor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, Təhsil fakültəsinin dekanı Elza Səmədova, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, Beynəlxalq Əlaqələr Ofisinin direktoru Turan Cəfərova və digərləri ilə tanış oldular. T.Cəfərova Xəzər Universiteti haqqında təqdimat etdi.

Təhsil nazirinin müavini Hossam El-Malehy və Hamlet İsaxanlı bir-birilərinə hədiyyələr təqdim etdilər. Turan Cəfərova universitet haqqında görüntülü məlumatları qonaqlara çatdırdı. Misirli qonaqlar universitetin Kitabxana-İnformasiya Mərkəzi, laboratoriyalar və sinif otaqları ilə tanış oldular.

Qonaqların şərəfinə ziyafət verildi. Xatirə şəkilləri çəkildi.

## THE FIRST DEPUTY MINISTER OF EDUCATION OF EGYPT VISITS KHAZAR UNIVERSITY

On May 4, the First Deputy Minister of Education of the Arab Republic of Egypt Hossam El-Malehy and Dr.Ahmed Sami Elaydy, Cultural and Educational Attache of Egypt visited Kazar University. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, greeted the guests and expressed his pleasure at meeting them again. He gave information about Khazar University to the guests. Later he introduced the administration of the university to the guests. The guests from Egypt got acquainted with Hassan Niknafs, Rector of the University; Professor Mahammad Nuriyev, Vice President of Khazar University for Academic Affairs; Dr. Isakhan Isakhanli, Vice President for Administration and Student Affairs; Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences; Elza Samadova, Dean of the School of Education; Jeyhun Mammadov, Dean of the School of Economics and Management; Alovsat Amirbayli, Director of Media and PR Office; Raziya Isayeva, Director of the Development Center; Lyudmila Sotova, Director of Quality Assurance Center; Turan Jafarova, Director of International Affairs Office and others. Turan Jafarova made a presentation about Khazar University. The Deputy Minister of Education of Egypt and Hamlet Isakhanli gave presents to each other. The guests also got acquainted with the Library-Information center, laboratories and classrooms at the university.

A banquet was organized in honor of the guests. Photos were taken at the end of the event.





# XƏZƏR UNİVERSİTETİNDƏ 42 - Cİ MƏZUNLUQ MƏRASİMİ

Mayın 7-də "Dünya" məktəbinin konfrans salonunda Xəzər Universiteti məzunlarının 42-ci buraxılış mərasimi keçirildi. Mərasimdə universitetin rəhbərliyi, professor-müəllim heyəti, tələbələr, valideynlər və qonaqlar iştirak edirdilər. Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başlandı.

Xəzər Universitetinin rektoru Nassan Niknafs məzunları təbrik edərək, yeni həyat yollarında onlara uğurlar arzuladı.

Qeyd olundu ki, 26 il ərzində universiteti, bugünkü məzunlar da daxil olmaqla (94 bakalavr, 7 magistr), 3038 bakalavr, 623 magistr bitirmişdir. Onlardan 767-si fərqlənmə diplomu almışdır.

Universitetin rəhbərliyi adından məzunlara ünvanlanan məktub tədbirin aparıcıları tərəfindən oxundu.

Mərasimdə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Xəzər Universitetinin əvvəlki məzunlarının təbrik video-çarxları nümayiş etdirildi. Daha sonra məzunlara diplomların təqdim olunması mərasimi başlandı. Diplomları rektor Hassan Niknafs, prorektor Məhəmməd Nuriyev, fakültə dekanları və departament müdirləri, müəllimlər təqdim etdilər.

Mərasimdə tələbəlik müddəti ərzində Xəzər Universitetində könüllü fəaliyyət göstərən 4 məzun " fəal fəaliyyətlərinə" görə təltif olundular və sertifikatları prorektor İsaxan İsaxanlı təqdim etdi. Məzunlardan ibarət xorun çıxışından sonra, onlar Xəzər Universitetinin andını söylədilər.

*(Ardı səh. 20-də)*







# KHAZAR UNIVERSITY'S 42nd GRADUATION CEREMONY



On May 7, the 42nd graduation ceremony of Khazar University students was held in the conference hall of "Dunya" School. University administration, professors, teachers, students, parents and guests took part in the event. The ceremony started with the National Hymn of the Azerbaijan Republic.

Dr. Hassan Niknafs, President of Khazar University, congratulated the graduates and wished them success in their future life and career.

It was also mentioned that for all 26 years 3038 bachelor and 623 master degree students (including 94 bachelor and 7 master studnets for the current year) graduted from Khazar University. 767 students among them got the honor diploma. The hosts of the event read University Administration's letter addressed to the students.



The congratulations videos of Khazar University's previous years graduates who currently work in different countries of the world were presented to the audience. Then diploma presentation ceremony started. Dr. Hasan Niknafs, President of the University; Professor Mahammad Nuriyev, Vice President of Khazar University for Academic Affairs; deans of schools; chairs of departments; and instructors presented diplomas. 4 students who volunteered during their study years were awarded for their "active participation" and the certificates were presented by Dr. Isakhan Isakhanli, Vice President for Administration and Student Affairs. After the chorus performance, the graduates took the Khazar University oath.

*(To be continued on page 21 )*







Mərasimdə keçmiş məzunlar adından Mərkəzi Bankın Təhsil və ikişaf departamentinin şöbə rəisi Xumar Hüseynova, Dəmirbank ASC Baş ofisinin şöbə müdiri, Məzunlar Assosiasiyasının sədr müavini Ramal Əhmədov, Azərbaycan Respublikası Prezident Administrasiyasının əməkdaşı Səadət Novruzova çıxış edərək bildirdilər ki, aldıqları təhsil, qazandıqları bilik və bacarıqlar "Xəzər"in məzunlarına seçdikləri sahədə uğur qazanmalarına zəmin yaradır. Onlar dövlət qurumlarında, özəl şirkətlərdə çalışır, böyük layihələrə, yeniliklərə imza atırlar, xeyli hissəsi öz özəl işlərini qururlar.

Valideynlər adından Azadə Səmədova çıxış edərək, universitetin rəhbərliyinə və müəllim kollektivinə minnətdarlıq bildirdi.

Məzunlardan Nizami Əliyev, Ayşən Bəşirova və Hüseyn Qəhrəmanlı Hamlet İsaxanlının "Səni sevdim çox sadəcə" şeirinə nəzirələr söylədilər.

Professor Hamlet İsaxanlı məzunları təbrik etmək üçün mərasimdə çıxış etdi. O, universitetdə yaradılmış əlverişli təhsil mühitindən, yalnız yüksək keyfiyyətli mütəxəssislər yox, eyni zamanda hərtərəfli inkişaf etmiş gənc nəsil yetişdirilməsindən, professor-müəllim heyətinin gərgin və səmərəli işindən, universitetin dünyanın aparıcı ali məktəbləri ilə hərtərəfli əlaqələrindən, maddi-texniki bazanın daim genişlənməkdə olmasından və "Xəzər"in beynəlxalq təşkilatların reytinq cədvəllərində daim fərqlənərək, Azərbaycan universitetləri arasında birinci yeri tutmasından, həmçinin universitetin gələcəkdə həyata keçirəcəyi tədbirlərdən ətraflı bəhs etdi.

Mərasim məzun olan tələbələrin foto şəkillərindən hazırlanan video-çarxlar və slayd-şouların nümayişi və Musiqi və incəsənət departamentinin hazırladığı, universitetin rəqs kollektivlərinin çıxışlarından ibarət konsert proqramı ilə müşayiət olundu.

Mərasim məzunların Hamlet İsaxanlıya gül dəstələrinin təqdim olunması və xatirə şəkillərinin çəkilməsi ilə başa çatdı.





Khumar Huseynova, Head of the Training and Development Division of HR Department in the Central Bank; Ramal Ahmadov, Head Office Group Leader in Demirbank JSC and Vice President of Alumni Association; Saadat Novruzova , the employee of the Azerbaijan Presidential Administration delivered speeches on behalf of previous gradutes of the university and emphasized that the knowledge and experience gained at Khazar University will pave the way for the successful future career of the students. Most of Khazar graduates currently work in govermental organizations, private companes and some run their own business.

On behalf of parents Azada Samadova spoke to express her gratitude to the university administration and teachers.

Students Nizami Aliyev, Ayshan Bashirova and Huseyn Gahramanli recited naziras to Hamlet Isakhanli's poem "I just loved you much".

Prof. Hamlet Isakhanli made a speech in the event to congratulate the graduates. He talked about favorable educational atmosphere at the university, emphasising that it not only prepares high-quality professionals but also raises up a well-rounded young generation. He also highlighted hard work of professor-teacher staff, university's close relationships with other universities of the world, the ever-growing material and technical base, Khazar University's being the first among Azerbaijan universties in international organizations' ranking and also about the future plans of the university

The ceremony continued with videos and presentations of graduates' photos and the concert program consisting of performances of university's dance groups organized by the Department of Music and Fine Arts. The ceremony ended with graduates' presenting flowers to Hamlet Isakhanli and taking memory photos.



# "Yeddi gözəlin sevgi əfsanəsi"







Mayın 8-də Xəzər Universitetinin Mərkəz kampusunun "Dünya" konsert salonunda Xəzər Universitetinin klassik əsərlər mövzusunda tamaşalar hazırlamaq layihəsi çərçivəsində Nizaminin "Yeddi gözəl" əsəri əsasında hazırlanmış "Yeddi gözəlin sevgi əfsanəsi" tamaşası göstərildi. İlk tamaşa - Füzulinin "Leyli və Məcnun" poeması əsasında hazırlanmış "Leyli Məcnun və məhəbbət" tamaşası 2016-cı ilin dekabr ayında nümayiş etdirilmişdi.

Tədbirdə Xəzər Universitetinin rəhbərliyi, "Xəzər"in və digər universitetlərin tələbələri, valideynlər, qonaqlar, o cümlədən xalq artistləri, məşhur rəqqasələr Roza Cəlilova və Cəmilə Bayramova iştirak edirdilər.

Quruluşçu rejissoru Xəzər Universitetinin rəqs müəllimi Səbinə İsmayılova olan tamaşa Xəzər Universitetinin tələbə qızlardan və oğlanlardan ibarət rəqs ansamblının, həmçinin Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının birgə təşkil etdikləri "Tələbə baharı" yaradıcılıq festivalının digər universitetlərdən (Dövlət İqtisad Universiteti, Memarlıq və İnşaat Universiteti, Dillər Universiteti, Mədəniyyət və İncəsənət Universiteti, Bakı Xoreoqrafiya Akademiyası) olan qaliblərinin iştirakı ilə hazırlanmışdı. Mətnin müəllifi İqtisad Universitetinin tələbəsi Vüsal Nəcəfov, şeirlərin müəllifi Ceyhun Hüseynli, musiqi tərtibatçısı İqtisad Universitetinin tələbəsi Aslan Əzimzadə idi. Tamaşada Qara Qarayevin musiqisindən istifadə edilmişdi.

Salondakıların dərin maraqla izlədikləri tamaşadan sonra quruluşçu rejissor Səbinə İsmayılova da səhnəyə dəvət olunaraq, bütün iştirakçılar alqışlarla qarşılandılar.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, xalq artistləri Roza Cəlilova və Cəmilə Bayramova çıxış edərək, tamaşanı yüksək qiymətləndirdilər və iştirakçılara uğurlar arzuladılar.

# "Love Legend of Seven Beauties"







On May 8, the play "Yeddi gözəlin sevgi əfsanəsi" "Legend of Seven Beauties" based on Nizami's "Yeddi gözəl" ("Seven Beauties") was played at "Dunya" concert within the framework of the project "Preparing plays on the basis of classic works" of Khazar University. The first performance- "Leyli Məcnun və məhəbbət" ("Leyili Majnun and Love") based on Fizuli's "Leyli və Məcnun" ("Leyili and Majnun") was played in December, 2016.

The administration of Khazar University, students from "Khazar" and from the other universities, parents, guests and also Rosa Jalilova and Jamila Bayramova; People's Artists, famous dancers participated at the event.

The director of the play was the dance teacher of Khazar University Sabina Ismayilova.

*(To be continued on page 24 )*







The performance was prepared with the participation of student girls' and boys' dance ensemble of Khazar University and also with the coordination of the winners of " Student Spring" art festival organized by the Ministry of Youth and Sports and Azerbaijan Student Youth Organizations' Union from the other universities (Azerbaijan State Economic University, Azerbaijan State University of Architecture and Construction, Azerbaijan University of Languages, Azerbaijan State University of Culture and Arts, Baku Choreography Academy). The author of the text was Vusal Najafov, a student of Azerbaijan State Economic University, the author of the poems was Jeyhun Huseynli, and the music designer was Aslan Azimzadeh, a student of Azerbaijan State Economic University.

Qara Qarayev's composition was used in the play.

At the end of the event which was greeted with great interest, director Sabina Ismayilova was invited to the stage, and all the participants were welcomed with applauses

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees and People's Artists Rosa Jalilova and Jamila Bayramova highly appreciated the performance and wished success to all participants.

















# JEAN MONNET CONFERENCE ON THE EU - AZERBAIJAN RELATIONS

On May 10, the Department of Political Science and International Relations held a conference on the EU-Azerbaijan relations in the framework of Europe Day celebrations in cooperation with the European Union Delegation in Azerbaijan.

Prof. Hamlet Isakhanli, the founder of Khazar University, the Chairman of its Board of Directors and Truestees, welcomed the conference participants and highlighted the international cooperation projects of the university.

Mr. Denis Daniilidis, the First Counselor of the EU Delegation to Azerbaijan, stressed the positive trend in bilateral relations between the EU and Azerbaijan boosted by the visit of President Ilham Aliyev to Brussels in February 2017 and spoke about the launch of negotiations for a New Comprehensive Agreement. He informed the audience that the first draft text of negotiations originated from the Azerbaijani government which reflects the principles of differentiation and mutual respect between both sides. Mr. Daniilidis also welcomed the resumption of the inter-parliamentary cooperation between the European Parliament and Milli Mejlis of Azerbaijan.

Mr. Orkhan Zeynalov, Head of Division for Cooperation with the EU at the Azerbaijani Ministry of Foreign Affairs, talked about the prospects of bilateral cooperation in areas such as education and science. Mr. Zeynalov also underscored the progress on the Southern Gas Corridor. In his capacity as the Key Negotiator for the part of the agreement on sectorial cooperation, Mr. Zeynalov informed that the first round of negotiation that took place in Baku in late April, 2017 was very constructive and reflected the political willingness of both sides to enhance cooperation in new areas.












Ms. Vusala Gurbanova, Senior Adviser of the Department of Science, Higher and Secondary Education at the Ministry of Education, highly appreciated the support of EU for the internationalization of the higher education in Azerbaijan. She noted that Khazar University is particularly active in international cooperation projects. Ms. Gurbanova also informed the audience about the activities carried out to improve the university study programs.

Dr. Mukhtar Hajizada, Jean Monnet Chair and the Head of the Department of Political Science and International Relations informed the participants about the EU-related courses and research at the department. He informed that the department regularly hosts a series of events, including the one titled European Seminars, delivered by authoritative experts, practitioners, scholars and professors in EU matters to share their expertise with the Azerbaijani audience. Dr. Hajizada highlighted the necessity of promoting the understanding between the communities in the EU and Azerbaijan and welcomed the activities carried out to improve the existing sufficient conditions for it. He mentioned the importance of the agreement between the European Union and the Republic of Azerbaijan on the facilitation of the issuance of visas which came into effect in 2014. He drew attention to the importance of EU's increasing its influence and peaceful intentions in Azerbaijan. Unlike many countries in the neighborhood, there is no EU Resource and Information Centre in Azerbaijan. Therefore Dr. Hajizada mentioned the need for more quantitative interactions and more qualitative communications.

The conference followed by the Model European Union simulation on "Negotiation and Decision Making in the European Council" by the students of departments of Political Science, International Relations and European Studies on energy cooperation and TAP project.





# AVROPA BİRLİYİ VƏ AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNƏ HƏSR OLUNMUŞ JAN MONNE KONFRANSI

Mayın 10-da Xəzər Universiteti Siyasi elm və beynəlxalq münasibətlər kafedrası və Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə Avropa Günü ərəfəsində Avropa Birliyi və Azərbaycan münasibətlərinə həsr olunmuş Jan Monne konfransı keçirildi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı tədbir iştirakçılarını salamladı və universitetin beynəlxalq əməkdaşlığının önəmini vurğuladı.

Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyinin birinci müşaviri Denis Daniilidis Prezident İlham Əliyevin 2017-ci ilin fevral ayındakı Brüssel səfərindən sonra Avropa Birliyi ilə Azərbaycanın ikitərəfli münasibətlərində irəliləyişin baş verdiyini və Yeni Hərtərəfli Saziş üzrə danışıqlar aparılacağını söylədi. O, məlumat verdi ki, danışıqlar üçün Azərbaycan hökuməti tərəfindən təqdim olunmuş ilkin sənədin layihəsi tərəflər arasında qarşılıqlı hörmət prinsiplərini əks etdirir. Denis Daniilidis Avropa Parlamenti və Milli Məclis arasındakı parlament əməkdaşlığının bərpa olunmasınını da nəzərə çatdırdı.

Xarici İşlər Nazirliyinin Avropa Birliyi üzrə əməkdaşlıq şöbəsinin müdiri Orxan Zeynalov təhsil və elm sahələrində ikitərəfli əməkdaşlığın perspektivlərindən söhbət açdı. O, Cənub Qaz Dəhlizi üzrə irəliləyişləri vurğuladı. Saziş çərçivəsində sektorlar üzrə əməkdaşlıq üçün Əsas Vasitəçi vəzifəsinin icraçısı kimi Orxan Zeynalov məlumat verdi ki, ilk raundu 2017-ci il aprel ayının sonlarında Bakıda keçirilmiş danışıqlar konstruktiv xarakter daşımış və yeni sahələr üzrə əməkdaşlığın gücləndirilməsi üçün siyasi iradəni əks etdirmişdir.

Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin aparıcı məsləhətçisi Vüsalə Qurbanova Azərbaycanda ali təhsilin beynəlmiləlləşdirilməsi üçün Avropa İttifaqı tərəfindən göstərilən dəstəyi yüksək qiymətləndirdi. Xəzər Universitetinin beynəlxalq əməkdaşlıq layihələrində xüsusi fəallığını qeyd etdi. İxtisaslar üzrə dövlət standartlarının yenidən işlənib hazırlanması istiqamətində yeni ekspertlərin cəlb olunmasının nəzərdə tutulduğunu bildirdi.

Siyasi elm və beynəlxalq münasibətlər kafedrasının müdiri, Jan Monne Kürsüsü mükafatı laureatı, siyasi elmlər üzrə fəlsəfə doktoru Muxtar Hacızadə Avropa inteqrasiyasını əhatə edən fənlər və elmi işlər barədə iştirakçıları məlumatlandırdı. Qeyd olundu ki, Jan Monne Avropa Seminarlar Seriyası da daxil olmaqla öz sahələrində nüfuz qazanmış ekspert, alim, tədqiqatçı və professorlar tərəfindən Avropa Birliyi problemlərini Azərbaycan auditoriyası ilə müzakirə etmək üçün kafedra tərəfindən mütəmadi qaydada bir sıra tədbirlər silsiləsi təşkil olunur. Muxtar Hacızadə, Avropa Birliyi və Azərbaycan cəmiyyətləri arasında anlaşmanın təşviq olunmasının önəmini və bu istiqamətdə görülən işləri xüsusi vurğuladı. 2014-cü ildə qüvvəyə minmiş Azərbaycan Respublikası və Avropa Birliyi arasında vizaların rəsmiləşdirilməsinin sadələşdirilməsi haqqında sazişin vacibliliyini qeyd etdi. O, Avropa Birliyinin Azərbaycanda öz nüfuzunu və sülhpərvər niyyətlərini sistematik şəkildə artırmağın əhəmiyyətini diqqətə çatdırdı. Təəssüflə qeyd olundu ki, Avropa Birliyinin qonşuluğundakı bəzi ölkələrdən fərqli olaraq Azərbaycanda Avropa resurs və informasiya mərkəzləri yoxdur. Muxtar Hacızadə daha çox təmaslara və keyfiyyətli kommunikasiyalara ehtiyac olduğunu xatırlatdı.

Konfransdan sonra politologiya, beynəlxalq münasibətlər və avropaşünaslıq ixtisasları üzrə təhsil alan tələbələrin iştirakı ilə Trans Adriatik Boru Xətti üzrə əməkdaşlığın gərgin müzakirə edildiyi "Avropa Birliyinin Nazirlər Şurasının simulyasiyası" təşkil olundu.



# АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЛИШИЛИ ДВУХ МИЛЛИОНОВ ДОЛЛАРОВ

Гранты, предназначенные для Азербайджана и выделенные по согласованной в Минобразования АР заявке, были перенаправлены в Грузию и Испанию. Университет "Хазар" лишился грантов на сумму около двух миллионов долларов. Об этом Sputnik Азербайджан заявил учредитель вуза Гамлет Исаханлы. По его словам, с 2016 года университет не смог оформить в Азербайджане полученные гранты из Европы по программе Erasmus+, направленные на реформы в сфере образования. По словам Исаханлы, министерство юстиции Азербайджана отказалось регистрировать грант, ссылаясь на действующее законодательство, в результате чего два миллиона долларов перенаправили в университеты Грузии и Испании. И это при том, что заявка на грант была одобрена и согласована с министерством образования АР. Таким образом, университету отказали в дополнительном финансировании в рамках тех же законодательных актов, что предназначены для неправительственных организаций Азербайджана. Хотя, в отличие от НПО, вузу эти средства нужны были не для общественной деятельности, а для повышения заработной платы и обучения педагогического состава. А между тем, Исаханлы утверждает, что университет переживает нелегкие времена. После девальвации доходы вуза сократились вдвое. Кроме того, обанкротился банк, на счету которого находились средства учебного заведения. Несмотря на это, руководство университета не планирует увеличивать размер платы за обучение студентов. "Ни в прошлом году, ни в нынешнем мы не планировали вносить серьезные коррективы в размер платы за обучение. Считаем, что в настоящий период у всех финансовая ситуация достаточно схожа. Финансовые трудности затрагивают каждого, то есть и родителей, и частные компании. Поэтому по мере возможности мы не намерены вносить серьезные изменения в сумму оплаты за обучение в вузе", — подчеркнул ректор. Отметим, что в настоящее время, в зависимости от факультетов, размер платы за обучение в Университете "Хазар" варьируется от трех до четырех с половиной тысяч манатов в год.

**Наталья Селиверстова**

**Баку, 19 мая**

https://ru.sputnik.az/science/20170519/410334270/universitet-hazar-dva-milliona-dollarov.html

## AZƏRBAYCAN İQTİSAD UNİVERSİTETİNDƏ GÖRÜŞ

Mayın 16-da Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin magistratura proqramlarının tanıtımına dair Azərbaycan Dövlət İqtisad Universitetində tələbələrlə görüş keçirildi. Görüşdə Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov və İqtisadiyyat və menecment departamentinin professoru İnqilab Əhmədov iştirak etdilər.

Görüş zamanı Xəzər Universitetinin magistratura proqramları haqqında ətraflı məlumat verildi, proqramların fərqliliyi və üstünlüklərindən, həmçinin, son illərdə universitetin əldə etdiyi nailiyyətlərdən geniş danışıldı.

Sonda tələbələrin sualları cavablandırıldı.

## MEETING AT AZERBAIJAN STATE UNIVERSITY OF ECONOMICS

On May 16, a meeting on presentation of master programs of the School of Economics and Management of Khazar University, was held at the Azerbaijan State University of Economics. Isakhan Isakhanli, Vice President for Administration and Student Affairs; Jeyhun Mammadov, Dean of the School of Economics and Management; Dr. Ingilab Ahmadov, Professor of the Department of Economics and Management participated at the meeting. Comprehensive information on the master programs of Khazar University, their differences and advantages, as well as achievements of the university gained in the recent years was delivered during the meeting.

At the end, students' questions were answered.



# POLŞA SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Mayın 10-da Polşanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Marek Kalva və səfirliyin üçüncü katibi Anna Witak Xəzər Universitetində oldular. Universitetin rektoru Hassan Niknafs qonaqları qəbul etdi, universitetdəki elmi fəaliyyət haqqında geniş məlumat verdi.

Polşalı diplomatlar Tarix departamentinin tələbələri ilə birlikdə yüz il bundan öncə Azərbaycanda yaşamış və fəaliyyət göstərmiş polşalıların tarixinə həsr edilmiş dərsi dinlədilər. Dərsdə Polşanın səfiri və Tarix departamentinin müəllimi Nəsiman Yaqublu çıxış etdilər və tələbələrə Azərbaycanda fəaliyyət göstərən polşalıların şanlı tarixindən danışdılar.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı polşalı diplomatları qəbul etdi. Onlara universitetin quruluş tarixindən bu günə kimi olan fəaliyyətindən danışdı. Səfir M.Kalva Polşa ilə Azərbaycan arasında əlaqələrin yüksələn xətlə inkişaf etdiyini vurğuladı və gələcəkdə Xəzər Universiteti ilə birlikdə hər iki dövlətin yaradılmasının yüz illiyinə həsr edilmiş elmi konfrans keçirilməsini təklif etdi. Səfir xoş qəbul üçün universitet rəhbərliyinə təşəkkürünü bildirdi. Görüşlərdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak etdi.







# POLAND'S AMBASSADOR AT KHAZAR UNIVERSITY

On 10 May, Marek Calka, the Ambassador Extraordinary and Plenipotentiary of the Poland Republic to Azerbaijan and Anna Witak, the 3rd Secretary of the Embassy Anna Witak visited Khazar University. Hassan Niknafs, Rector of the University, accepted the Polish ambassador and the 3rd Secretary, and gave detailed information to the guests about scientific activities of the university. Later, the polish diplomats together with students of the Department of History and Archeology listened to the lecture dedicated to the history of Poles who lived and worked in Azerbaijan hundred years ago. The Polish ambassador and the instructor of the department Nesiman Yagublu made speeches and talked about the glorious history of Poles who lived and worked in Azerbaijan.

Later Prof. Hamlet Isakhanli, the founder of Khazar University, the Chairman of its Board of Directors and Trustees met with the polish diplomats. He gave them information about the establishment history of the university and its activities so far. Ambassador Marek Calka emphasized that relationships between Poland and Azerbaijan are developing rapidly and he offered to hold a conference dedicated to the 100th anniversary of the establishment of two countries in future together in cooperation with Khazar University.

The Ambassador expressed his gratitude to the university administration for pleasant acceptance. The 3rd Secretary of the Embassy Anna Witak and Director of Media and PR Office Mr. Alovsat Amirbayli participated at the meetings.





## "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU




# İLK FƏRQLİ BİBLİOQRAFİYA

Bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəylinin yalnız bir ildəki elmi fəaliyyətini əks etdirən "Akademik İsa Həbibbəyli. Biblioqrafiya – 2016" kitabı çapdan çıxıb.

Kitabda akademik İsa Həbibbəylinin təkcə 2016-cı ildəki çoxşaxəli elmi fəaliyyətinə işıq salınıb, akademikin ötən ildə nəşr olunmuş elmi əsərlərinin biblioqrafiyası, elmi redaktorluq fəaliyyəti və ilin əsas tərcümeyi-hal hadisələri öz əksini tapıb.

Qeyd edək ki, biblioqrafiya nəşri tarixində ilk dəfədir ki, buraya alimin yalnız bir ildə çap etdirdiyi elmi əsərlər daxil edilib.

Biblioqrafiya "Kitablar", "Məqalələr" (Azərbaycan və xarici dillərdə ayrı-ayrılıqda), "Elmi redaktorluq və müqəddiməçilik", "Beynəlxalq konfranslarda", "Elmi rəhbərlik", "Fəxri doktorluq" və "İlin şəkilləri" bölmələrindən ibarətdir.

Kitabda akademik İsa Həbibbəylinin 2016-cı ildə çap edilmiş 3 kitabı, 93 elmi məqaləsi (onlardan 17-si xarici ölkələrin nüfuzlu elmi nəşrlərində dərc olunub), müqəddimə və ön söz yazdığı, elmi redaktorluq etdiyi 37 kitab haqqında biblioqrafik məlumat, 18 beynəlxalq elmi konfransda iştiraka dair göstəricilər ardıcıllıqla oxuculara təqdim edilir. "İlin şəkilləri"ndə isə bir ildəki gərgin elmi, ictimai və siyasi fəaliyyətin yaddaqalan anları öz əksini tapıb.

"Elm və təhsil" nəşriyyatında işıq üzü görmüş kitabşünaslıq tarixində ilk fərqli biblioqrafiyanın tərtibçisi filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov, redaktoru filologiya üzrə fəlsəfə doktoru Zakirə Əliyevadır.

Biblioqrafiya ədəbiyyatşünaslar, elmi ictimaiyyət üçün qiymətli mənbədir.



# "MƏHTİMQULU FƏRAQİ - DOSTLUQ VƏ QARDAŞLIQ NƏĞMƏKARI" MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANS

Mayın 18-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında görkəmli türkmən şairi Məhtimqulu Fəraqinin xatirəsinə həsr olunmuş "Məhtimqulu Fəraqi - dostluq və qardaşlıq nəğməkarı" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

AMEA-nın vitse-prezidenti akademik İsa Həbibbəyli tədbiri giriş sözü ilə açaraq Azərbaycan-Türkmənistan ədəbi əlaqələrinin müasir inkişafının yüksək səviyyəsindən danışıb. Nizami adına Ədəbiyyat İnstitutu tərəfindən şairin Azərbaycanda tapılan "Divan"ının çapının ədəbi əlaqələrimizə töhfə olduğunu diqqətə çatdıran akademik İsa Həbibbəyli eyni zamanda görkəmli türkmən şairi Məhtimqulu Fəraqinin yaradıcılığının, onun xatirəsinin ölkəmizdə əziz tutulduğunu və ardıcıl şəkildə bu münasibətlə konfranslar, tədbirlər keçirildiyini bildirib.

Türkmənistanın Azərbaycan Respublikasındakı Səfirliyinin müvəqqəti işlər vəkili Batır Recepov Azərbaycan-Türkmənistan əlaqələrinin əhəmiyyətindən danışaraq beynəlxalq konfransın təşkilinə görə akademiya rəhbərliyinə, o cümlədən AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə təşəkkürünü bildirib.

Beynəlxalq konfransda AMEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, akademik Teymur Kərimli "Türk ellərinin böyük şairi Məhtimqulu Fəraqi" mövzusunda məruzə ilə çıxış edib.

Sonra filologiya üzrə fəlsəfə doktoru İsmixan Osmanlının "Məhtimqulu Fəraqinin poemaları" mövzusunda məruzəsi dinlənilib.

Məruzələrdə Məhtimqulu Fəraqinin həyat və yaradıcılığı barədə söhbət açılıb, şairin poemalarının ilk dəfə Azərbaycanda həm Azərbaycan, həm də türkmən dillərində nəşrə hazırlandığı bildirilib.

Filologiya üzrə elmlər doktoru Paşa Kərimov "Oğuz türkləri ədəbiyyatının qüdrətli nümayəndəsi Məhtimqulu Fəraqi" və Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı Töhfə Talıbova "Məhtimqulu Fəraqinin Azərbaycanın qədim Nuxa (Şəki) şəhərində olması barədə" mövzularında çıxış ediblər.

Sonda mövzu ətrafında müzakirələr aparılıb.

Tədbirdə Nizami adına Ədəbiyyat İnstitutunun alim və mütəxəssisləri, Türkmənistanın Azərbaycan Respublikasındakı səfirliyinin nümayəndələri, ölkənin tanınmış elm xadimləri və media nümayəndələri iştirak ediblər.



Wishing me like to one more rich in hope,
Featured like him with friends possessed,
Desiring this man's art and that man's scope,
With what I most enjoy contented least.
(*sonnet 29*)

İstərəm yüksəlsin göyə ad-sanım,
Dostlarım çox olsun, ümidim də bol.
Sənətdə parlasın şöhrətim, şanım,
Açılsın qarşımda geniş, azad yol.
(*sonet 29*)

# ŞEKSPİR YARADICILIĞINA HƏSR OLUNMUŞ TƏDBİR

# EVENT DEDICATED TO SHAKESPEARE'S LITERARY WORK





Aprelin 26-da Xəzər Universitetində Şekspir yaradıcılığına həsr olunmuş tədbir keçirildi. Tədbirdə departament müdirləri, müəllim və tələbələr iştirak edirdilər.

Tədbiri İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirova açaraq, Şekspirin yaradıcılığı haqqında məlumat verdi. Qeyd etdi ki, dünya ədəbiyyatında böyük dramaturq, humanist şair kimi tanınmış Vilyam Şekspirin yaradıcılığında xalqına olan dərin məhəbbəti, insanı düşündürən mənəvi-psixoloji problemlər, real həyat motivləri əsas yer tutur. Onun əsərləri ilə az-çox tanış olanlar, eyni bir fikri hər dəfə təkrar oxiyarkən yenə də heyran qalmaya bilmir, yenilik tapırlar.

Şekspir yaradıcılığı Azərbaycan ədəbiyyatında xüsusi yer tutur və oxucular tərəfindən müsbət qarşılanır. Şekspir Azərbaycan xalqının məişətinə daxil olmuşdur, Şekspir qəhrəmanlarının sözləri zərb-məsəllərə çevrilmişdir, Şekspir qəhrəmanlarının adlarını daşıyanlar da az deyil.

F. Nəsirova "Şekspirin əsərləri həyat rəmzi, gözəllik rəmzidir" - deyə, sözünü bitirdi.

Sonra Humanitar və sosial elmlər fakültəsinin 3-cü, 4-cü kurs və magistr tələbələri Şekspirin "Otello", "Romeo və Culyetta", "Hamlet" və bir sıra digər əsərlərindən parçalar söylədilər. Əhəd Ağakişiyev (Hamletin monoloqu), Səbinə İbrahimova, Selcan Əliyeva, Sevinc Dadaşzadə, Aysel Həsənova, Nurana İsgəndərova, Fidan Hüseynova, Ülkər Rəsulova, Nərgiz Rufullazadə və Fəridə İsayeva Şekspirin əsərlərindən parçaları və sonetlərini ingilis dilində məharətlə ifa etdilər.

İştirakçılar tələbələrin çıxışlarını yüksək qiymətləndirdilər.



On May 26, an event dedicated to Shakespeare was held at Khazar University. Head of departments , instructors and students of the university took part in the event. Firangiz Nasirova, Senior Instructor of the Department of English Language and Literature, opened the event and gave information about Shakespeare's works. She also noted that deep love for people, thought-provoking spiritual and psychological questions, real life motives were primary focus on Shakespeare's works who is known as world's greatest playwright and humanist poet. Those who are familiar with his works more or less get inspired and find something new when they re-read his works.

Shakespeare's works have a special place in Azerbaijani literature and are welcomed by readers. The words of Shakespeare's heroes are used as sayings nowadays. There are a number of people named after Shakespeare's heroes as well.

F. Nasirova ended her speech with these words: "Shakespeare's works are the symbol of life, symbol of beauty. "

Then, 3rd, 4th year and graduate students of the School of Humanities and Social Sciences performed some parts of "Othello," "Romeo and Juliet", "Hamlet" and other works of "Shakespeare.

Ahad Agakishiyev (Hamlet's monologue), Sabina Ibrahimova, Selcan Aliyeva, Sevinc Dadashzadeh, Aysel Hasanova, Nurana Isgandarova, Fidan Huseynova, Ulker Rasulov, Nargiz Rufullazadə and Farida Isayeva performed sonnets and some parts from the works of Shakespeare in English.

The students' performances were highly appreciated by the participants.











# XƏZƏR UNİVERSİTETİNDƏ İRANDAN GƏLƏN "ŞALU" ZƏRB ALƏTLƏRİ ANSAMBLININ KONSERTİ





Mayın 15-də Xəzər Universitetinin Mərmər salonunda İran Mədəniyyət Mərkəzi və Xəzər Universitetinin təşkilatçılığı ilə İranın Buşəhr vilayətindən gəlmiş "Şalu" zərb alətləri ansamblının konserti oldu. Konsertdə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı başda olmaqla universitetin rəhbərliyi, əməkdaşlar və tələbələr, iranlı qonaqlar – İran Mədəniyyət Mərkəzinin sədri Əsgər Farsi və müavini Əlireza Behbudi iştirak edirdilər.

Konsertdən əvvəl universitetin rektoru Hassan Niknafs çıxış edərək, qonaqları salamladı. İran Mədəniyyət Mərkəzinin sədri Əsgər Farsi çıxışında İranın musiqi mədəniyyəti haqqında qısa məlumat verdi, ölkələrarası əlaqələrin yaranmasında və inkişafında mədəniyyətin böyük əhəmiyyətini vurğuladı.

Sonra "Şalu" ansamblı çıxışa başlayaraq, məharətini nümayiş etdirdi. Salondakıların böyük marağı və alqışları ilə qarşılanan konsertin sonunda rektor Hassan Niknafs konsertin təşkilinə görə İran Mədəniyyət Mərkəzinə və "Şalu" kollektivinə təşəkkürünü bildirdi.



# CONCERT OF IRANIAN DRUM ENSEMBLE AT KHAZAR UNIVERSITY

On May 15, the concert of the "Shalu" drum ensemble from the province of Bushehr, Iran, took place in the Marble Hall of Kazar University with the organization of the Cultural Centre of Iran and Khazar University. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, the administration of the university, staff members of the university, students, guests from Iran- Asgar Farsi, the Director of the Cultural Centre of Iran and his deputy Alireza Behbudi participated at the concert.

Before the concert, Dr. Hasan Niknafs, President of the University, spoke and greeted the guests. Asgar Farsi, the Director of the Cultural Centre of Iran gave brief information about the music culture of Iran and emphasized the importance of the culture on the creation and development of international relations.

Later, the "Shalu" ensemble started their performance and demonstrated its mastery. At the end of the concert greeted with great interest and applauses , Dr. Hasan Niknafs, President of the University, expressed his gratitude to the Cultural Centre of Iran and the "Shalu" enseble for the organization of the concert.





## HƏMKARLAR İTTİFAQI NİZAMİ RAYON TƏŞKİLATININ HESABAT - SEÇKİ YIĞINCAĞI KEÇİRİLDİ

Mayın 3-də Nizami Rayon İcra Hakimiyyətində Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Nizami Rayon Təşkilatının hesabat-seçki yığıncağı keçirildi. Yığıncaqda Rayon təşkilat komitəsi sədrinin, NTK-nın hesabatı dinlənildi. Yeni sədr və respublika qurultayına nümayəndələr seçildi.

Hesabat-seçki yığıncağında Xəzər Universitetindən 8 nəfər nümayəndə iştirak etdi.

## REPORT - ELECTION MEETING OF NIZAMI DISTRICT TRADE UNION ORGANIZATION

On May 3, a report-election meeting of Trade Union of State Organization and Public Service Workers was held in Nizami District Executive Power. The report of the organizing committee of Nizami district was delivered. The new chairman and representatives to the republican convention were elected.

Eight representatives from Khazar University also took part in the report-election meeting.

## AZƏRTAC XƏZƏR UNİVERSİTETİNDƏ KEÇİRİLMİŞ TƏLİMDƏN YAZDI

Mayın 8-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın internet səhifəsində cari il aprelin 13-14-də Xəzər Universitetinə Estoniyadan dəvət olunmuş xarici dil tədrisi mütəxəssislərinin keçirdiyi təlimlə bağlı "Приоритетом Азербайджанского правительства является образование" adlı müsahibə yayımlanmışdır.

Müsahibəni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

*http://azertag.az/ru/xeber/Prioritetom_Azerbaidzhanskogo_pravitelstva_yavlyaetsya_obrazovanie-1058242*

(*Yazı jurnalın 54-cü səhifəsində dərc olunur*).

## AZERTAG WRITES ABOUT TRAINING HELD AT KHAZAR UNIVERSITY

On May 8, an article was published on the official website of Azerbaijan state news agency AZERTAG about the training held by foreign language teaching experts invited from Estonia to Khazar University on April 13 -14, 2017.

For the full version of the article visit the following link:

*http://azertag.az/ru/xeber/Prioritetom_Azerbaidzhanskogo_pravitelstva_yavlyaetsya_obrazovanie-1058242*

(*The article is published on the 54th page of Khazar Review*).

## PROFESSOR HAMLET İSAXANLI RƏSSAMA HƏSR OLUNMUŞ KİTAB - ALBOMUN TƏQDİMATINDA

Mayın 19-da Xalq Bankın həyata keçirdiyi "Xalq əmanəti" layihəsinin növbəti – 15-ci nəşrinin - Azərbaycan rəssamı Kamal Əhmədin həyat və yaradıcılığına həsr olunmuş kitab-albomun təqdimat mərasimi keçirildi. Mərasimdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, Kamal Əhməd haqqında xatirələrini danışmış və onun yaradıcılığı haqqında fikirlərini söyləmişdir.

Tədbir haqqında geniş xəbəri bu linkdə oxumaq olar:

*http://az.qaynarinfo.az/news/shownews/114086-"xalq-emaneti"-kamal-ehmed.html*

## PROFESSOR HAMLET İSAXANLI İLƏ MÜSAHİBƏ "525 - Cİ QƏZET"İN DÖRD ŞƏNBƏ NÖMRƏSİNDƏ ÇAP OLUNUB

Waqas Əhmədin Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıdan aldığı "Polimatın biliyi və onun əməli nəticələri" adlı müsahibə "525-ci qəzet"in dörd şənbə nömrəsində (29 aprel, 6 may, 13 may və 20 may 2017-ci il) çap edilmişdir.

Müsahibəni tam şəkildə ardıcıl olaraq aşağıdakı linklərdə oxumaq olar:

*http://525.az/site/?name=xeber&news_id=78294&tarix=2017-04-29&vaxt=14:57:24*
*http://525.az/site/?name=xeber&news_id=78811*
*http://525.az/site/?name=xeber&news_id=79189*
*http://525.az/site/?name=xeber&news_id=79594#gsc.tab=0*





## 30 APREL QURBANLARI YAD EDİLDİ



Aprelin 28-də Xəzər Universitetində 2009-cu il aprelin 30-da Azərbaycan Dövlət Neft Akademiyasında (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) baş verən terror hadisəsinə həsr edilmiş anım tədbiri keçirildi. Həmin gün qatil gülləsinə 25 nəfər tuş gəlmiş, onlardan 12-si dünyasını dəyişmişdi.

Tədbir ədəbi-bədii lövhələrlə başlandı, terror qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyatı departamentinin müdiri Vurğun Əyyub çıxış edərək,, baş verən terror hadisəsi ilə bağlı fikirlərini bölüşdü və tədbir təşkilatçılarına bəzi məqamları xatırlatdı. Həmçinin, tədbirin qonağı, aktyor Səfa Mehdi də terrorla bağlı fikirlərini bölüşdü və şeir söylədi. Sonda 30 aprel terrorundan bəhs edən videoçarx təqdim olundu.

## "THE VICTIMS OF APRIL 30" COMMEMORATED AT KHAZAR UNIVERSITY

On 28 April, an event dedicated to "April 30 ASOA terror" was held at Khazar University. Vurgun Eyyub, Head of the Department of Azerbaijani Language and Literature at Khazar University, took the stage and shared his views on terror incident and reminded some moments to the event organizers. Also, Sefa Mehdi, who was one of the special guests, expressed his views about the act of terrorism and recited a poem.



At the end, a video clip dealing with April 30 terror incident was presented. A survey taken from Baku residents, video slide and information about the act of terrorism were given in video clip. After that the terror victims were commemorated with a minute's silence.

Note that, 25 people were shot, 12 of them died during the terror incident happened at Azerbaijan State Oil Academy (currently Azerbaijan State Oil and Industrial University) on April 30, 2009.

# ХАЗАР В ЛИЦАХ

(*Начало в предыдущем номере*)



## ИСАХАН МУЕЛЛИМ

Вы знаете, конечно,
Что Ваш портрет не прост,
Что Вы полу-загадка...
Но знаю я, где кроется отгадка,
Сердечно, искренне предложенная мной...

Он импозантен, храбр, независим,
Надменен и непредсказуем иногда,
Но если слабого обидят,
Он в бой пойдёт наверняка.

Он не допустит, чтобы били
За ни за что, за просто так,
За то, что им не угодили,
Когда свой суд они вершили,
Состряпав «дело» кое-как.

Он панибратства не приемлет,
Дистанцию хранит всегда,
Не сразу в дружбу он поверит,
Не убедившись до конца.

Прохладный взгляд его теплеет
Когда он искренность признал,
Его лицо благоговеет
Если он друга распознал.

Недаром он Есенина избрал,
Найдя в нём страсть, бунтарство и страданье,
Он всей своей душой воспрял,
Когда поэта дух вошёл в его сознанье
И никогда с тех пор его не покидал.

И как сказал другой поэт, Толстой,
«То я весь в солнце, то в тумане,
Весёлость у меня с печалью пополам,
Как золото на чёрной ткани»...
Таков и есть наш Исахан!

Глаза его устремлены в просторы,
Невидимые многим нам,
Они всегда полны тоски по воле,
Где нет нужды искать успокоенья храм...

Ему бы бороздить моря и океаны,
Взирая с палубы на звёзды и Луну,
И думать, иногда, о береге курчавом
Как у Есенина в «сиреневом» дыму.

В пылу досады или гнева
Он выпускает пар обид,
Он то вода, или он пламя,
Он сам себя и остудит...

Умерить пыл бывает и опасно,
Ведь пламя нужно, чтоб рассечь туман...
Да если б Исахан свой пыл унял,
Его б Есенин не пронял!

Он преданно Хазар оберегает
От набегов псевдо-мудрецов,
Он хорошо всем цену знает,
Кто слишком рьяно «подсоветовать» готов.

Его удел совсем нелёгок,
Приходится быть вечно начеку,
Чтоб обеспечить тыл Хазару
И защитить его от разных «какаду».

Вы держитесь уверенно, спокойно,
Вы не спешите объявлять «аврал»,
Вы верите, что всё пойдет достойно,
Вы, ведь, наш вице-адмирал!

## НАТЕЛЛЕ ХАНУМ

Поздравляем Вас, Нателла,
Дочь Иррадионова!
С юбилеем Вас, родная,
Наша Вы задорная!

Мы Вас любим за Ваш подвиг
В жизнь-длинною,
Потому что многих Вы спасли
От жизни зноя.

Мы Вас ценим за Ваш вклад
В наше сознание,
И мы просим Вас принять
Наше общее в любви признание.

Вы людям отдаётесь без остатка,
Вы жертвуете жизнью без оглядки,
Вы рвётесь в бой за слабого и робкого,
Собой Вы заслоняете безмолвного и кроткого.

Вы защищаете правдивого и честного,
Вы опекаете ранимого и дерзкого,
Вы волей сильной движимы в баталиях,
Вы нетерпимы к лжи и пререканиям.

Вы научите труду ленивого,
Вы заставите терпеть строптивого,
Вы подскажете как быть обиженному,
Вы поможете поверить ближнему.

Вам спасибо за суровость и бесстрашие
За любовь, поддержку и участие,



Вам спасибо за глаза, где есть сочувствие,
Вам спасибо за слова, где есть напутствие.
Вам спасибо за Ваш труд, терпение
Вашу стойкость и прощение.

Когда то Ваши темные власа
Сейчас молочной сединой покрыты,
Но кудри Ваши и глаза
Всегда юны и деловиты.
Вы всех ведёте за собой, идеей увлекая,
Вы есть наш вечный «млечный путь»
Сама того не зная.

Хранит Вас Бог за все Ваши деянья!
Здесь мы едины все,
Без пререканья!

## МАГОМЕД МУЕЛЛИМ



Родившись в тихом уголке природы,
Где вечно правит красота,
Ребёнку предстояли годы
Серьёзных испытаний и труда.

Сказал Всевышний: « Магомед,
Не думай, что не будет бед,
Но ты их все преодолеешь
И будешь гордостью побед».

Напутствию ребёнок внял
И жизни вызовы принял,
Учился много и упорно,

Науки все он познавал,
Рос, развивался, созревал
И стал опорой всего рода,
Всех вскоре на ноги поднял.

Ученье для него не мука
Оно всегда его Орфей,
Кто, как известно, аргонавтов
Спас от погибели от змей.

Его хребет не переломишь
Могуч, устойчив, как скала,
Немало копий обломалось
Об его твердость и слова.

Но меч его не сильно ранит,
Он не нацелен на беду:
Им он абсцесс всегда вскрывает,
Чтоб положить конец вреду.

Пережитое глубоко в себя загнав
Он знает цену жизни и ненастью,
Всегда готов он выставить свой щит,
Чтоб оградить всех от несчастья.

Он жёстко контролирует процесс,
Эмоциями себя не открывая,
Чтоб результатом был прогресс,
А не хаос под смех Тартара.

Его способность удержать каркас
Не раз всех приводила в изумленье,
Ведь он наш признанный «иконостас»,
Он – наша гордость и спасенье.

Всю жизнь свою он посвятил
Служению народу,
Он никогда не согрешил,
Ссылаясь на погоду.

Авторитет его велик и им заслужен,
Он очень-очень нужен нам
В жару и в стужу.

Нам довелось всем испытать
Суровость, твердость и отходчивость аварца,
Мы дружно можем утверждать
Как честно исполняет он
Гражданский долг азербайджанца.

Мы часто, было, в спорах
Истину терзали
Но мы, Хазарцы, никогда
В душе друг друга не предали!

Хочу я пожелать ему
Большую получить награду
За честь, за долг, за прямоту
За преданность Хазару.

## РОЗЕ ХАНУМ



Недаром люди говорят,
Что – имя это жизни флаг,
И если имя твоё «Роза»,
Не быть тебе всего лишь прозой,
А источать тот аромат,
Что узнаёт и стар и млад.

Когда ты лишь проходишь мимо,
Все улыбаются учтиво,
Вдыхая райский запах розы,
Напоминающий их грёзы.

Твой аромат привлёк и тех,
Кого мы знаем с ранних лет:
Шумеры, Хетты, Египтяне,
Евреи, Римляне, Христиане,
Этруски, Греки, Мусульмане,
Монголы, Гунны и Османы,
Берберы, Персы, Ассирийцы
Ацтеки,Майя, Финикийцы...
Слетелись все и поместились
На лепестках их мудрой жрицы.

Нет для нее задач важнее,
Чем всех их подружить нежнее,
Чтоб траектория веков
Была надёжна как «альков»,
Где правда о делах былых
Была доступна для других,

Кто хочет знать, как размышлять
О том, что может быт опять.

Пронзила всех их наша Роза,
Нанизав на свои шипы
(Иначе для чего они?)
Чтоб их особый аромат
Возник из мудрой старины.

Но при её любви ко всем своим «цветам»,
Она верна одной лишь страсти:

Представить наш Азербайджан
Страной для всех цивилизаций.

Но как же не сказать о том,
Что мы давно уже Хазарцы?
Что мы потомки тех людей, ценивших
Предков, ум и братство?
Ведь нашей Розы аромат
Скрепил нас воедино,
И мы в историю войдём
Неоспоримо!

## ДЖАБИР МУЕЛЛИМ

Когда-то барыня Фемида
Решила Хворезми спросить,
Что написал он в своей книге,
Заставив Запад её чтить?

Была она удивлена узнать,
Что «алгебра» есть «джабр»,
Что означает «принуждать»
Путём сложений – вычитаний
Для получения особого числа
Согласно правилам алгебраического ряда.

Мне нравится такое принужденье,
В нём есть черёд, и смысл, и движенье,
Такой порядок нужен мне всегда,
Когда вердикт готовлю я!
Мои законы хороши,
Когда они ясны, понятны,
Чтоб защищать людей от зла
И сделать жизнь их «адекватной».
Чтоб знали все, чего их ждёт
Если их действия и мысли
Противоречат смыслу жизни,
Которая на радость нам дана.

Но кто же будет принуждать к порядку
Спокойно, тихо, мирно, деликатно?
Конечно же мужи, но с именем «Джабир»,
Которые мудры и осторожны,
Неторопливы и надёжны,
Умеют слушать, слышать, видеть и судить
Кого, когда к порядку принудить,
А так же сделать всё
Чтоб «мирный договор» мог быть предложен.

Такой порядок Вам, Джабир муеллим, по нраву,
Вы, ведь, стратег и тактик, каких мало,
Вы неприятности рукою отведёте,
И всех безумцев ловко обойдёте,
Чтоб не оставить им ни шанса
Для нарушения баланса,



Добытого таким трудом
Алгебраическим путём!

Всегда Вы сдержаны и трезвы,
Приветливы, но не помпезны,
Вы подбираете слова,
Чтоб не обидеть никогда,
Вы никогда не мелочитесь
Из-за нелепого словца,
Сорвавшегося с уст юнца (или глупца).
Вы очень чётко-методичны,
Спокойны и «алгебраичны».

Вас ценят все за прозорливость,
За вежливость, за такт, учтивость,
За Ваш талант нас убеждать,
Что компромисс всегда возможен,
И что «уж лучше худой мир,
Чем добрая война» даже тогда,
Когда летящая стрела нацелена
На поиски врага и мир почти низложен.

Вы тот, кто мудро промолчит
И тихо к миру принудит,
Не опускаясь до конфликта.
Вы тот, кто бурю усмирит
Во избежание смертельного вердикта!

*(Продолжение следует)*





## TƏLƏBƏLƏR DƏRSLƏRİNİ MUZEYDƏ KEÇDİLƏR

Aprelin son həftələri Xəzər Universiteti Təhsil fakültəsinin tələbələrinin köməkçi tarix fənləri üzrə dərsləri Milli Azərbaycan Tarixi Muzeyində (MATM) təşkil edildi. Universitetin Tarix və arxeologiya departamentinin təşəbbüsü və təşkilatçılığı ilə tarix müəllimiliyi üzrə təhsil alan birinci kurs tələbələrində milli irsimiz və keçmişimizlə bağlı əyanilik yaratmaq məqsədilə aprelin 21-i və 28-də tələbələrin universitetdən kənar tədris ekskursiyası və mühazirəsi həyata keçirildi.

Bu ekskursiya və mühazirə Xəzər Universiteti ilə uzun müddət əməkdaşlıq edən, ölkənin ən qocaman muzeyi olan Milli Azərbaycan Tarixi Muzeyində onun əməkdaşlarının xüsusi dəstəyi ilə gerçəkləşdirildi. Ekskursiya zamanı tələbələrə Azərbaycan tarixinin bütün mərhələləri haqqında təsəvvür yaradıldı, xalqımızın zəngin maddi və mənəvi irsini özündə əks etdirən eksponatlar barədə məlumat verildi və tarixin araşdırılmasının əyaniliyi nümayiş olundu. MATM-in şöbə müdiri Səbuhi Əhmədovun heraldika ilə bağlı əhatəli və dolğun mühazirəsi tələbələrin diqqətini xüsusilə cəlb etdi. Tələbələr Azərbaycanın dövlət atributları və bu simvolların öyrənilməsi ilə bağlı suallar verdilər.

Ümumilikdə, Xəzər Universitetinin MATM-də tələbələr üçün təşkil etdiyi əyani dərslər gənclərin tədris edilən mövzuları dərindən qavramasına və dərkinə müsbət təsir göstərən vacib amillərdəndir.

## STUDENTS HAVE LESSONS IN MUSEUMS

Khazar University Education faculty students had their elective history class in the National Museum of Azerbaijan History the last weeks of April.

On April 21-28, the first year History faculty students had their excursion and lecture out of the university with the initiative and organization of the Department of History and Archeology and for the purpose of elucidating our national heritage and history.

The excursion was held with the close partnership of the Azerbaijani Museum of History and the cooperation of its supportive staff.

For the excursion period the students were given information on all the periods of Azerbaijan history, the exhibits reflecting spiritual and material heritage of our nation. Especially, the lecture of Sabuhi Ahmedov, the museum's branch manager on Heraldic got the students' attention.

The students asked questions about studying Azerbaijan's attributes and symbols.

Overall, object-lessons organized by Khazar University in National Museum of Azerbaijan History are of great importance for the students' understanding and acquision of the materials learned.

## ƏCNƏBİ TƏLƏBƏLƏR TARİX MUZEYİNDƏ

Aprelin 29-da Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Səidə İzmailovanın təşkilatçılığı ilə universitetin əcnəbi tələbələri Milli Azərbaycan Tarixi Muzeyində oldular. Onlara Azərbaycan türkləri, qədim Azərbaycan dövlətləri, insanların həyat tərzi və s. haqqında geniş məlumat verildi.

Tələbələr xatirə şəkilləri çəkdirdilər.

## INTERNATIONAL STUDENTS VISIT HISTORY MUSEUM

On April 29, international students at Khazar University visited Azerbaijan History Museum. The visit was coordinated by Saida Ismailova, instructor of the Department of History and Archeology. The students were given information about Azerbaijani Turks, ancient states of Azerbaijan, people's lifestyles and so on.

Memory photos were taken with students.




## "XƏZƏR"İN MÜƏLLİMİNİN MƏQALƏSİ ÇAP OLUNUB

Xəzər Universitetinin müəllimi Elza İsmayılovanın "Koroğlu" dastanında məkan (Azərbaycan və Türkiyə variantları əsasında)" adlı məqaləsi AMEA Folklor İnstitutunun "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər" jurnalında çap edilmişdir. Məqalədə "Koroğlu" dastanında adı çəkilən yer adları, toponimlər müqayisəli şəkildə araşdırılır. Müəllif dastanın həm Türkiyə, həm də Azərbaycan variantlarındakı yer adlarının, xüsusilə Çənlibelin (Çamlıbel) hazırkı coğrafi məkanını müəyyənləşdirməyə çalışır.

## KHAZAR FACULTY MEMBER'S ARTICLE PUBLISHED

The article of Elza Ismayilova, Khazar faculty member, entitled "Places in "Koroghlu" epos ( based on Azerbaijani and Turkish versions)", was published in the journal "Researches on Azerbaijani folk literature" of the Institute of Folklore ANAS. The article studies names of places and toponyms mentioned in "Koroghlu" epos comparatively. The author seeks to determine the names of places in both Turkish and Azerbaijani versions, especially current geographical location of "Chenlibel".



## "XƏZƏR"İN MÜƏLLİMİ ANADOLU UNİVERSİTETİNDƏ

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Anar Eyyubov Erasmus+ proqramı çərçivəsində aprelin 24-dən 29-dək Türkiyənin nüfuzlu və tələbə sayına görə öndə olan (34 min əyani və 1 milyona yaxın distant tələbə və magistr) Anadolu Universitetində təcrübə mübadiləsi aparmışdır. A.Eyyubov magistrlər və beynəlxalq münasibətlər üzrə yerli həmkarları qarşısında beynəlxalq münaqişələrin psixoloji aspektlərinə dair mühazirələr oxumuşdur. O, dərslərini praktiki misallarla, Türkiyə və Azərbaycan təcrübələrini müqayisə etməklə keçirmiş, tələbələrlə fəal interaktiv ünsiyyət qurmağa nail olmuşdur.

## INSTRUCTOR OF KHAZAR UNIVERSITY AT ANADOLU UNIVERSITY

On April 24-29, Anar Eyyubov, the instructor of the Department of History and Archeology at Khazar University, had an exchange experience in one of the leading and prestigious universities in Turkey, Anadolu University. Anadolu University is one of the largest universities for the number of its students (34 thousand full- time and almost 1 million distant students and graduate students). Anar Eyyubov delivered a speech about psychological aspects of international conflicts for Master Degree students and his colleagues from the field of "International Relations". He had interesting lessons with lots of practical examples, comparing Azerbaijan's and Turkey's experiences in this sphere, and could achieve interactive communication with the students.




## "XƏZƏR"İN MÜƏLLİMİNİN MƏQALƏSİ ÇAP OLUNUB

Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin müəllimi, doktorant İlham Tağıyevin "Violation of Grice's Maxims and Ambiguity in English Linguistic Jokes" ("Qrays maksimlərinin pozulması və ingilis linqvistik yumorunda ikimənalılıq") başlıqlı məqaləsi beynəlxalq jurnalın (İJASOS) 7-ci sayında çap olunmuşdur. Məqalə müəllifin yumorun tədqiqinə Amerika filosofu Paul Qraysın təklif etmiş olduğu kooperativ prinsiplər nöqteyi-nəzərindən yanaşması ilə maraq doğurur.

## INSTRUCTOR OF KHAZAR UNIVERSITY PUBLISHES ARTICLE

The article by Ilham Taghiyev, PhD candidate and instructor of the Department of the English Language and Literature at Khazar University entitled "Violation of Grice's Maxims and Ambiguity in English Linguistic Jokes" was published in the 7th issue of the International Journal of Advances in Social Sciences. The paper is interesting in terms of the author's approach to the study of humor from the point of view of Cooperative Principles (CP) suggested by American philosopher Paul Grice.




## ESFIDIP TEMPUS LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ MAKEDONİYA UNİVERSİTETİNDƏ GÖRÜŞ KEÇİRİLDİ

Aprelin 23-27-də Xəzər Universitetinin "Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) adlı Tempus layihəsi çərçivəsində Yunanıstanın Makedoniya Universitetində görüş keçirildi. Görüşdə yerli tərəfdaş universitetlərin nümayəndələri ilə yanaşı, Azərbaycanın Təhsil Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Əlil Təşkilatları İttifaqının nümayəndələri, Xəzər Universitetinin Təhsil fakültəsinin dekani Elza Səmədova, Təhsil fakültəsinin tədris işləri üzrə dekan müavini Zərifə Əliyeva və layihə koordinatoru Rima Məmmədova iştirak etdilər.

Görüş zamanı layihənin iş qaydasına uyğun olaraq, Makedoniya Universitetinin nümayəndələri əlilliyi olan tələbələrlə ünsiyyətin qurulması və yardımçı avadanlıqlardan istifadə edilməsi haqqında təcrübələrini tərəfdaşlarla bölüşdülər. Həmçinin, yerli tərəfdaş universitetlər həyata keçirdikləri pilot proqramlar haqqında təqdimatlar etdilər və əlilliyi olan tələbələr üçün mərkəzlərin fəaliyyəti haqqında danışdılar.

## MEETING HELD AT THE UNIVERSITY OF MACEDONIA WITHIN ESFIDIP TEMPUS PROJECT

On April 23-27, meeting was held at the University of Macedonia within the "The Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" ESFIDIP Tempus project. Along with representatives of the partner universities, representatives from the Ministry of Education, Ministry of Labor and Social Protection of Population and Union of Disabled People Organizations attended the meeting.

Elza Samadova, Dean of the School of Education, Zarifa Aliyeva, Vice-Dean for Academic Affairs and Rima Mammadovaç project coordinator participated in the meeting.

During the meeting, representatives of the University of Macedonia shared their experience with the partners in accordance with work packages on how to communicate with students with disabilities and how to use the assistive equipment. Also local partner universities made presentations on implemented pilot program and spoke aboout the activities of Centers for Students with Disabilities.



## 32 SAYLI MƏKTƏBİN 11-Cİ SİNİF ŞAGİRDLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Mayın 1-də Xəzər Universitetində "Açıq qapı" günü keçirildi. Bakının Nizami rayonundakı 32 saylı məktəbin 11-ci sinif şagirdləri Xəzər Universiteti ilə yaxından tanış oldular. Şagirdlər universitetin auditoriyalarını, laboratoriyaları, muzeyləri gəzdilər. Onlara Xəzər Universiteti haqqında məlumat verildi.

## "WEB OF SCIENCE" PLATFORMASININ NÖVBƏTİ TƏDBİRİ

Dünyanın aparıcı informasiya agentliyi "Thomson Reuters"-in "Web of Science" platformasının Azərbaycanda ali təhsil müəssisələri üçün hazırlanan layihənin növbəti tədbiri mayın 3-də Bakı Dövlət Universitetində keçirildi.

Tədbirdə əvvəlcə "Thomson Reuters" Agentliyi Elm və təhsil departamentinin əməkdaşı Aygün Babazadə təmsil etdiyi agentlik və həmin qurumda yer alan elmi jurnallar haqqında ətraflı məlumat verdi.

Tədbirin ikinci hissəsində Xəzər Universitetinin Khazar Journal of Humanities and Social Sciences ("Xəzər humanitar və sosial elmlər jurnalı") beynəlxalq elmi jurnalının redaktor assistenti Xəyalə Məmmədova beynəlxalq elmi məqalənin hazırlanma qaydaları, elmi jurnalın idarə edilməsi prinsipləri, "Web of Science" platformasına daxil olmaq üçün jurnallar və digər praktiki məsələlərlə bağlı tədbir iştirakçılarını məlumatlandırdı.

Tədbirin sonunda iştirakçıların sualları cavablandırıldı.

Qeyd edək ki, layihəyə daxil olan bu cür silsilə tədbirlər Azərbaycanın digər ali təhsil müəssisələrində də davam edəcək.

## HIGH CLASS STUDENTS OF SCHOOL № 32 AT KHAZAR UNIVERSITY

On May 1, "Open Door" day was held at Khazar University. The high class students of school № 32 in Nizami district visited Khazar University. The students have been to the lecture halls, labs and museums of the university. They were given comprehensive information about the university.

## NEXT EVENT OF "WEB OF SCIENCE" PLATFORM

On May 3, the next event of the leading information agency "Thomson Reuters" "Web of Science" platform, intended for the institutions of higher education in Azerbaijan, was held in Baku State University.

Aygun Babazadeh, the employee of "Thomson Reuters" Agency Science and Education Department, gave comprehensive information about the agency she represents and its scientific journals.

On the second part of the event Khayala Mammadova, assistant editor of "Khazar Humanities and Social Sciences" journal of Khazar University gave information about the rules for the preparation of scientific articles and managing principles of international scientific journals, and other practical issues related to the journals in "Web of Science" platform.

The participants' questions were answered at the end of the event.

The events of this kind will be held in other universities of Azerbaijan, too.



## KASTAMONU UNİVERSİTETİNİN MÜƏLLİMİ "XƏZƏR"DƏ MÜHAZİRƏ OXUDU

Mayın 3-də Xəzər Universitetinin Bioloji elmlər departamentinin və Coğrafiya və ətraf mühit departamentinin birgə təşkilatçılığı ilə Türkiyənin Kastamonu Universitetinin Elm və incəsənət, biologiya fakültəsinin müəllimi Dr. Gözde Gürelli tələbələr və tədqiqatçılar üçün "*Endocommensal Ciliates (Ciliophora: Protista) of Herbivores*" mövzusunda, yəni ibtidailər haqda (Protozoalar haqda) mühazirə oxudu.

Sonda Dr. Gözde Gürelli tələbələr və tədqiqatçıların suallarını cavablandırdı.

## INSTRUCTOR OF KASTAMONU UNIVERSITY HOLDS WORKSHOP AT KHAZAR UNIVERSITY

On May 3, a lecture / workshop on "*Endocommensal Ciliates (Ciliophora: Protista) of Herbivores*" - about protist (Protozoa) for students and researchers was held with coordination of the departments of Biological Sciences and Geography and Environment at Khazar University. The lecture was delivered by Dr.Gozde Gurelli, instructor of the Faculty of Arts and Sciences, Department of Biology at Kastamonu University in Turkey.

At the end, Dr.Gozde Gurelli answered the questions of the students and researches.

## VURĞUN ƏYYUB "İRADƏ MUSAYEVANIN ƏDƏBİYYATŞÜNAS PORTRETİ"Nİ ÇƏKDİ




Mayın 10-da Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin müdiri, dosent Vurğun Əyyubun Kulis.Az saytında ədəbiyyatşünas İradə Musayeva haqqında "İradə Musayevanın ədəbiyyatşünas portreti" adlı məqaləsi yayımlanmışdır. Məqalədə İ.Musayevanın "XXI əsrdən baxış: ədəbi tənqid və bədii söz" ("Elm və təhsil" nəşriyyatı, Bakı - 2017) kitabında toplanmış məqalələri əsasında onun ədəbiyyatşünas olaraq portreti yaradılmışdır.

Məqaləni bu link vasitəsilə oxumaq olar:
*http://kulis.az/news/17959.*

### VURGUN EYYUB DRAWS "LITERARY PORTRAIT OF IRADE MUSAYEVA"

On May 10, an article entitled 'Literary Portrait of Irade Musayeva' of Vurgun Eyyub, Associate Professor, Head of the Department of Azerbaijani Language and Literature at Khazar University, about literary critic Irade Musayeva was published on the Kulis.az website. A portrait of I.Musayeva as a literary critic was represented in the article based on a book of collected articles of I.Musayeva 'A View from the 21th century: literary criticism and artistic expression " ( "Science and education" publishing house, Baku, 2017)

The article is available at the following link:
http://kulis.az/news/17959



# HAZAR'IN SORAĞINDA

**Ayla Türksoy**

*Xəbər verildiyi kimi, 2017-ci il aprelin 22-23-də Xəzər Universitetində Azərbaycan IV Beynəlxalq Psixologiya Konfransı keçirilmişdi. Aprelin 29-da İstanbuldakı BİA Haber Merkezinin (BİAQAM) internet səhifəsində konfransda iştirak etmiş jurnalist Ayla Türksoyun konfrans haqqında məqaləsi dərc olunmuşdur. Məqaləni oxucularımıza təqdim edirik.*

## HAZAR'I ARARKEN

Azerbeycan'ın başkenti Bakü'de bulunan Hazar Üniversitesi'nin, 23-24 Nisan tarihlerinde düzenlediği "Uluslararası 4. Psikoloji Konferansı" farklı ülkelerden gelen uzmanların travma terapisi, erken yaşta zorla evlendirilen çocuklar, çocuk istismarı, aile ve çocuk gelişimi konularındaki sunum ve atölye çalışmaları ile gerçekleştirildi.

Sosyal Bilimler Fakültesi Dekan Yardımcısı / Direktör Psikolog Melek Kerimova ve Üniversite Direktörü Alovsat Amirbeyli'nin her aşamasına gönüllerini kattıkları çalışmaları ile gerçekleşen konferansa; öğrencilerin, psikologların yanı sıra her yaş ve meslek grubundan Azeri kadınlarının büyük ilgisi vardı. Konferansa geçmeden önce kısa bir Bakü izlenimi yazmak, giriş için faydalı olabilir…

Dünyanın neresine gidersek gidelim valizden önce yanımızda taşıyacağımız kendi algımızla çevremize baktığımızı unutmazsak; Kafkasya'nın en büyük şehri Bakü'ye hayat veren olgunun da; yaşamak denen zahmetli ve adaletsiz işe insanca damgasını vuran güzel bireyler ile sanat olduğunu söyleyebilirim. Bu değerlerin yanında bakımlı Hazar kıyıları, dev modern yapıları, geceleri 10 bin lamba ile ışıklandırılan alev kuleleri, 1500 odası olduğu rivayet edilen başkanlık sarayı, lüks markalarla süslü caddeleri, buram buram petrol kokusu, kimi Sovyet rejimi döneminden kalma heykel ve kabartmalarla bezeli görkemli kamu binaları, geniş caddeleri, "Makas Eller" filmindeki Edward (Johnny Depp) tarafından yapılmış izlenimi uyandıran insan eli ile şekil verilmiş hayranlık uyandıran ağaçları da Bakü denilince akılda kalacaklar arasında elbette...

## "İÇERİ ŞEHİR" VE DİĞERLERİ…

Etrafı surlarla çevrili olan ve Unesco dünya mirası listesinde gösterilen "İçeri Şehir", Bakü'nün en ilgi çekici yerlerinden. Taş evlerin yanı sıra yerel kıyafet, kilim, gümüş ve madalyalar satan küçük dükkânların yanında, butik oteller, şiriniyyat (tatlı) dükkânları ile bezeli "İçeri Şehir"; çok önemli başka yapıları da barındırıyor. Bunlardan en önemlileri; külliye olarak inşa edilen Şirvanşahlar Sarayı ile Qız Qalası (Kız Kulesi).

Dünyanın her bir tarafına akın akın seyahat eden turistlerin burada nerede ise hiç görünmemesi sorusu daha geniş bir perspektif ve araştırma konusu. Yine, burada gezerken karşılaştığımız ve dükkânın içindeki türlü kitapları tek tek elleyip, fotoğraf çekerken selamımızı almak dışında bizi rahatsız etmek istemeyen, 70 yaşlarındaki sahaf da unutulmayanlardan.

Bakü böyle görünüyor ancak havaalanında karşılaştığımız, Tiflis'ten dönen bir Türk işçisinin söylediğine göre şehirden uzaklaşıldığında atmosfer her yerde aynı değil. İhtişam ve modernitenin yerini Bakü'nün dışında yoksulluğun aldığını söylüyor. Petrol ve doğalgaz zengini olmasına rağmen ülkedeki yaşam koşullarını anlamak için asgari ücret ve kira ilişkisi ele alınabilir. Resmi para birimi Manat olan ülkede asgari ücretin 116 Manat, Bakü'de ortalama kiralık ev fiyatının ise 300 Manat civarında olduğunu öğreniyoruz. Ücretler ülkede genel olarak düşük. Zenginlerin yaşam şartları ise, lüks arabalarından belli olduğu üzere bizdekiler gibi…

## BAKÜ'DEKİ SHAKESPEARE

Bakü'nün caddelerinden, Psikoloji Konferansı'nın yapıldığı üniversiteye bakışımızı çevirirsek, Azeri halkının konuk ve sanatseverliğinde vücut bulan esas zenginliğin burada ışıldadığını söyleyebilirim. Üniversitenin kurucusu, aynı zamanda mütevelli heyeti başkanı olan ve Shakespeare hayranı bir dayının ismini verdiği matematik profesörü, bilim felsefecisi, şair, yazar Hamlet Hoca (Hamlet İsahanlı), konferansın açılışında önemli sözler söylüyor.

Özgürlük ve eşitlik bakımından ülkenin geçirdiği merhaleleri anlatışındaki bilim insanına özgü cesur konuşmasını, sanatçılığının duyarlı kelimeleri tamamlıyor. Dünya dillerine çevrilen şiir kitaplarının yanı sıra, diğer eserleri ve bu yazının başlığına da ilham olan ve Hazar Üniversite'sinin kuruluş öyküsünün yer aldığı "Hazar'ın Sorağında" kitabının etkisi içindeyken, tüm uğraşlarına rağmen derin tevazusu hepimizi iyi hissettiriyor. Besteci ve piyano hocası olan yoldaşı (eşi) Naile Hanım ile bizi evine konuk ettiği çay davetinde şahit olunan dayanışma ve düetleri gruptaki evli-bekâr herkesi etkiliyor…

## TRAVMA, ÇOCUK İSTİSMARI VE EMDR

Konferansta öne çıkan notlara gelince… Üniversitenin akademik olarak önemsediği ve geliştirmek istediği "Psikoloji" alanında dört yıldır yapılan konferansı takip eden konukların, sunum yapan her bir uzmanı dikkatle dinleyişi çabaların boşa gitmediğini gösteriyor.

Bilgi Üniversitesi Öğretim Üyesi Doç Dr. Ayten Zara'nın çocuk istismarı ve erken yaşta zorla evlendirilen çocuklarla ilgili olarak hem yurtiçi hem yurtdışında yaptığı çalışmalarını anlattığı ilk günkü sunumun ardından, konferansın ikinci günü devam eden workshop eğitimine katılanların tamamı kadın. Psikoloji öğrencileri, psikolog ve çeşitli okullardaki rehber öğretmenler sayıca daha çok.

Toplantı aralarında Azerbeycan'daki çocuk istismarı ve çocuk ihlalleri konularında istatistik veriler olup olmadığını sorduğum birkaç katılımcı konu hakkında bilgisi olmadığını söylüyor. Akademisyenler de detaylı bir çalışma olmadığını doğruluyor. Zara'nın cinsel istismarın ne olduğu, aile içi cinsel istismar, psikososyal ve kültürel risk faktörleri, cinsel travma etkileri, bağlantılı hastalıklar başlıkları altında verdiği bilgiler ve olgu sunumlarına dayanamayan 2-3 kişi salondan ayrılıyor. Kalanlar etkin dinlemekle birlikte, daha çok istismar dışındaki kişisel vakalar hakkında sorular soruyor. Bu durum, çocuk istismarının dünyanın her yerinde görülen küresel bir gerçeklik olduğu bilgisine rağmen, buralarda henüz konuşulmaya başlanmadığını düşündürüyor.

Kongrede, Psikiyatri Uzmanı Doç. Dr. Burhanettin Kaya tarafından yapılan sunum ve ikinci gün yaptığı atölye çalışmasında travmanın oluşma mekanizmaları, travma tedavilerinde kullanımı artan EMDR terapisi hakkında verdiği bilgiler, paylaştığı slaytlar onlarca el tarafından fotoğraf karesine alınarak, bilgiler özümsenmeye çalışılıyor.

Konferansa olan ilgiyi konuştuğumuz Kaya, "Psikoloji bilimini geliştirme ve kurumsallaştırma çabasına küçük bir katkı sağlamanın hoşnutluğunu yaşadık. Azerbaycan'da hem psikiyatrinin hem de psikolojinin ülkemiz bilim insanlarının desteğine ihtiyacı var. Özellikle bizim gibi iki ayrı sistemin, kapitalizmin ve sosyalizmin kesişimini ve çatışmasını yaşamış, kavşağında olan bir ülkeden, Azerbaycan'dan, onların bilimsel birikimlerinden de öğreneceğimiz çok şey var" dedi.

Konferans süresince Hasan Kalyoncu Üniversitesi'nden Prof Dr. Yaşar Özbay, Umman Sultan Qaboos Universitesi'nden **Prof. Dr. Ali Kemal Tekin**, World Human Relief ve Açık Kapı isimli çocuk alanındaki sivil toplum örgütlerinde Ayten Zara ile birlikte gönüllü çalışan öğrencileri **Dilan Bozdağ**, Seher Tarhan, **Esra Zırhlıoğlu**, Tuğçe Merve Aytac, **Narlı Yıldız**, Kader Tarhan'ın sunumları da büyük alkış aldı…

Konferans bilimle sınırlı kalmadı elbette. Finalde konakları (konukları) bekleyen jesti, üniversitenin sitesinden aldığım şu cümle dışında daha farklı ve daha ince nasıl anlatabilerem ki: "Konfransın sonunda hər bir iştirakçıya sertifikat verildi… Konfrans iştirakçılarına Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin hazırladığı konsert proqramı təqdim olundu…" (AT/YY)

*http://m.bianet.org/biamag/bilim/185976-hazar-in-soraginda*



## TƏLƏBƏLƏR SEMENTİN İSTEHSAL PROSESİNİ İZLƏDİLƏR

Xəzər Universitetinin İnşaat mühəndisliyi departamenti ilə "Norm" sement zavodu arasında əldə olunmuş razılaşmaya görə, inşaat mühəndisliyi və kimya mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələr departamentin əməkdaşı Rasim Bayramlının rəhbərliyi ilə mayın 4-də "Norm" sement zavodunda oldular.

Tələbələr zavodda aparıcı mütəxəssislərin mühazirələrini dinlədilər və zavodda istehsal prosesləri izlədilər. Sement istehsalında istifadə olunan xammal və materiallar, onların tərkibinin seçilməsi, xammalın sobalarda bişirilməsi, klinkerin üyüdülməsi və s. istehsal prosesləri, həmçinin Avropa standartlarına uyğun fəaliyyət göstərən beton və sement laboratoriyalarında aparılan fiziki-kimyəvi və fiziki-mexaniki sınaqlarla tanış oldular.

Görüşün hər iki tərəf üçün səmərəli olduğunu nəzərə alaraq, gələcəkdə də əməkdaşlığın davam etdirilməsi barədə razılıq əldə olundu.

## STUDENTS OBSERVE CEMENT PRODUCTION PROCESS

According to the agreement between the Department of Civil Engineering of Kahzar University and Norm cement plant, students majoring in civil engineering and chemical engineering spent a day in Norm cement plant on May 4. The students had a chance to listen to lectures of the leading specialists of the plant and got acquainted with the production process. They got thorough information about the raw material used in the production process, content choice, clinker griding, and so on.




In addition, the students had a chance to observe the physico-chemical and physical-mechanical processes in cement and concrete laboratories which meet European standards.

Given that the meeting was effective for both sides, an agreement was reached to continue the cooperation in the future as well.




# AKTYOR HÜSEYN ƏZİZOĞLU İLƏ GÖRÜŞ

Mayın 4-də Xəzər Universiteti Tələbə Məclisinin tanınmış şəxslərlə görüş planı çərçivəsində videoblogger, aktyor Hüseyn Əzizoğlu ilə görüş keçirildi. Aktyor tələbələrə öz karyerasına necə başladığı, uğur qazanmağın yolları haqqında danışırdı.

Sonda H.Əzizoğlu tələbələrin suallarını cavablandırdı.

# MEETING WITH ACTOR HUSEYN AZIZOGLU





On May 4, Khazar University Student Union held a meeting with the famous video blogger and actor Huseyn Azizoglu within the framework of the plan of meeting with famous people. The actor talked about the beginning of his career, the ways to success and his success story.

Huseyn Azizoglu answered the students` questions.

AZƏR TAC

# ПРИОРИТЕТОМ АЗЕРБАЙДЖАНСКОГО ПРАВИТЕЛЬСТВА ЯВЛЯЕТСЯ ОБРАЗОВАНИЕ

В середине апреля в Баку в университете Хазар при содействии руководителя эстонского языкового центра Лингаторе Эвелин Мююрипеал и специалиста по языку Леили Сяги был проведен двухдневный семинар на тему «Интерактивные методы преподавания и изучения иностранных языков» на основе English Language Portfolio.

В интервью АЗЕРТАДЖ Эвелин Мююрипеал и Леили Сяги рассказали об идее пилотного проекта, поделились впечатлениями о Баку.

Руководитель эстонского языкового центра «Лингаторе» Э.Мююрипеал сказала: «Идея проведения в Баку языкового семинара появилась после того, как я познакомилась с действующей в Эстонии под руководством Санам Алиевой Азербайджанской воскресной школой. Опыт школы буквально восхитил меня, я прониклась чувством большого уважения к патриотизму тех, кто живет вдали от своей Родины, их неразрывной связи со своей культурой и родным языком. Это и подтолкнуло меня к реализации в Азербайджане языкового проекта».

Главной целью проекта, отмечает Э.Мююрипеал, является налаживание контактов с Азербайджаном. «После знакомства с опытом воскресной школы в Эстонии нас заинтересовал сам Азербайджан, система образования страны, и мы хотели наладить связи с вашими преподавателями. Мы заинтересованы в продолжении этого сотрудничества», - сказала она.

Леили Сяги говорит, что в рамках проекта планировался обмен опытом по методу обучения языкам. «Нам было приятно общение с высококвалифицированными азербайджанскими преподавателями, студентами, которые были готовы повысить свои знания и навыки», - отмечает Л.Сяги.

Э.Мююрипеал добавила, что азербайджанская аудитория очень грамотна, владеет несколькими языками, и это не могло не восхитить.

Руководитель «Лингаторе» довела до внимания, что методы обучения, которые были доведены до азербайджанской аудитории, применены в Бельгии, Канаде, США и во многих других странах. Преимущество этого проекта заключается в том, что преподаватели создают очень активную атмосферу обучения, которая далека от изнуряющих лекций, и дает полную свободу самовыражения. Поэтому одна из тем семинара называлась «Молчание на уроке языке – потерянное время». «С этой точки зрения, мы как ведущие семинара были счастливы от того, что азербайджанские преподаватели были готовы к сотрудничеству. Что касается, нашего дальнейшего сотрудничества с азербайджанской стороной, то проект, которые был организован как пилотный на уровне университета, в будущем будет продолжен в школах и лицеях. Мы хотели бы, чтобы азербайджанские преподаватели приехали в Эстонию с ответным визитом и поделились своим опытом обучения языку.

Уверены, что у Азербайджана счастливое будущее, потому что у него есть такая талантливая и образованная молодежь. Мы четко ощутили, что приоритетом Азербайджанского правительства является образование», - подчеркнула Э.Мююрипеал.

Эвелин Мююрипеал и Леили Сяги не могли скрыть своего восхищения столицей Азербайджана: «Невозможно выразить словами красоту Баку, ту теплоту, гостеприимство, которыми нас окружили. Такого отношения мы нигде не видели. Для того, чтобы понять нас, надо поехать в Баку, увидеть все своими глазами и почувствовать широту души, дружбу азербайджанского народа. Мы до сих пор ощущаем эту теплоту. Было ощущение, что мы попали в сказку. Баку – волшебный город, который напоминает Париж. Бакинские вечера – сказочные.

Знакомство с Баку началось с Шехидляр хиябаны, где похоронены сыны и дочери Азербайджана, пожертвовавшие своей жизнью за свободу. Этот народ достоин свободы.

В заключение мы хотели бы поблагодарить посольство Азербайджана в Эстонии, руководство университета Хазар, азербайджанскую общину, и конечно, директора Азербайджанской воскресной школы Санам Алиеву за поддержку в организации пилотного проекта в Азербайджане».

**Нигяр Джафарли**
*собкор АЗЕРТАДЖ*
Таллинн, 8 мая

*http://azertag.az/ru/xeber/Prioritetom_Azerbaidzhanskogo_pravitelstva_yavlyaetsya_obrazovanie-1058242*

# TÜRKİYE'DE 2016 YILINDA EN ÇOK AZERBAYCANLILAR EĞİTİM ALDI

*Türkmeneli İş Birliyi Vəqfinin Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) internet səhifəsində mayın 4-də Trend Haber Ajansı-na istinadla yeləşdirilmiş məqaləni oxucularımıza təqdim edirik.*

Milli Eğitim Bakanlığına (MEB) bağlı eğitim kurumlarında 232 bin 714, üniversitelerde 103 bin 727 ve geçici eğitim merkezlerinde de 459 bin 521 olmak üzere Türkiye'de eğitim alan yabancı öğrenci sayısı 795 bin 962'ye ulaştı.

Geçen yıl 10 bin 528'i Azerbaycan, 6 bin 600'ü Türkmenistan ve 3 bin 803'ü Afganistan vatandaşı 61 bin 116 yabancı,öğrenci ikamet izni ile Türkiye'de bulundu.

Türkiye'deki üniversitelerde 2016-2017 eğitim öğretim yılında eğitim gören yabancı öğrenci sayısı 103 bin 727. En çok öğrenci 15 bin 36 kişiyle Azerbaycan'dan olurken bu ülkeyi 14 bin 765 öğrenciyle Suriye, 10 bin 642 öğrenciyle Türkmenistan takip ediyor.

Öğrenci ikamet izni dışında farklı statülerdeki yabancıların da üniversitelere kayıt yaptırması, üniversiteye kaydını yaptırıp henüz ikamet iznini talep etmemiş veya talebi sonuçlanmamış olanların bulunması gibi nedenlerle öğrenci ikamet izni alan yabancı sayıları ile üniversitelerde öğrenci olarak kayıtlı yabancı sayıları arasında farklılık ortaya çıktı.

Milli Eğitim Bakanlığına bağlı eğitim kurumlarında 2016-2017 eğitim-öğretim yılında 232 bin 714 yabancı öğrenci eğitim görüyor. Yabancı öğrenciler sıralamasında, Suriye vatandaşları 166 bin 482 kişiyle ilk sırada, Irak vatandaşları 23 bin 971 kişiyle ikinci sırada, Afganistan vatandaşları ise 12 bin 782 kişiyle üçüncü sırada bulunuyor.

Geçici koruma altındaki Suriyelilerin eğitimlerinin aksamamasına yönelik çalışmalar kapsamında eğitim alan Suriyelilerin sayısı 9 Mart 2017 itibarıyla 459 bin 521 oldu. Geçici eğitim merkezlerinde eğitimlerini kendi dillerinde alan Suriyelilere ayrıca Türk öğretmenler tarafından haftada 15 saat Türkçe dersleri veriliyor.

Böylece MEB'e bağlı eğitim kurumlarında 232 bin 714, üniversitelerde 103 bin 727 ve geçici eğitim merkezlerinde de 459 bin 521 olmak üzere Türkiye'de eğitim alan yabancı öğrenci sayısı 795 bin 962'ye ulaştı.

Yükseköğretim kurumlarında 2016-2017 eğitim-öğretim yılında görev yapan yabancı öğretim elemanı sayısı, 17 Şubat 2017 itibarıyla 2 bin 864 olarak kayıtlara geçti. Bunların 367'si Amerika Birleşik Devletleri, 331'i Suriye, 255'i Azerbaycan vatandaşı.

*http://avim.org.tr/tr/Bulten/TURKIYE-DE-2016-YILINDA-EN-COK-AZERBAYCANLILAR-EGITIM-ALDI*






# YENİ KİTABIN TƏQDİMATI

Mayın 5-də Xəzər Universitetində universitetin Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə "Olduğu kimi görünən insan" kitabının təqdimatı keçirildi. Kitab görkəmli tarixçi alim, BDU-nun professoru Elmira Muradəliyevanın seçilmiş əsərləri, onun haqqında yazılmış məqalələr, biblioqrafiya və filmoqrafiyadan ibarət tərtib olunmuşdur. Tərtibçilər tarix üzrə fəlsəfə doktoru Nigar İbrahimova və Güllü Cahangir, ixtisas redaktoru tarix üzrə fəlsəfə doktoru Fərhad Cabbarov, kitabın əsas redaktoru yazıçı-publisist, kinoreyissor Nazim Rzadır. Nazim Rza kitaba "Aydın yolun yolçusu" adlı geniş ön söz də yazmışdır.

Tədbirdə görkəmli alimin həmkarları, yetirmələri, universitetin əməkdaşları və tarix müəllimliyi ixtisasının tələbələri iştirak edirdilər.

Təqdimatı giriş sözü ilə Tarix və arxeologiya departamentinin müdiri, tarix üzrə fəlsəfə doktoru Roza Arazova açaraq, Elmira Muradəliyevanın zəngin yaradıcılığı və şəxsi keyfiyyətləri haqqında danışdı. Tədbirin aparıcısı Nazim Rza da bu mövzuda söhbəti davam etdirdi.

Sonra tədbirdə iştirak edənlər görkəmli alim haqqında öz ürək sözlərini söylədilər. Yazıçı və tədqiqatçı Teyyub Qurban, Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, ictimai xadim Dilarə Vəliyeva, ADPU Azərbaycan tarixi kafedrasının əməkdaşı İradə Qasımova, təhsil eksperti Nabatəli Qulamoğlu, tarix üzrə fəlsəfə doktoru, Milli Azərbaycan Tarix Muzeyinin elmi katibi Fərhad Cabbarov, tarix üzrə fəlsəfə doktoru, BSU-nun jurnalistika kafedrasının dosenti Mübariz Əhmədov, BP şirkətinin əməkdaşı Nərminə Xəlilova, BDU-nun dosenti Elvira Lətifova və TRASERA Hökumətlərarası Komissiyanın daimi katibliyinin ictimai əlaqələr üzrə eksperti, BDU-nun doktorantı Samirə Rəfizadə çıxış edərək, Elmira Muradəliyevanın çoxşaxəli yaradıcılığından, cəsarətli və obyektiv alim mövqeyindən, tələbələrinə, magistr və doktorant yetirmələrinə böyük diqqət və qayğısından, yüksək şəxsi keyfiyyətlərindən danışdılar.

Tədbirin sonunda professor Elmira Muradəliyeva tələbələrin suallarını cavablandırdı, Xəzər Universitetinin rəhbərliyinə və iştirakçılara təşəkkürünü bildirdi. Alimə gül dəstələri təqdim olundu.









# PRESENTATION OF A BOOK "A MAN AS HE IS"

On May 5, the presentation of a book "A man as he is" was held at Khazar University by the Department of History and Archeology. The book includes the works of the outstanding historian, the professor of Baku State University Elmira Muradaliyeva, articles about her, bibliography and filmography. The compilers of the book are Ph.Ds. in Philosophy Nigar Ibrahimova and Gullu Jahangir, the editor is Farhad Jabbarov, Ph.D in History and the primary editor of the book is the writer and publicist, film director Nazim Rza. Nazim Rza has also written a large preface to the book entitled "Aydın yolun yolçusu" . Colleagues and students of the outstanding scholar, staff of the university and the students majoring in History Teaching participated in the event.

Roza Arazova, PhD in history and Head of the Department of History and Archeology, started the presentation and talked about Elmira Muradaliyeva's great works and personal qualities. The host of the event Nazim Rza continued the topic.

Later, the participants of the event expressed their heartfelt words about the outstanding scholar Elmira Muradaliyeva. Teyyub Gurban, writer and researcher; Alovsat Amirbayli, Direcrot of Media and Public Relations Office; Dilara Valiyeva, a public figure; Irada Gasimova, a member of the Department of History of Azerbaijan of ASPU; Nabatali Qulamoglu, expert on education; Farhad Jabbarov, PhD in history, scientific secretary of the National History Museum of Azerbaijan; Mubariz Ahmadov, PhD in history, associate professor of the Department of Journalism at Baku Slavic University; Narmina Khalilova, staff member of BP; Elvira Latifova, associate professor of Baku State University and Samira Rafizade, PhD student at Baku State University, expert on public relations of the permanent secretariat of TRASERA Intergovernmental Commission, spoke at the event. They emphasized Elmira Muradaliyeva's diverse works, her courage and objectivity as a scientist, her care and attention to her students and her great personal qualities. At the end of the event professor Elmira Muradaliyeva answered the students' questions. She expressed her gratitude to the administration of Khazar University and to the participants. Flowers were presented to her.











## "İNKİŞAF ZAMANI" ADLI TƏLİM

Mayın 5-də Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin təşkilatçılığı ilə "İnkişaf zamanı" adlı təlim keçirildi.

Təlimçi Namaz Kərimov "İnkişaf zamanı" proqramının gənclərə təklif etdiyi fəaliyyətlərdən danışdı.

## "TIME FOR DEVELOPMENT" TRAINING AT KHAZAR

On May 5, a training entitled "Time for Development" was held at Khazar University with the coordination of the Department of Geography and Environment. The trainer Namaz Kerimov spoke about the activities offered by the program "Time for Development" to the young.

## XƏZƏR UNİVERSİTETİNİN KEÇMİŞ ƏMƏKDAŞININ MƏQALƏSİ ÇAP OLUNUB

Xəzər Universitetinin keçmiş əməkdaşı Mehdi Zareinin "Neyron şəbəkə modelindən istifadə edərək qazın sıxlaşa bilmə əmsalının proqnozlaşdırılmasına intellektual yanaşma" adlı məqaləsi "Springer" nəşriyyatının nüfuzlu, impakt faktoru 1.492 olan "Neural Computing and Applications " jurnalının 2017- ci il aprel nömrəsində çap olunub. Məqalə Xəzər Universitetinin adından təqdim edilib.




Hazırda Mehdi Zarei Avstraliyada "Newcastle" Universitetində doktorantura təhsili alır.

Məqaləni aşağıdakı link vasitəsilə oxumaq olar:

*https://link.springer.com/article/10.1007/s00521-017-2979-7*

## FORMER INSTRUCTOR OF KHAZAR UNİVERSITY PUBLISHES ARTICLE

On April, 2017, an article entitled "An intelligent approach to predict gas compressibility factor using neural network model" by Mehdi Zarei, a former instructor of Khazar University, was published in Neural Computing and Applications Journal, a well-known Springer publication, with a good impact factor 1.492 in this field. The article was published by Khazar's affiliation as well as the corresponding author.

The article is available at the following link:

*https://link.springer.com/article/10.1007/s00521-017-2979-7*

Now, Mehdi Zarei is studying Ph.D. degree at the University of Newcastle (UoN) in Australia.



## "ADDIM" FİLMİNİN TƏQDİMATI

Aprelin 25-də Xəzər Universitetinin Mərmər zalında "Tormenta" Media Production-un hazırladığı "Addım" qısametrajlı filminin təqdimat mərasimi keçirildi. Film intihar etməyin son addımlığından geriyə dönməkdən, həyatda gördüyün xeyirxah işlərin daim səninlə yanaşı addımlamasından bəhs edir.

Filmin rejissoru Elçin İsmayıl və İmran Əsədovdur. Filmdə Humanitar və sosial elmlər fakültəsinin tərcümə ixtisası üzrə təhsil alan tələbələri Samir Quliyev və Dəyanət Dənyarov da rol almışlar. Təqdimat mərasiminin sonunda Xəzər Universitetinin İctimai əlaqələr və media şöbəsinin rəhbəri Əlövsət Əmirbəyli, universitetin fəlsəfə müəllimi Mail Yaqubov, ilahiyyatçı, din xadimi; "Mənəvi dünya" Milli-Mənəvi Dəyərlərin Təbliği İctimai Birliyinin təsisçisi və sədri Hacı Şahin Həsənli, Psixoloji Mərkəzin rəhbəri psixoloq Aytən Ələkbərova və digərləri film haqqında olan təəssürat və görüşlərini izləyicilərlə paylaşdılar.

## PRESENTATION OF A FILM "STEP"

On Aprel 25, the presentation ceremony of the short film entitled "Addım"(Step) made by "Tormenta" Media Production was held at Marble Hall, at Khazar University. The film deals with giving up the thoughts of suicide at the last moment, being surrounded by friends that make you cling to life and benevolent deeds you have done. Directors of the film are Elchin Ismayilov and Imran Asadov. Samir Guliyev and Dayanat Danyarov, students of School of Humanities and Social Sciences, took part in the film.

At the end of the presentation ceremony, Alovsat Amirbayli, the Director of Media and Public Relations Office, Mail Yagub, philosophy teacher of the university, Haci Shahin Hasanli, theologian, the founder and head of the «Spiritual World" Society for Promoting National and Moral Values, Aytan Alakbarova, senior psychologist of Psychology Center and others shared their impressions and views about the film.





# MÜBADİLƏ TƏLƏBƏSİ ƏCNƏBİ GƏNCLƏR MÜSABİQƏSİNDƏ İŞTİRAKÇI SERTİFİKATI ALDI

Aprelin 25-də ADA Universitetində "Əcnəbi Tələbə və Gənclərin Fikir Platforması"nın yekun mərhələsi keçirildi. Doqquz üniversitetdən müxtəlif xarici ölkələri təmsil edən əcnəbi tələbələr ən yaxşı natiq və aparıcı adı uğrunda mübaizə aparırdı.

Polşadan olan beynəlxalq mübadilə tələbəsi Maykl Horbaczevski Xəzər Universitetini yarışda təmsil edirdi. Maykl Kozminski Universitetinin bakalavr tələbəsidir və hazırda Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsində Erasmus+ mübadilə proqramı çərçivəsində bir semestrlik təhsil alır.

Sahibkarlıq mövzusunda təqdimatla çıxış edən Maykla iştirakçı serifikatı təqdim edildi. Tədbirdə ilk üç yerin sahibi nigeriyalı tələbələr oldular.

"Əcnəbi Tələbə və Gənclərin Fikir Platforması" müsabiqəsi Bakı Beynəlxalq Tələbə Klubunun təşkilatçılığı, Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun maliyyə və ADA Universitetinin Magistr Tələbə Hökumətinin texniki dəstəyi ilə təşkil olunmuşdu. Məqsəd Bakıda təhsil alan əcnəbi tələbələri maraqlandıran məsələlərə diqqət yetirmək və onlara öz fikirlərini bölüşmək imkanı vermək idi.

# EXCHANGE STUDENT RECEIVES CERTIFICATE FOR PARTICIPATION IN FOREIGN YOUTH COMPETITION

On April 25, the final round of "The Idea Platform of Foreign Youth and Students" project was held. International students from nine universities representing various countries competed against each other for the title of the best speaker and presenter.

Michał Horbaczewski, an international exchange student from Poland represented Khazar Universiry at the competition. Michał is a bachelor student from Kozminski University who is currently spending an exchange semester at the School of Economics and Management of Khazar University within the Erasmus + Programme.

Michael who delivered a presentation on entrepreneurship was awarded with a certificate of participation. The best speakers who won the first three prizes represented Nigeria,

Financed by the Youth Foundation under the President of the Republic of Azerbaijan and Graduate Student Government of ADA University, organized by the Baku International Student Club, the project aims at creating a platform for international students in Baku for expressing their views on topics and causes of their interest.

# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞININ DOKTORLUQ DİSSERTASİYASININ MÜZAKİRƏSİ

Mayın 19-da Xəzər Universitetinin əməkdaşı, AMEA Fəlsəfə İnstitutunun doktorantı Cabir Məmmədovun "Estetikada faciəvilik problemi" mövzusunda yazdığı fəlsəfə doktorluğu dissertasiyasının ilkin müzakirəsi keçirildi. İclasa Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə sədrlik edirdi.





## AMERİKALI PROFESSORUN FİLANTROPİYA HAQQINDA İNTERAKTİV SEMİNARI

Aprelin 26-da Kolumbiya Universitetinin doktoru Noah D. Drezner Xəzər Universitetinin Neftçilər kampusunda olub. Təhsil filantropiyası üzrə aparıcı tədqiqatçı kimi beynəlxalq səviyyədə tanınan Dr. Noah D. Drezner Kolumbiya Universitetində Pedoqoji Kollecdə dosent, Filantropiya və Təhsil jurnalının baş redaktoru (İndiana Universiteti Mətbuatı), Pekində Normal Universitetin Təhsil və Filantropik araşdırmaları üzrə qonaq professorudur.

İnteraktiv mühazirə "Paylaşmaq mədəniyyəti üçün şəraitin yaradılması: ABŞ-ın təhsil filantropiyasından nümunələr" adlanırdı.

Mühazirə fakültə və inzibati heyət üzvləri üçün nəzərdə tutulmuşdu.

Dr. Noah ABŞ-ın Bakıdakı səfirliyinin dəstəklədiyi proqram vasitəsilə Azərbaycana gəlmiş və Bakıda digər universitetlərdə də oxşar seminarlar keçirmişdir.

## INTERACTIVE WORKSHOP ON PHILANTHROPY BY AMERICAN VISITING PROFESSOR

On April 26, Khazar University hosted Dr. Noah D. Drezner of Columbia University at its Neftchiler campus.

Dr. Noah D. Drezner known internationally as a leading researcher on educational philanthropy, is an Associate Professor of Higher Education and Program Director of the Higher and Postsecondary Education Program at Teachers College, Columbia University, founding editor of Philanthropy & Education (Indiana University Press), and Visiting Professor of Education and Philanthropic Studies at Beijing Normal University.



The interactive lecture entitled "Making the Case for a Culture of Giving: Lessons from US Educational Philanthropy" focused on how to develop and maintain relationships between institutions that lead to alumni engagement and giving.

The lecture was conducted for faculty and administrative staff members.

Dr. Noah is visiting Azerbaijan through a program supported by the U.S. Embassy in Baku and will deliver similar lectures in other universities in and outside of Baku.

## DEPARTAMENT MÜDİRİ BEYNƏLXALQ KONFRANSDA QAFQAZLA BAĞLI MƏRUZƏ ETDİ

Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri, Jan Monne Kürsüsü mükafatı laureatı, siyasi elmlər üzrə fəlsəfə doktoru Muxtar Hacızadə aprelin 27-28-də İstanbulda Yeditepe Universitetində "Qafqazda avropalaşma problemləri və imkanları" mövzusunda keçirilmiş beynəlxalq konfransda iştirak etdi. Dr. Muxtar Hacızadə çıxışında təhlükəsizlik, institusionalizasiya və tərəfdaşların rolundan bəhs edərək, Aİ və daha geniş Qara dəniz qonşuluğu ilə bağlı məsələlərə də toxundu.

## HEAD OF DEPARTMENT SPOKE AT THE INTERNATIONAL CONFERENCE ON THE CAUCASUS

On April 27, Dr. Mukhtar Hajizada, Jean Monnet Chair and Head of the Department of Political Science and International Relations at Khazar University, participated in an international conference entitled "Challenges and Opportunities of Europeanisation in the Caucasus". Dr. Hajizada delivered a presentation on the EU and the wider Black Sea neighbourhood dealing with the security, institutionalization and the role of stakeholders. The conference took place at Yeditepe University in Istanbul, Turkey on 27-28 April.

## "XƏZƏR"İN ƏMƏKDAŞININ MƏQALƏSİ ÇAP OLUNUB

Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan köməkçisi, universitetin doktorantı Validə Kərimovanın "*Typological characteristics of Discourse*" ("Diskursun tipoloji xüsusiyyətləri") adlı elmi məqaləsi Azərbaycan Dillər Universitetinin "Elmi xəbərlər" jurnalının 2-ci buraxılışında çap edilmişdir. Məqalədə diskursun müxtəlif növlərinin (qəzet, siyasi, hüquqi, bədii, akademik və ya elmi və s.) praqmatik və koqnitiv perspektivləri araşdırılır.




## THE NEXT ARTICLE OF PHD CANDIDATE PUBLISHED

The article of Valida Kerimova, PhD candidate and Dean's assistant of School of Humanities and Social Sciences at Khazar University, entitled "Typological characteristics of Discourse" ( In English) was published in the 2nd issue of the "Scientific News" of Azerbaijan University of Languages. The paper covers the issues related with different types (newspaper, political, legal, literary, academic or scientific etc.) of discourse from pragmatic and cognitive perspective of the discourse participants.



## XƏZƏR UNİVERSİTETİ EFPSA KONQRESİNİN SPONSORLARINDAN BİRİ İDİ

Azərbaycanda aprelin 23-dən 30-dək təşkil olunmuş 31-ci EFPSA Konqresinin keçirilməsinə sponsorluq edən iki universitetdən biri Xəzər Universiteti oldu. Konqresin digər sponsorları Türk Hava Yolları, Asan Xidmət, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Gənclər Fondu kimi böyük qurumlar idi.

Məlumat üçün bildiririk ki, EFPSA – Avropada psixologiya ixtisası üzrə təhsil alan tələbələri və gənc mütəxəssisləri birləşdirən ümumavropa təşkilatıdır. Təşkilatın hər il təşkil olunan və ən böyük tədbiri hesab olunan illik konqresinə 33 ölkədən 300-dən artıq gənc psixoloq və professor-müəllim heyəti qatılır.

Qax rayonunda təşkil olunmuş 31-ci EFPSA konqresinin əsas mövzusu "Müasir insanlıq" adlanırdı. Bu mövzu ətrafında müharibə və terrorların yaratdığı psixoloji mühit, mədəniyyətlərarası fərqliliklərin yaratdığı psixoloji çətinliklər, texnoloji inkişaf şəraitində insan psixikası və s. bənzər mövzular müzakirə olundu. Tədbirdə Britaniya Psixoloqlar Cəmiyyətinin vitse-prezidenti Jeymi Hager Hugs-ın, Avropa Psixoloqlar Assosiasiyasının baş katibi Robert Xiberiasın, Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin tədqiqatçısı professor Rauf Qaragö-zovun, Niderland Krallığının Utrext Universitetinin psixologiya elmləri doktoru Art Frankenin, Moskva Dövlət Universitetinin professoru Veronika Nurkovanın, İstanbul Şəhər Universitetinin professoru Ceren Acartürkün və digərlərinin mövzu ilə bağlı mühazirələri dinlənildi.

Xəzər Universiteinin psixologiya ixtisası üzrə təhsil alan tələbələri də konqresdə iştirak edirdilər.

## KHAZAR UNIVERSITY WAS ONE OF EFPSA CONGRESS SPONSORS

On April 23- 30, Khazar University became one of the two Universities which sponsored the 31st EFPSA Congress organised in Azerbaijan. The other sponsors of the Congress are large institutions such as Turkish Airlines, ASAN Service, the Ministry of Culture and Tourism, Azerbaijan Youth Foundation.

EFPSA-is a pan-European organization that brings together students and young specialists majoring in psychology in Europe. More than 300 young psychologists and professor-teacher staff from 33 countries participate in the annual EFPSA Congress which is the biggest event of the Federation.

The main theme of the 31st EFPSA Congress organized in Gakh was "Modern humanity". Topics such as psychological atmosphere caused by war and terrors, psychological challenges resulted from cultural differences, human psychology in technological development and so on were covered in the congress. Jamie Hacker Hughes, Vice President of the British Psychological Society; Robertas Povilaitis, Secretary General and Vice President of EFPSA, Rauf Garagozov, Researcher of the Center for Strategic Studies under the President of the Republic of Azerbaijan; Art Franken, PhD in Psychology at the University of Utrecht in the Netherlands; Veronica Nurkova, professor at Moscow State University; Ceren Acarturk, professor at Istanbul City University and others delivered lectures on the above mentioned topics.

Students majoring in Psychology at Khazar University also participated in the Congress.



**Hamlet İsaxanlı**

# MUSİQİLİ... ŞÖHRƏT AZARI

*(hekayə)*

*Hamlet İsaxanlının elmi və poetik yaradıcılığı ilə yanaşı onun nəşr olunmamış hekayə və romanları olduğu da məlumdur (bəzi müsahibələrdə buna toxunulub). "Xəzər Xəbər" üçün bir hekayəsini istədik. Həmin hekayəni məmnuniyyətlə oxucularımıza təqdim edirik.*

Yazı-pozu adamları televiziya qarşısında vaxt keçirməyi itki sayırlar. Lakin insan işdən qayıdıb evdə bir az dincəlmək istəyəndə, adəti üzrə çay içəndə nəsə bir şey görmək, tamaşa etmək və ya xoş musiqi eşitmək məqsədilə televiziyanın quyruğunu, yəni uzaqdan nəzarət cihazını qurdalamağa başlayır. Televiziya kanallarımızda qəribə oğlan və qızların, müğənnilərin, şizofreniyalı qadın və kişilərin iştirakı ilə baş alıb gedən dedi-qodu, zövq yoxsulluğu və ya hökumət siyasətinin arasıkəsilməz yeknəsəq təbliğatı, Füzulu demişkən, adamı candan usandırır. Nə yaxşı ki, dünya televiziya kanalları ilə doludur, baxıb seçmək imkanı var.

Yazı-pozudan bir az aralanıb özümə beş-on dəqiqəlik istirahət elan etmişəm, görək maraqlı bir şey varmı? Bax bu Avropa televiziya kanalının yeniliklərinə də, mədəniyyət xəbərlərinə də baxmaq olur. Aha, bu gözəl xanım kimdir? Fransızca danışır, bu ki məşhur aktrisadır; teatr, televiziya, xüsusilə kinoaktrisa fəaliyyəti ilə sevilib, üstəlik, model kimi də tanınıb, gözəllik mücəssəməsidir. Bu müsahibəyə baxacam. Möhtəşəm təbəssümü var, sanki ətrafa işıq saçır. Qəribədir, utancaq təsiri bağışlayır. Şərqliyə qəribə görünsə də, yəqin ki, fransızlar arasında da, hətta onların aktyor və aktrisaları arasında da utancaq insanlar var. Niyə də olmasın, fransızlar adam deyillərmi?! Bu məşhur xanımın mehribanlığı və sadəliyi onun cazibə və məlahətini birə- yüz artırır. Onun çəkildiyi və baş rol aldığı məşhur filmin böyük uğur qazanmasını qeyd edən aparıcı "bu uğurun əsas səbəbi nədir?" sualını verdi. Aktrisanın cavabı qısa və gözəl idi: "Hadisə füsunkar Parisdə baş verir. Bu film ona baxanlara Paris və Fransanı kəşf etmək və sevmək imkanı verdi. Mən də o mühitin içində idim..." Digər sual aktrisanın Hollivudda (Hollywood) az görünməsi səbəbi ilə bağlı idi. Aparıcının "əminəm ki, siz Hollivuddan çox təklif alırsınız" sualına cavab aydın, dəqiq və təvazökar idi: "Yox, çox təklif almıram. Onların öz qeyri-adi güclü aktrisaları var. Həm də mən ingiliscə çox yaxşı danışmıram". Gələcək planlar haqqında da: "Gələcəyi proqnozlaşdırmağı sevmirəm, kino ilə bağlı olmayan kiçik layihələrim də var. Bir də ki, başqa şeylər də var: həyat, ailə, dostlar..."

Doğrudan da, xoşbəxtlik necə də sadə və əlçatandır: ailə, dostlar, ruhu sığallayan təbəssüm, şöhrətin korlamadığı, əksinə, daha da kamilləşdirdiyi bir insanla yaxından və ya uzaqdan tanışlıq, göz oxşayan dağlar, çiçək qoxusu, meşələrin pıçıltısı, çayların şırıltısı, dənizin ləpələnməsi...

* * *

Ax... Bu ləyaqətli fransız xanımın yerinə özünü parlaq superulduz kimi qələmə verən, amma işığı olmayan, televiziyada tez-tez görünən, amma bayağılığı ilə acı təbəssüm doğuran bizim bəzi xanım qəhrəmanlarımız olsaydı... Oynadıqları solğun rol haqqında necə bəlağətlə danışardılar. Nələr deyərdilər özləri haqqında?! Nələr deməzdilər ki?! Utanmazcasına özlərinin "Tanrı vergisi olan istedadları"ndan və "pərəstişkarları"ndan bəhs edərdilər. Azərbaycanlı olanda nə olar, içimizdə nə qədər desən utanmazlar var. "Sizi xaricdən dəvət edirlərmi?" sualına "əlbəttə, dəvətlərin ardı-arası kəsilmir, mən onları dəyərləndirməklə, seçməklə məşğulam" kimi ağ yalanla cavab verərdilər. Gələcək planlara gəldikdə isə, fantaziyalarını, yuxuda gördüklərini işə salar, sözlərə əzilib-büzülən vücudları ilə züy tutardılar.

Niyə insanların bir hissəsi sadə və səmimi deyil?! Bəlkə sadəlik və səmimilik insanın hüceyrələrində və ya qanın tərkibində olan bir keyfiyyətdir - bəzilərində var, digərlərində yox?! Sadəliyi zəiflik, aşağılıq əlaməti sayanlar var; başqa cür desək, sadə olmağı bacarmayan, sadə olmağa gücü çatmayanlar var. Onlara görə sadə insan sirli və istedadlı görünmür.

* * *

Telefonun səsi gəldi. Görüm kimdi zəng edən, tanışdımı? Televiziyadan Asifdir. Yəqin məni öz proqramına - verilişə çağıracaq. Ziyalı adamdır. Danışıqlıdır. Nəfəsini dərmədən o qədər səlis və düzgün danışır ki, sözləri əzbərləyibmiş kimi təsir bağışlayır. Bunun sadə izahı var: qabiliyyətlidir, təcrübəlidir və yəqin ki, proqramına yaxşı hazırlaşır.

Telefonu götürdüm. Asif hal-əhval soruşub mətləbə keçdi:

"Ayaz müəllim, çoxdandır bizə qonaq gəlmirsən. Musiqiçilərdən əlavə cəmi iki nəfər olacaqsınız, deyirəm yaxşı bir söhbət edək. İkinci adamın kim olduğunu soruşma, o da sizin kimi kimyaçıdır, ona da sizi dəvət edəcəyimi deməmişəm, istəyirəm hər ikinizə sürpriz olsun. Amma, xahiş edirəm, yox demə".

Televiziyadan, qəzet-jurnaldan, müsahibələrdən qaçan adam deyiləm. Amma çox zaman "bağışlayın, gələ bilmirəm" deməli oluram. Mövzudan, verilişin tipindən, aparıcının kimliyindən, müsahiblərimin kimlər olmasından asılı olaraq və nəhayət, vaxt qıtlığına görə televiziya dəvətlərinin çoxuna getmək istəmirəm və ya gedə bilmirəm. Lakin Asifin xətrinə dəymək olmaz, üstəlik, verilişi canlı, maraqlı və musiqilidir.

* * *

Veriliş canlıdır, gecikmək olmaz. İndiki zamanda bir yerə gedəndə, getdiyin yerə vaxtında çatmaq üçün yollardakı böyük şəhərlərin dərdi olan basırığı da nəzərə almaq lazımdır. Maşının sayı-hesabı yoxdur, əksəriyyəti də uzun və böyük minik maşınları; böyüklük iddiası şəxsi maşının böyük olmasını tələb edir. Üstəlik, yolları da tez-tez bağlayırlar.

Yol boyu maşınlara deyil, maşındakı insanlara baxmaq maraqlıdır. Kiminin ciddi görünüşü, kiminin qaşqabağı, kiminin də yorğun sifəti gözə çarpır. Gülümsəyən, gözünə sevinc, dodağına təbəssüm qonmuş adamlar nə azdır?! Nə olub bunlara görəsən? Hə, nə gözəl uşaqdır, sağ yanımda, bizimlə yanaşı cərgədə, azca irəlidə sürünə-sürünə gedən maşındakı balacanı deyirəm. Yəqin 4-5 yaşı olar, qıvrımsaç, irigözlü oğlan uşağıdı. Maşının arxa-ikinci sırasında ayaq üstə dayanıb, o xanım (yəqin anasıdır) onu tutub ki, yıxılmasın. Uşaq gah üzünü şüşəyə dirəyir, gah da azca aralanırdı. Mənə baxdı, gülümsündüm, ona əl elədim. Uşaq gözünü qıydı, sonra o da gülümsədi, əllərini mənə doğru yelləməyə başladı. Mənə baxa-baxa gah bir, gah da o biri əlini yellədir və yerində yırğalanırdı. Anası (hesab edək ki, o xanım onun anasıdır) bunu hiss edib, başını döndərdi və gözü mənə sataşdı. Nədənsə, bir anlığa gözünü yumdu, açdı və xəfif təbəssümlə əvvəl uşağa, sonra mənə baxdı. İki ayrı maşında gedən iki böyük adam və bir uşaq arasında səssiz bir ünsiyyət qurulmuşdu, bundan da hər üçü xoşlanan kimi görünürdü. O maşın gedən sıra

bir qədər sürətləndi, mən geri qalmağa başladım. Uşaq təkidlə mənə əl edirdi. Bu anda ana uşağa, sonra mənə baxdı, uşağın balaca əllərini öz ovcunda tutaraq birləşmiş, qoşalaşmış iki əli yellədi və beləcə mənimlə salamatlaşdı (əslində, vidalaşdı demək daha doğrudur). Nə təbii, nə gözəl! Sağ olun! Mənə necə də xoş oldu!

Balaca bir şey, təbəssüm paylamaq, əl etmək qarşıdakı insana xoş anlar bəxş edə bilir.

* * *

Pillələrlə verilişin cərəyan edəcəyi ikinci mərtəbəyə qalxdım. Salonun giriş qapısına yaxınlaşanda Firidunu gördüm. Bəli, bu sürpriz idi. O da məni gördü:

"Baah! Ayaz...Heç ağlıma gəlməzdi ki, burda görüşəcəyik. A kişi, gör neçə ildi bir-birimizi görmürük".

Əl tutduq, əhvallaşıb dərdləşmək işi başlandı:

"Ay Firidun, əməlli-başlı yekə kişi olubsan. Gənc sütül oğlan idin Moskvada olduğumuz, oxuduğumuz vaxtlar. Yox, indi də pis deyilsən, maşallah. Bilirəm Fransadasan. Nə vaxt gəlibsən? Danış görək, nə var, nə yox?"

"Yaxşıyam, daha fransalı oldum demək olar. Amma fransız vətəndaşlığını qəbul etməmişəm, Azərbaycan vətəndaşıyam! Buralara da hərdənbir gəlirəm, gələndə də rayonumuza gedirəm. Sən gərək ki, bizim rayona gəlibsən, hə? Hə, əlbəttə, rayonda, toyumda Bakıdan gələnlərin adından çıxış etdin, yaxşı yadımdadır, yaxşı bir tost dedin".

Toya doğrudan da getmişdik, amma tost dediyim yadımda deyil; yəqin ki, demişəm. Amma orda şeh düşmüş otların üstündə ayaqyalın gəzdiyim yaxşı yadımdadır.

"Mənim səninlə bağlı yadımda qalan ancaq və ancaq Moskva həyatıdır. Hə, Fred, necəsən?"

Firidun gəncliyində özünü "Fred" kimi təqdim etməyi sevərdi.

"Çox yaxşıyam desəm, inan! Bu yaxınlarda Yaponiyada idim. Kemometrika üzrə konfransda iştirak edirdim. Yaponiya möcüzədir. Olubsanmı orda?"

"Olmuşam, olmamışdan əvvəl uzaqdan sevirdim, oldum və sevgim şiddətləndi. Firidun, sən gərək ki, Moskvada elektrokimya ilə məşğul olurdun, səhv etmirəmsə?"

"Düz deyirsən. Bir az sonra soyudum elektrokimyadan, təzə söz demək olmur orda. Klassiklərin və ya səndən əvvəl gələnlərin kölgəsindən çıxmaq olmur elektrokimyada, bir elm sahəsi kimi maraqlı olsa da. Sonra Fransada fitokimya ilə maraqlandım, bir araşdırma qrupu vardı, onlara qoşulmaq istədim, bitkilərdən yeni maddə, daha doğrusu, dərman almaq üzərində çalışırdıq. Öz-özümə sanki orta əsrlərə getmiş kimi görünürdüm, ənənəvi tibb, əlkimya..."

"Dediyindən belə çıxır ki, fitokimya ilə məşğuliyyətin də dayandı, eləmi?"

"Hə. İndi kemometrika üzrə tanınmış mütəxəssisəm. Qardaşın gündə bir konfransda, gündə bir ölkədədir. Bu yaxınlarda bir kitabım nəşr olunub, göstərəcəm sənə. Sənin biokimyan nə oldu? Nüvə kimyasınnan da maraqlanırdın, yadımdadır. Hansında ilişdin qaldın?"

"O vaxt biokimya, həmçinin molekulyar biologiya və genetika ilə çox məşğul oldum, əsasən öyrənirdim desəm, daha doğru olar. Araşdırma da apardım, yazdım, pozdum. Get-gedə daha çox neyrokimya üzərində cəmləşdim, orda ilişdim qaldım demək olar. Bilirsən ki, neyrokimya bir çox sahələrin qovuşduğu yerdir, orda ilişib qalmaq xoşdur mənə".

Xoşbəxt insanları, yəqin ki, ancaq sevdiyi işlə məşğul olan, zəhmət çəkib bar dərənlər arasında tapmaq mümkündür.

* * *

Mənim yaddaşımda "ilişib qalan" o zamankı Firidun dəb sevən ("modabaz", "stilyaqa") və xeyli də özünü sevən, təvazökarlığı yaxına buraxmayan bir gənc idi. Bakıda oxuyurdu, tələbəliyin son ilini Moskvaya gəlmiş, burada diplom işi yazırdı. O vaxt mən də Moskvadaydım, aspiranturada oxuyurdum, indiki təhsil qanununun daxil etdiyi bərbad, eybəcər terminlə desək, "kimya elmləri üzrə fəlsəfə doktoru" adını alacaqdım araşdırmalarımın bir nəticəsi olaraq. Firidunun Bakıda bərabər oxuduğu bir neçə tə-

ləbə yoldaşı da eyni məqsədlə Moskvada idilər; əslində onların Moskvaya gəlməsini mən təşkil etmişdim, qoy əsl elmi mühiti görsünlər, gələcəyin təməlini atsınlar. Onlar qabiliyyətli və təvazökar uşaqlardı. Firidun da öz dostları kimi qabiliyyətli idi, haqqı danmaq olmaz, amma onlardan şıq geyimi, müasir rəqslərdə ustalığı, şəhərsayağı sərbəstliyi və əlbəttə ki, özündən razılığı ilə fərqlənirdi. Dostları onunla zarafatlaşanda, "Freddən olmaz" deyəndə, o zarafatı davam etdirər və ya bəlkə də ciddiliklə "təvazökarlıq adamın inkişafına mane olur, yaşamaq mübarizədirsə, təvazökarlıq mübarəzədən yayınmaqdır" deyirdi. Dissertasiya müdafiə edən, elmi ad alan bu gənclərin yolları ayrıldı; Firidun, necə oldusa, Fransada özünə iş tapdı, orada bir universitetdə dərs deməyə başladı, dostları isə digər, yaxın xarici ölkələrə dağılışdılar.

Firidun yaşlansa da, yaxşı görünürdü. Yenə də şıq geyinmişdi, açıq filsümüyü rəngli pencəyi, boynuna doladığı alabəzək şərfi və açıq rəngli düyməli ayaqqabısı ilə daha çox sənət adamına, aktyora və ya rəssama bənzəyirdi. Saçları seyrəkləşsə də, tam dazlaşmamışdı, qulaqlarının üstündən ox kimi kənara yönələn çal saçlar başındakı boya vurulmuş saçlara uyğun gəlmirdi.

* * *

Asif koridora çıxdı, bizi xoş təbəssümlə, "xoş gəldiniz"lə və yaxşı iş gördüyünə görə sevinən adam tərzi ilə qarşıladı:

"Hə, gördünüzmü sizə necə sürpriz hazırlamışam?! Yəqin çoxdan görüşmürdünüz. Ya bəlkə də hardasa görüşmüsünüz, sizin işinizi bilmək olmaz, ikiniz də dünyanı gəzib-dolaşırsınız, maşallah. Gəlin içəri keçək, musiqiçilərimiz də var".

İçəridə, çəkiliş aparılacaq studiyada muğam qrupu və vokalçı xanım əyləşmişdilər. Kefdə olacağıq! Muğam və mahnıların, opera ariyaları və romansların birlikdə, bir-birini əvəz edərək, bir-birini tamamlayaraq səhnədə yer almasından gözəl nə ola bilər?! Xanəndə gənc qız idi, deyəsən son vaxtlar keçirilən muğam müsabiqələrinin qaliblərindəndir. Onun ürkək, bir az da çaşqın baxışları ilə qarşılaşdım. Tarzən və kamança çalan da gənclərdi, onları tanıyıram, şövqlə çalır, çoşub bir-birinə göz edir, qımışır, bir-birinə doğru əyilir, jestlər edir, biri o birinin ifasından vəcdə gəldiyini göstərməklə tamaşanın cazibəsini artırırlar. Vokalçı isə sözlə təsviri zor olan bir xanım idi. Salamlaşdıq, musiqiçilərlə, həmçinin studiyada çalışanlarla "nə var, nə yox" işini görüb bir az şuxluq etdim:

"Kefdə olacağıq, Asif müəllim! Bizə çox söz verməyin, biz bir-birimizi sözsüz də anlayırıq. Söz güləşdirmək, sözləşmək yerinə gözümüzü yumub şirin musiqiyə qulaq asaq deyirəm, musiqinin əsiri olaq".

Asifin və bizim qarşımızdakı masanın üstünə afişa və ya plakat kimi bəzəkli bir şey, bir kitab, əl ilə və çap hərfləri ilə yazılmış vərəqlər düzülmüşdü. Onları gözucu gördüm, düşündüm ki, afişa yəqin vokalçı xanımın hardasa keçirilmiş və ya yaxın zamanda baş tutacaq konsertinə aiddir.

Bizi oturmağa dəvət etdilər; Asif, təbii ki, mərkəzdə yer tutmuşdu, o, sağında vokalçı xanımı, daha sağda muğam qrupunu, özündən solda Firidunu və ondan solda, yəni sol-kənarda məni əyləşdirdi. Firidun mənə doğru əyildi, astadan "təzə kitabım nəşr olunub, gətirmişəm, bax, bu da, yubileyim keçiriləcək, onun plakatıdır" dedi. Mən "nə yaxşı..., təbrik edirəm" deyib işarə ilə ona susmaq və proqramı başlayan Asifə qulaq asmaq lazım gəldiyini bildirdim.

Asif həmişə olduğu kimi nəfəsini dərmədən, səliqə ilə, sapa muncuq düzən kimi sözləri yan-yana düzdü, vətənpərvər ifadələr işlətdi, seyrçiləri salamladı və muğama söz verdi. Mən qəlbib-enən ahəngdar musiqiyə qulaq asa-asa masanın üstünə nəzər saldım, başa düşdüm ki, hər şey - kitab, afişa, başqa nə varsa hamısı Firiduna aiddir; tənbəllik etməyib özü ilə gətirib ki, Asif onu təqdim edəndə və tərifləyəndə o kağızlardan istifadə etsin. Deyəsən, hər şey əvvəlcədən planlaşdırılıb.

* * *

Muğam bitdi. Asif, əvvəlcə, çox da uzatmadan, musiqiçiləri təqdim etdi, sonra "bugün çox maraqlı qonaqlarımız var, hər ikisini, əziz dostlar, yəqin ki, tanıyırsınız, hər ikisi kimyaçı alimdir: dünya şöhrətli alim, Fransada işləyən həmyerlimiz professor Firidun Sarıyev və yenə çox şöhrətli həmvətənimiz professor Ayaz Bayramlı!

Şöhrət azarı bürüyüb cəmiyyətimizi. Seçdikləri, tərifləmək istədikləri şəxsi - kim olur-olsun, sənət adamı, idmançı, alim, fərqi yoxdur - "dünya şöhrətli" ünvanı ilə təltif edib göylərə qaldırır, ona elə keyfiyyət və sifətlər uydururlar ki, bu barədə yalnız xəyal etmək olar. Buralarda bəlağət çökməyib, orta əsrlərin ruhu bizimlədir, ruhu şad olsun. Təkcə siyasətçilərimiz haqqında "dünya şöhrətli" sözünü işlətmirlər, onu da qorxularından. Bu məddahların ağlına gəlmir ki, bizim "dünya şöhrətli"lərimizdən müqayisəolunmaz dərəcədə yüksəkdə dayanan çox insanlar var ki, onlar barədə heç kim - nə özləri, nə də tanış və dostları "dünya şöhrətli" ifadəsini işlətmirlər.

Yaxşı ki, mənim şöhrətimin qarşısına "dünya" deyil, sadəcə "çox" ifadəsini qoydu. Sosializmə inam itəndə Sovet cəmiyyətində "xarici" damğası olan az qala hər şeyə səcdə qılınırdı. Xaricdə, xüsusilə Qərb ölkələrində yaşayıb işləyənləri izinə-tozuna, əyrisinə-düzünə baxmadan fərqli, daha doğrusu, yüksək sayanlar hələ də var.

Nə isə, görək başımıza nə iş gəlir. Görünür ki, bugün Asif və Fred əsasən Firiduna dünya şöhrəti möhürü vurmaqla məşğul olacaqlar.

"Firidun müəllim, kimya gözəl və vacib elmdir, bəs siz kimyanın hansı məsələləri ilə məşğul olursunuz, hansı yeniliklər, ixtiralar, kəşflər etmisiniz? Qoy televiziya tamaşaçıları sizin öz ağzınızdan eşitsinlər" deyə Asif söz demək sırasını Firiduna verdi.

"Mən əvvəlcə sizin veriliş barədə bir-neçə söz demək istəyirəm. Gözəl verilişdir, hamı sevir, hamı gözləyir bu verilişi. Sizi təbrik edirəm belə ümumxalq məhəbbətinə görə, sizə daha böyük uğur diləyirəm. Əlbəttə ki, bu uğur televiziya rəhbərliyinin və sizin əməyiniz, qabiliyyətiniz nəticəsində qazanılıb və, əlbəttə ki, son vaxtlar ölkəmizdə baş verən müsbət proseslərlə bağlıdır. Qaldı ki, mənim məşğul olduğum elm sahəsinə - ona kemometrika deyirlər, kimyəvi prosesləri riyaziyyat, statistika, kompüter elmləri vasitəsilə öyrənirəm. Gələcəkdə nə baş verəcəyini proqnozlaşdırıram. Həyatı və hadisələri anlamaq üçün çoxsaylı müşahidələri və dəyişənləri təhlil etmək lazım gəlir. Bilirsinizmi, gözümüz alışan üçölçülü fəza heç də hər şeyi izah edə bilmir".

Asif ehtiram dolu ehtiyatla "Eynşteyn dünyanın üçölçülü deyil, dördölçü olduğunu göstərdi" dedi və sanki fikrinin təsdiqi və ya tamamlanması üçün növbə ilə mənə və Firiduna baxdı. Fred göyün yeddinci qatında idi və qəti aşağı enmək fikrində deyildi:

"Mənə heç dördölçülü fəza da bəs etmir! Bilirsinizmi, Asif müəllim, mənim çalışdığım, mənim məskən saldığım fəzaların bir neçə min ölçüsü olur! Tibbdən başlamış idmana qədər tətbiqlərimiz var. Kitabımı görürsünüzmü? Baxın, xahiş edirəm yaxından göstərin, ingiliscədir, keçən il nəşr olunub. Mən dərslərimi fransızca deyirəm, kitabı isə ingiliscə yazmışam".

"Deməli ingiliscə də bilirsiniz", Asif sifətinə heyrət ifadəsi yapışdırdı.

"Bir neçə başqa dillərdə də danışa bilirəm, yaponca, almanca, xeyli italyanca, orta səviyyədə bildiklərimi heç saymıram".

"Maşallah! Fəxr etməliyik sizinlə, Firidun müəllim. Hə, Ayaz müəllim, necəsiniz? Firidun müəllimlə çoxdan tanışsınız, elə deyilmi?"

"Yaxşıyam, təşəkkür edirəm. Firidunla çoxdan - onun tələbə, mənim gənc tədqiqatçı olduğum zamanlardan tanışam, Moskvada bir yerdə olmuşuq. Elə o vaxt da Firidun gözüaçıq və zirək idi". Ürəyimdə ilişib qalan sözləri deyə bilməzdim: "o vaxtlar da goplayır, guya çox dil bildiyini iddia edirdi, dostlarının ifadəsincə desək, bilmədiyi, anlamadığı dilləri bilirdi". Fred müəyyən ifadələri və terminləri əzbərləyib məclislərdə işlədərdi. Onu tanıyanlar qımışar, bəzən də "tərbiyəsizlik edib" onu ifşa edərdilər. Elə həmin Freddir, zaman dəyişib, o, dəyişməyib. "Qozbeli qəbir düzəldər" bir qədər kobud məsəldir, "zəncini yumaqla ağartmaq olmaz" daha yumşaq səslənir (qara dərili dostlarım məni bağışlasın).

"Dünya şöhrətli" adını bol-bol paylayanların səxavəti nə ilə bağlıdır?! Bir səbəb tərif üçün seçilmiş adama yaxşılıq etmək istəyidir. Bu istək ürəkdən də gələ bilər, tərsinə - məqsədli olub əvəzində bir şey ummaqdan da. Hədsiz tərifin digər səbəbi bilməməzlikdir. Adamı yaxşı tanımamaq, adamın məşğul olduğu

sahəni yaxşı bilməmək, ümumiyyətlə, bu mürəkkəb dünyanın üzünü görüb, içini görməmək insanı çaşdırır...

Günəşin saçını hörə bilmirik
Zalımın dərsini verə bilmirik
Həyatın üzü çox tanış olsa da
İçini dərindən görə bilmirik.

* * *

"Ayaz müəllim, bilirəm ki, sizin də kitabınız çıxmışdı xaricdə, ingiliscə. O nə haqqında idi?" Firidun baş qəhrəman olsa da, Asif məni də yaddan çıxarmır, bu "dünya şöhrətli" alimin yanında məni kölgədə saxlamaq istəmirdi. Mənimsə vecimə deyildi.

"Hə, kitablarım çoxdu, o cümlədən - müxtəlif ölkələrdə və müxtəlif dillərdə nəşr olunmuş əsərlər. Bunda təəccüblü bir şey də yoxdu, alimin işi kitab və məqalə yazmaqdı. Yəqin funksional neyrokimya haqqında kitabımı nəzərdə tutursunuz. Beyində gedən proseslərin kimyasını və biologiyasını başa düşmək istəyirik. Orada nə baş verir, düşüncə mexanizmi nədən ibarətdir, necə düşündüyümüzü kimya vasitəsilə anlamağa çalışırıq. Məsələyə baxın: beyin beyində nə baş verdiyini dərk edə bilərmi? Bu sahədə bil-mədiklərimiz dərya, bildiklərimiz dəryada damcı kimidir. Dünyanı anladıqca gördüyünüz işin nə qədər cüzi olduğunu görürük. Hər yeni tapıntı öz ətrafında bir yığın məchullar, neçə-neçə suallar doğurur. İrəlilədikcə bilmədiklərimizin sayı artır.

Dilə qaldıqda isə, bir zamanlar bizim elm dilimiz rus dili idi, indi ingilis dilidir. Bu gün əsasən ingiliscə oxuyub yazırıq. İngilis dili beynəlxalq ünsiyyət vasitəsidir, neyləyə bilərik ki?!"

Bu yerdə tərifləri dayandırıb, musiqiyə keçilməsini istədim (bu, tərifi dayandırmaq üçün çox təbii bir səbəbdi).

"Asif müəllim, muğama ləzzətlə qulaq asdıq, sağ olsun bu gənclər, əminəm ki, bir qədər sonra onlar daha da qızışacaq, cuşa gələcəklər, muğamın təbiəti belədir. Bəlkə vokalçı xanıma da meydan verək, yəqin ki, hamı gözəl canlı musiqi gözləyir".

Vokalçı xanım başını qaldırdı, bizə baxdı, gözlərində bir parıltı, üzündə xoş təbəssüm vardı:

"Sizə çox maraqla qulaq asırıq, çox sağ olun".

Bu, nəzakət xatirinəmi deyildi, ya səmimi sözdümü, bilmədim. Bu xanım surət gözəlliyi ilə deyil, duruşu və oturuşu, sadə və cəzbedici, eyni zamanda ötkəm ədası, iti baxışı ilə can verir, can alırdı. Cazibə qüvvəsi ilə özünə doğru çəkir, ləyaqəti ilə dayandırır, özü ilə ətraf arasında bir məsafə yaradır, sanki "yaxına gəlmə, məni yalnız uzaqdan sevə bilərsən" deyirdi. Bəzi qadınlar Günəş kimi uzaqdan işıq saçır, uzaqdan yandırır.

Asif vokalçı xanımı layiqincə təqdim etdi, onu çıxışa dəvət etdi. Xanım ayağa durdu, köksünü qabartdı. Nazik beli və dik döşləri ilə abidəvi görkəm aldı. Qadın nə qadın! Aydın, parlaq gözləri ilə ətrafa nəzər saldı, əslində ətrafın diqqətini öz üzərində cəmləşdirdi, sanki "məni görürsünüzmü" demək istəyirdi. Adətən kişilər əvvəl qadın vücudunun ayrı-ayrı gözəl və həssas yerlərinə göz gəzdirir, sonra isə onu başdan ayağa süzürlər. Bu hal o haldan deyildi; biz üzə, gözə, dodaqlara, döşə, ayaqlara deyil, sadəcə onları bütövləşdirən müstəsna bir məxluqa baxırdıq, bütünlüklə, başdan-başa görürdük onu. Sinəsini də qismən örtən uzun, dizdən aşağı paltarı da ona baxan gözləri bütövə, tama baxmağa dəvət edirdi. Bir neçə addım atdı. Yeridi, nə yeridi! Mənə elə gəldi ki, bu xanımın qabarmış sinəsində onu çəkib irəli aparan qeyri-adi bir qüvvə gizlənib. Tanrının ona bəxş etdiyi yerişi, duruşu və baxışları ilə meydan oxudu hamıya. Və Üzeyir bəyin ecazkar musiqisi ətrafa yayıldı, bizi və yəqin ki, cəmi seyrçiləri, dinləyiciləri xoşbəxtliyə qərq etdi. Qərq etdi sözü necə də yerinə düşür bu yerdə!

Firiduna doğru döndüm, bu qısa aralıqda onu unutmuşdum, bu xoşluğu onunla bölüşmək istədim, bu lətafət və həyəcan yəqin ona da sirayət etmişdi (Fredin qız-qadınları sevdiyi, onlarla rəqs etməkdən çox xoşlandığı yadımdadır). Qəribədir, indi nə olub ona? Sanki, nə musiqini eşidir, nə bu cazibəli xa-

mını görürdü. Aha, deyəsən, "daha vacib iş"lə məşğuldu, masanın üstündəki kağızları yerbəyer edir, Asifin qarşısına düzür, ona hansı ardıcıllıqla danışmaq lazım gəldiyini göstərirdi.

Yüksək yaradıcılıq ehtirasının kişi-qadın arası eşq qüvvəsindən güclü olduğuna dair tarixdə və günümüzdə kifayət qədər misallar var. Lakin, adi şöhrətbazlığın, şöhrət azarının zərif, məxməri gözəllik qarşısında insanı necə kor etdiyini görmək heç xoşagələn iş deyil.

* * *

Vokalçı xanım çıxışını bitirdi, həmin məlahətli əda ilə yerinə qayıtdı. Əl çaldıq, alqışladıq. Sənətkarın, səhnə adamının yaradıcılığı, həyatı, xoşbəxtliyi onun alqışlanması ilə birbaşa bağlıdır; idmançı və qismən siyasətçilər də gurultulu alğış olmadan yaşaya bilməzlər. Elm adamı isə əsasən həmkarlarının diqqətini, təqdirini, peşəkar rəyini üstün tutur, onların sözünü eşitmək istəyir.

Asif gözucu qarşısında yan-yana dayanmış iki kağıza baxdı və növbəti hazır (rusların "dejurnıy" dedikləri) sualla Firiduna müraciət etdi, onun dəyirmanına su tökməyə davam etdi:

"Firidun müəllim, bilirəm ki, sizi çox qiymətləndirirlər, qədrinizi bilirlər. Eşitmişəm ki, yubileyiniz xüsusi qeyd olunacaq".

Firidun yenidən dirçəldi:

"Əvvəl onu deyim ki, şikayətim yoxdur, hər şey yaxşı gedir, işlədiyim universitetdə də, başqa yerlərdə də layiqincə qiymətləndiriblər məni, mükafatlandırıblar. Yubileyim münasibətilə konfrans keçiriləcək, mütəxəssislər toplanacaq, məruzələr dinləniləcək. Konfransda kimyaçılarla yanaşı fizik və riyaziyyatçılar, bioloq və həkimlər də iştirak edəcəklər. Budur konfransın plakatı, baxa bilərsiniz, məruzəçilərin adlarını görürsünüzmü, onları bir-bir sizə təqdim edə bilərəm, haradan gəlirlər, nə işin sahibidirlər. Bax..."

O, konfransda iştirak edəcək adamlar haqqında bir-bir geniş məlumat verməyə girişdi. Təcrübəli Asif bunun mühüm olmadığını, seyrçilərə maraqlı gəlməyəcəyini yaxşı başa düşdüyündən onu dayandırmalı və başqa tərəfə yönəltməli oldu:

"Görürəm, Firidun müəllim. Maraqlıdır, plakatın üstündə Qız Qalasının şəkli var, bəs bu nə deməkdir?"

"Bilirsinizmi, mən azərbaycanlıyam! Fransada yaşamağıma baxmayın, Azərbaycan vətəndaşıyam, Azərbaycan oğluyam!. Düşündüm ki, orada keçiriləcək yubiley konfransının afişasına Qız Qalasının şəklini qoysam yaxşı olar!". Firidun plakatı iki əli ilə başı üstünə qaldırdı: "qoy tamaşaçılarımız da görsünlər".

Asif mənə müraciət etdi:

"Nə deyirsiniz, Ayaz müəllim?!"

Mən nə etməliyəm, nə deməliyəm? "Dəyirmi tarix", yəni 50, 60, 70,... kimi yaşların elm aləmində, alimlər arasında konfransla qeyd edilməsi adi, hər tərəfdə qəbul olunmuş bir hadisədir, tədbirdir. Belə bir tədbir şəxsən mənim də başıma gəlməli idi, sadəcə mən bunu istəmədim. Mənə görə 50 yaşın 51-dən və ya 60 yaşın 63-dən heç bir fərqi yoxdur, həmçinin hər hansı bir tədbirin mərkəzində olmağı sevmirəm, bundan həzz almıram, əksinə, sıxılıram. Qaldı patriotizmə, sağ ol, Fred, yaxşı fikirləşmisən. Canlı verilişdir, Asifin sualına cavab vermək lazımdır:

"Adam harda olur-olsun kimliyini unutmur. Firidun müəllim Qız Qalası ilə bunu canlı nümayiş etdirir. O, məsələn, məşhur Şambor (Chambord) Qalasını da rəmz kimi götürə bilərdi, lakin bunu etməyib, öz şəklini sevdiyi Qız Qalasının fonunda görmək istəyib, sağ olsun".

Firidunun münasibəti də maraqlı oldu:

"Ayaz müəllim, o hansı Şamxor qalasıdır? Şamxorda elə böyük qala varmı?"

"Şamxor demədim, Fransada Luar vadisində yerləşən məşhur Şambor Qalasını yada saldım".

Firidun çaşdı, heç nə demədi. Mən Şamboru, yəqin ki, elə-belə yox, sezilməz bir əyləncə, bir oyun olaraq, dilxoşluq edərək ortaya atmışdım. Yoxsa bu Şambor hardan gəldi çıxdı ortaya?! Belədirsə, bunu daha yumşaq etmək olmazdımı, ay Ayaz müəllim?! Amma, o da var ki, canlı verilişdə sözümüzü tam öl-

çüb-biçməyə macal tapmırıq. Bu Şambor məsələsinin içində zarafatyana bir məcaz və ya cinas olsa da, Şambor, doğrudan da, zarafatsız tək Fransada deyil, dünyada tanınan bir qaladır və mən onu məşhur tarixi abidələrdən biri kimi yada salmışdım.

* * *

Asifin mənə müraciət etmək istədiyini duyub gözümlə onu musiqiçilərə, xalq musiqisi qrupuna doğru yönəltdim. O isə "sizə bir sualım var, ona münasibətinizi bildirin, sonra müsiqiyə söz verək" deyib musiqi haqqında, elm və sənət arasında mövcud olan əlaqə barədə fikrimizi soruşdu. Mən verilişdə iştirak edən musiqiçilər haqqında bir neçə xoş soz dedikdən sonra insanı insan edən ağıl və hisslərin vəhdətindən danışdım, "iki mədəniyyət" adı ilə dövrəyə girmiş və təbiət elmləri mütəxəssisləri ilə humanitar düşüncə sahibləri arasındakı fərqi vurğulayan mülahizələrdən, musiqiçi və elm adamlarından qısa söhbət açdım. Fred suala fərqli münasibət göstərdi:

"Çalışacam ki, yubileyimdə Azərbaycan musiqisi də səslənsin. Qoy yubiley iştirakçıları mənim Azərbaycanımı eşitsinlər. Bilirsinizmi kimlər iştirak edəcək yubileyimdə? Bayaq yarımçıq qaldı, gəlin onların kim olduğunu, hardan gəldiyini bir-bir deyim, çox maraqlıdır. Onlar mənə həsr olunmuş konfransda böyük məmnuniyyətlə çıxış etmək, öz elmi nəticələri haqqında məlumat vermək istəyirlər. Onların iştirakı mənə hörmət əlamətidir, bunu mən çox qiymətləndirirəm".

Asif, yəqin ki, yenidən Firidunu bu fikrindən döndərməli olacaq. Telefon zəngi onu xilas etdi. Veriliş canlı idi, ona Azərbaycandan və xüsusilə xaricdən, yurd həsrəti çəkmiş adamlardan zənglər gəlirdi. Sözsüz ki, sadəcə "mən də varam" deyə zəng edənlər də olur, "daimi zəngçilər" də var, çox zaman, onlara zəng edib birləşdirir və onlar zəng etmiş kimi təsəvvür yaradırlar. İsveçdən bir azərbaycanlı xanım idi zəng edən: "mən hamını salamlayıram, dünya şöhrətli kimyaçımız Firidun müəllimə xüsusi hörmətimi bildirirəm, biz onunla fəxr edirik" dedi. Sonra vokalçı xanımdan bir "Qarabağ şikəstəsi" oxumasını rica etdi. Vokalçı xanım bilmədi nə desin, təəssüflə yanaşı təəccübünü də gizlətmədən "bağışlayın, mənim repertuarımda "Qarabağ şikəstəsi" yoxdur" dedi. Mən bu məsələni yoluna qoymaq, "Qarabağ şikəstəsi"nin vokala deyil, muğama aid olduğunu və xahişi xanəndə qıza ünvanlamaq olardı" demək istədim. Firidun mənə imkan vermədi, böyrümü dürtmələdi, sonra əlini qaldırıb uzaqları göstərərək "vallah, məni tərifləyən bu xanımı heç tanımıram, səsini ilk dəfədir eşidirəm, özü zəng edib" dedi. O, deyəsən, onu tanımayan bir xanımın zənginə öz dünya şöhrətinin təsdiqi və tərənnümü kimi baxırdı. Arada o, sanki özü haqda deyil, heyran olduğu başqa bir şəxs haqqında fikir yürüdürdü.

* * *

Tərifə daimi ehtiyac duymaq tamahın bir növüdür. Gözüdoymazlıq xoşbəxtliyin yolunu kəsir, insanı kübarlıq və kamillik aləmindən uzaq salır. Tərifə aludə olmaq ağla və zövqə vurulan zincirdir.

Tərif düşkünlüyü narkotik maddə düşkünlüyü kimi çox zərərli sayılmadığına görə onun müalicəsinə fikir verilmir. Tərif alışqanlığı uzun sürür və sağalmaz, xronik xəstəliyə çevrilir. İnsanın iddiaları onun öz miqyasını çox-çox geridə qoyanda, nizam pozulur. Olduğundan çox böyük görünmək cəhdi həddini aşmaq deməkdir, təcavüzkarlıq nişanıdır.

Özünütərif insanı süniləşdirir, səmimiyyəti içindən yeyir, onu yox edir. Başqalarını aldadıb özü haqqında yanlış təsəvvür yaradan şəxs birinci özünü aldatmış olur. Artıq tərif - tərəfkeşlikdir, qərəzli münasibətdir, bölgünün bərabərsizliyidir, yerləri çaş-baş salmaqdır, ədalətsizlik əlamətidir. Həddini aşan tərif həqiqəti təhrif edir, elm adamı bunu etməməlidir, çünki elm həqiqəti dərk etmək üçündür.

Özünü möhkəm tərif etmək və ya təriflətmək kimlik böhranından, aşağı görünmək qorxusundan, həsəddən xəbər verir. Layiq olduğundan çox təriflənən də, bu tərifi yağdıran da bir-birindən asılıdırlar, azad insan deyillər.

Özünü mərkəzə qoymaq ləyaqəti buraxıb şərəf istəməkdir. Ləyaqət özü ilə yanaşı ətrafdakıları görmək, başqalarının maraqlarına hörmətlə yanaşmaq, öz hisslərini və nəfsini bir qədər cilovlamaq qabiliyyətidir. Tam ləyaqət hissi yalnız azad adamda ola bilər. Şərəf ləyaqətdən fərqli olaraq insanın fərqli görün-

mək yanğısıdır, qürurdur. Yekəxanalıq isə qürurun korlanmış şəklidir, ətrafı saymamazlıqdır.

Tərif nüfuz gətirmir. Nüfuz tərifə ehtiyacı olmayan keyfiyyətdir, böyüklükdür.

* * *

Zəng edən xanımın xahişi ilə "Qarabağ şikəstəsi"ni oxumaq xanəndə qızın üzərinə düşsə də, o, özü istədiyini - "Segah təsnifini" oxudu. Gözəl oxudu, bəmi bəmdə, zili zildə. Həzin bəmdən rahatca zilə keçdi, orada xeyli gəzişdi, zəngulə vurdu, elə o yüksəklikdə də bitirdi, səsinin məlahətini və gücünü göstərdi. Xanəndəyə əl çaldıq, təşəkkür etdik. Bu arada Firidun daha iki kağızı Asifə doğru itələdi və astadan "bunlara da bax" dedi. Konfrans iştirakçılarının ikisinin adını çəkməklə kifayətlənməmişdi, bu işi tamamlamaq və özü haqda daha nəyisə yada salmaq istədiyi göz qabağında idi. Yəqin ki, Asifin onu şərəf lövhəsinə tam çıxara bilmədiyini düşünürdü. Mən həmin an "daha bir şey istəyirik, şübhəm yoxdur ki, televiziya seyrçilərimiz də bunu gözləyirlər, qulaq asmaqdan doya bilmirik" deyə Asifə və vokalçı xanıma doğru döndüm. Firidun çox narazı idi, mən onun planını açıq-aşkar pozur, vaxtdan səmərəli istifadə etməsinə mane olurdum, amma o, mənim təklifimə açıq "yox" da deyə bilmirdi (necə ki, mən onunla bağlı tərifnamələrə qarşı çıxa bilmirdim).

Vokalçı xanım yenə də başını və döşünü dik qaldırıb yüngül, nazənin addımlarla ortaya çıxdı. Ortaya çıxdı, elə bil ildırım çaxdı. Sanki tək bizi deyil, dünyanı valeh etmək, ovsunlamaq istəyirdi. Karmenin Habanerasını, araqızışdırıcı bu ariyanı şövqlə oxudu, sevən şıltaq qadın ehtirasını ustacasına nümayiş etdirdi. Bütün kişiləri ovlamaq məharətini göstərirdi sanki. O, xanəndə qız kimi çox gənc deyildi, amma yaşın hesabını unutduran, sanki ən ideal yaş dövrünü yaşayan bir qadın idi! Qədd-qamətini, əndamını, elastikliyini necə də vüqarla sərgiləyir və idarə edirdi! Onun ətrafında hiss olunan, az qala fiziki təsir göstərən bir cazibə sahəsi, fiziklər demişkən bir elektromaqnit meydanı vardı. Ümumdünya cazibə qanunu və klassik elastiklik nəzəriyyəsi bu hadisəni, bu ləyaqətli ədanı izah etməkdə acizdirlər, sevgi kimyası da hələ yaradılmayıb.

Onun gözlərində açıq çağırış yoxdu, necə deyərlər, gözləri ilə bizi yemirdi. Qəti surətdə! O, vüqarlı və məğrur idi. O, qarşısında baş əymək istəyənləri görür, amma bunu üzdə hiss etdirmir, gözləri ilə "mən burdayam, mən varam, mən beləyəm, hünəriniz varsa mənə vurulmayın" deyirdi. Amma, içində belə enerji və yanğı olan bir xanım, əlbəttə ki, dəlicəsinə aşiq olmaq istedadına da malik olmalıdır!

Muğam qrupunun oğlanları heyranlıqla, xanəndə qız isə bir az qısqanclıq qarışıq heyrətlə vokalçı xanımı seyr edirdilər. Bəli, gözəl qadın ulduz kimidir, işığı hər kəsə çatır, nurunu hamıya paylayır, hər kəs ona möhtacdır.

"Gözəl musiqi ifa edildikdən sonra da içimizdə yaşamaqda davam edir, musiqidən sonsuz həzz almaq imkanı xoşbəxtlik əlaməti deyilmi?!" Yəqin ki, mən ətrafımı, televiziya məkanında olduğumu unutmuş bir vəziyyətdə idim, bu sözləri də ixtiyarsız, bir qədər fikirli-fikirli dedim...

* * *

Xanəndə qız, deyəsən, vokalçının çıxışını, onun zəfərini çağırış kimi qəbul etdi. Onun nəyi əksikdir, daha gəncdir, səsi də var, sənəti də. Meydana, oxuyanın qabağına çıxmaq tələb olunur. Şux, coşqulu bir şey oxumaq lazımdır. "Bayatı-Şiraz" səsləndi. Çoban qızı haqqında təsniflə başladı. Musiqinin ecazkar ritmi qeyri-ixtiyari hər iki əlimi yerindən oynatdı, yuxarı qaldırdı, bir an özümə gəlib əllərimi aşağı salsam da, barmaqlarım sözümə baxmadı, fortepiano dilləri üzərində gəzişən kimi oynamaqda davam etdi. Mən bu təsnifi kişi xanəndələrin ifasında daha çox eşitmiş və sevmişdim. Amma bu qız yaman qız imiş! Yaradıcı ehtirasını cilovlamır, tək səsi ilə deyil, qaşı, gözü, dodaqları, sifəti, boynu, çiyinləri ilə ahəng yaradır, bir monotamaşa düzəldirdi. Oxuduqca qızışır, öz ifasındanmı, ya mahnının gözəlliyindənmi - bilmirəm, amma həzz alırdı, sifətində bir nəşə vardı. Qəribə, şux bir yanğı ilə "nə atam var, nə də anam" deyəndə gözlərimi yummalı oldum, musiqi məni qoynuna almış, mənə layla çalırdı. Qız elə avazla, elə coşqu ilə oxuyur, elə xırdalıqlar edirdi ki, adamın qanı qaynayır, sümüyü oynayır, ürəyi vəcdə gəlir, fəxrlə döyünür, gözləri dolurdu. Xüsusi əda ilə dediyi "ay aman", "vay, vay, vay", "əman-amman" keçid nidaları al-

tında sakit oturmaq çətin idi, sanki kimsə, nəsə məni oturduğum yerdən dartıb qaldırmaq istəyirdi. Eh, efir deyil, bir çəmən olsaydı, o yana-bu yana var-gəl etsəydim, diz çöksəydim, otların üstündə uzansaydım... "Bayatı-Şiraz"ı Fizulinin qəzəli ilə oxudu, içimdə bir cərəyan törətdi, cismimi titrətdi. Qız yenidən "çoban qızı"na qayıtdı, sevə-sevə ona yoldaşlıq edən, dəm verən çalğıçılarla həmahəng yavaşıdı və dayandı. Bir an gözlərini yumub açdı, əli ilə saçlarını daradı və mütəəssir və məmnun baxışlarla bizi süzdü. Vokalçı kimi ədalı olmasa da, gözəl idi, gənc idi, oxumağı ilə adamı haldan - hala salıb sərxoş edə bilirmiş.

Sanki buludlardan endim, ayaqlarım yerə toxundu, nəşədən ayıldım. Firiduna baxdım. Gözümə yazıq kimi göründü. Deyəsən, o, ətrafdakı möcüzəni görmürdü, nə ecazkar musiqi, nə məlahətli qız-qadın gözəlliyi ona çatmamışdı. Düşündüm ki, gözlərinin açılması üçün ona təbiətin qoynuna getmək, şöhrət zəhəri əvəzinə təmiz dağ havası udmaq lazımdır.

Nəfəs alan, gözləri görən insan - xoşbəxt deyilmi?! Gözümüzü, qulaqlarımızı və düşüncələrimizi geniş açaq, dünyanın xoş ahəngini görək, duyaq, ətrafımızda sərgilənən gözəlliklər gözümüzü, qəlbimizi, zövqümüzü oxşasın, təbiətə qovuşaq... Zəhmətkeş qarışqalar, ağıllı arılar, quşlar, ağaclar və otlar, sadə insanlar - hamısı bizimlədir, onlara nəzər salaq, onlarla söhbət edək, dərdləşək... Biz ki, aləmin heyrətamiz rəngarəngliyi içindəyik. Biz ki, səadətə bürünmüşük...

* * *

Vaxta qiymətli özreklam vaxtı kimi baxan Fred hər halda vaxt itirməmiş, Asifin köməyilə "dünya şöhrəti"ni millətə təqdim edə bilmişdi. Sonda yenə Asifə, verilişə və rəhbərliyə təriflər yağdırdı. Bəli, sən məni təriflə, mən də səni. Asif proqramı necə başlamışdısa, eləcə səliqə-sahmanla yekunlaşdırdı - bəlagəti də yerində olmaqla. O bizə, biz ona təşəkkür etdik. Gələn görüşlərədək.

"Gəlsəniz bir çay içək, nə deyirsiniz? Siz hər zaman ələ düşən adamlardan deyilsiniz" deyə Asif bizə baxdı. Bu dəvət mənim ürəyimdəndi:

"Məmnuniyyətlə! Amma musiqiçilər də bizimlə olsun, məclisimiz tam tərkibdə davam etsin. Hə, uşaqlar?"

Burada "uşaqlar" sözünün kifayət etmədiyini düşünərək, daha bir müraciətə ehtiyac duydum

"Xanımlar nə deyir?"

Xanımlar gülümsəməklə etiraz etmədiklərini bildirdilər. Tarzən, bu istedadlı gənc, özünə məxsus ədəblə münasibət göstərdi:

"Sizin kimi ziyalılarla birlikdə olmaq bilirsiniz bizə necə xoşdur?! Sizinlə lap dünyanın o biri başına da gedərik".

Asif vokalçı xanımla bizi qoltuqlu kürsülərdə, gəncləri isə stullarda dairəvi şəkildə əyləşdirdi. İki kiçik masanı bir-birinə birləşdirib ortada kvadrat şəkilli masa düzəltdi, onun ətrafında üz-üzə, göz-gözə yer tutduq. Çay sifariş olundu. Bu ekransız xudmani məclisi açmaq, deyəsən, mənim öhdəmə düşür:

"Sağ olun, siz öz gözəl ifanızla gözəl anlar yaşatdınız bizə. Sizi bütün duyğu orqanlarımla hiss edirdim, musiqini eşitməklə kifayətlənmir, fasiləsiz axını, dalğaları, rəngləri görürdüm sanki. Musiqinin dadını və qoxusunu duyduq. Qəlbimizi, ruhumuzu oxşadınız, böyük zövq verdiniz! Biz isə..., ayıb olsun bizə - ancaq öz uğurlarımızdan, şöhrətimizdən, həm də elə-belə yox, "dünya şöhrətimiz"dən dəm vurduq. Halbuki, siz deyən bir şöhrət sahibi də deyilik".

Bu sözləri dedim və özümü çox yüngül, çox rahat hiss etdim, sanki yerləri səhv düşmüş nələrisə qaytarıb yenidən öz yerlərinə düzdüm. İlhama gəlmiş, ruhlanmışdım, başım da, dilim də işləyirdi:

"Dünya şöhrətli olmağa layiqli namizədimizi - Üzeyir Hacıbəyovu dünya şöhrətli edə bilməmişik. Onu xarici ölkə konservatoriyalarında öyrənmirlər, özü və əsərləri Azərbaycanda sonsuz dərəcədə sevilsə də, klassik əsərləri səhnədən düşməsə də, xaricdə çox ifa olunmur".

Firiduna doğru əyilib onun təsdiqini istəyən şəkildə davam etdim:

"Firidun müəllimlə Moskvada oxuyanda da, sonralar da çox böyük elm adamları, dahilər görmüşük. Çox sadə və çox təvazökar o şəxslər adətən bacardıqlarından deyil, bacarmadıqlarından danışırdılar. Onların necə tərəddüd etdiklərinin, dəfələrlə "heç nə anlamıram" demələrinin şahidi olmuşuq".

Firidun fikirli görünürdü, dillənmədi. Ortalığa sükut çökdü, yəqin hamı yorulub.

Elm adamı olmayan əksər insanlar elmi yaxşı anlamır, amma onun çox vacib və faydalı olduğunu qəbul edirlər. Bundan istifadə edən bəzi elm adamları öz məhdud qabiliyyətlərini şişirdib bənzərsizlik, hətta dahilik iddiasına yoluxurlar.

* * *

Öz ifası ilə həzz verdiyini dərk edən və bundan məmnun, məsud görünən vokalçı xanım sükutu pozdu:

"Ayaz müəllim, görkəmli insanlar öz böyüklüklərini dərk etmirlərmi? Və onların tərifə ehtiyacları yoxdurmu?"

Xanımın bu maraqlı sualına qısaca necə cavab verəcəksən, ay Ayaz müəllim?

"Başqaları tərəfindən bir qədər təriflənmək arzusu günah deyil, başadüşüləndir, təbiidir; bir uğur əldə edilibsə, niyə onu başqa adamlar bilməsin, bəyənməsin?! Adamın azca dilxoşluq etməsi, balaca və ötəri özünütərifə, yəni özünü təqdimə yol verməsi də anlaşılandır. Amma tərif həddini aşanda xəcalət hissi kütləşir və içəri mikrob düşür. Bizim adamlar özlərini və başqalarını tərifləyərkən kiçik cizgilərlə, bir neçə söz və işarə ilə kifayətlənə bilmir, ölçülərdə ifrata, artıqlığa yol verir, qeyri-adi məcazlara baş vurur, bəlağətin zilinə qalxırlar. Hər kəs, əlbəttə, aşağı-yuxarı nəyə qadir olduğunu bilir. Lakin görkəmli alimlər onlardan daha böyük və ya onlar kimi istedadlı olan alimlərin, dahilərin işini, yolunu davam etdirirlər; yəni onlar məşhurların ortaya atdıqları böyük ideyalardan bəhrələnirlər. Bu, mənəm-mənəmliyə, yekəxanalığa izn vermir. Məsələnin başqa tərəfi də var. Ovçu ovun izinə düşüb onu əldə etmək istəyəndə hansı hissləri keçirirsə, alim yenilik izinə düşüb kəşf ehtirasına qapılanda oxşar, amma qat-qat daha böyük, daha dərin, daha şiddətli, daha uzunsürən hisslər keçirir. Bu eşq, bu ehtiras digər ehtiyacları, istəkləri unutdurur. Şairanə desək, mənəvi və ya yaradıcı gücün zirvəsində dayanan, sinəsini gərib azad nəfəs alan, uzaqlara boylanan şəxs aşağılarda eşələnən mənəm-mənəmlik qurdunu görmür".

Deyəsən, vokalçı xanımın səhnədə olduğu kimi bu söz meydadında da sinəsi dolu idi: "Ayaz müəllim, mən Üzeyir bəyin tək musiqi sənəti ilə deyil, bir sıra məqalələri ilə də tanışam. O, kim olduğunu, musiqimizə nə yeniliklər gətirdiyini yaxşı bilirdi, amma, eyni zamanda onun çox təvazökar və qayğıkeş insan olduğu da məlumdur".

Söhbətin bu məcrasında Firidun fəal deyildi. Mənim Moskva elm mühiti ilə bağlı müraciətim belə onu yerindən tərpətməmiş, dilləndirməmişdi. Nəhayət, o da söhbətə qarışdı:

"İndiki qarmaqarışıq dövrdə gənc nəslə örnək lazımdır. Həmçinin xalqımızın hər sahədə böyük uğurlar qazandığını göstərmək üçün tanınmış adamlarımızı tərifləmək, hətta, lazım gəlsə, ideallaşdırmaq günah deyil, əksinə, bu lazımdır. Götürək elə tarixi şəxsiyyətlərimizi - məgər onları ideal, dahiyanə insanlar kimi göstərməyə çalışmaq vətənpərvərliyə xidmət etmirmi? Bir də elə çıxmasın ki, şöhrət azarı dediyiniz şey elə bizə xasdır, başqa yerlərdə yoxdur.

Söhbətin bu yarım-elmi şəkil alması yanımızdakı musiqiçiləri çətin məmnun etsin. Möhtəşəm musiqidən sonra bu əxlaq və tarix fəlsəfələri darıxdırıcı deyilmi? Amma Firidun yaralı yerimə toxumuşdu.

"Mən hamının müqəddəs olduğu bir cəmiyyətdən, yəni utopiyadan danışmıram. Əsla! Günahkarlar həmişə müqəddəslərdən çoxdur, bunu bilirəm. Şöhrətpərəstlik, düz deyirsən, bütün dövrlərdə və bütün məkanlarda olub və var. Lakin onun təzahür şəkilləri fərqlidir. Bizdə şöhrət düşkünləri çoxdur və böyük əksəriyyəti də gördüyü işi və gerçək qabiliyyəti ilə müqayisəyə gəlməyən böyüklük iddiasındadır. O ki qaldı vətənpərvərlik naminə tarixi şəxsiyyəti və ya bu günkü doğru-yalan qəhrəmanlarımızı şişirtməyə və vətən tarixini parlaq rəngə boyamağa - məgər bu, tarixi saxtalaşdırmaq deyilmi?! Yəni, gənclərə uydurulmuş yalandan ibarət tarix dərsi verək, eləmi? Tarixi şəxsiyyəti olduğu kimi təsvir etmək, onun tutduğu yeri olduğu kimi vermək, tariximizi olduğu kimi yazmaq və öyrətmək - doğru olan bu deyilmi?"

Asif görünür mənim qızışdığımı sezdi ki, zarafata keçdi:

"Alim məclisi belə olar! Həqiqət mübahisədən doğur. Çay məclisi isə dostluq, yaxınlıq deməkdir.

Çayınızı soyutmayın. Efir görüşümüz bitmiş, amma onun iştirakçıları ortaya maraqlı mövzular atır, məclisi davam etdirirlər. Deməli, pis işləməmişik..."

Asif düz işarə vurur, məsələni sakitcə bağlamaq lazımdır:

"Asif müəllim, indiki zamanda bütün dünya ilə, tanıdıqlarımız və tanımadıqlarımızla ünsiyyət qurmaq imkanı var - internet, mobil telefon və ya televiziya vasitəsilə. Amma, həmin vasitələrlə insanları həm də çaşdırmaq, aldatmaq olur. Təəssüf ki, yalana xüsusi bəzək vurmaqla ona maraqlı, hətta inandırıcı görünüş vermək mümkündür. Əvvəllər isə yalanı ancaq qonşulara, iş yoldaşlarına, bir sözlə, yaxında olanlara söyləmək olurdu. Bizi dünyaya bağlayan texnologiyaya eşq olsun!

* * *

Gənc xanəndə qız xanəndələrə xas ədəb və ehtiramla oturmuş, qulaq asır, lakin danışmırdı. Ona tərəf döndüm:

"Gözəl oxudun, çox gözəl! Repertuarın necədir, nəyə üstünlük verirsən?".

Qız cavabında canlı verilişdə baş verən hadisəni yada salaraq üzrxahlıq etməyi də unutmadı:

"Siz sağ olun! Muğam sevənlərə xidmət etmək borcumuzdur. Siz Allah bağışlayın məni, günahımdan keçin, "Qarabağ şikəstəsi"ni oxumadım, nəsə o havaya köklənməmişdik," - o, sözünün təsdiqi üçün yoldaşlarına baxdı, onlar gülümsəməklə kifayətləndilər.

Mən kəmənd atdım:

"Bəs "Kəsmə şikəstə"" ilə aranız necədir? Mən onu çox sevirəm, "Qarabağ şikəstəsi`ndən daha çox. Qarabağ şikəstəsi zildədir, sanki yalçın qayalı, sıldırım zirvədəsən. "Kəsmə şikəstə" oxunanda isə elə bil dağ döşündə, səfalı, gül-çiçəkli çəməndə bulaq başındasan. Mahnıda deyilmişkən (boğuq səsimlə astadan zümzümə etdim):

Zilə qalxa bilməsək də
Mahnını pəsdən demək də
Könlümüzün istəyidir.
Vəsf etsək də zirvələri
Dağın ən səfalı yeri
Gül-çiçəkli ətəyidir...

Fatma xanım "Kəsmə şikəstə"ni necə də gözəl ifa edirdi, necə məlahət və hazinlik vardı onun ifasında, adamı kövrəldirdi".

Tarzən zənnlə xanəndə qıza baxdı, qız başı ilə razılıq işarəsi verdi və "Kəsmə şikəstə"ni başladılar. Kimi ürəyində, kimi astadan dodaqlarını tərpədərək şikəstəyə qoşulduq. Mənə elə gəldi ki, hamı təsirlənmişdi.

Gənc musiqiçilərin "ürəyiniz daha nə istəyir?" sualına "hamıya hər şey üçün təşəkkür edək; bu günün kefi keçib-gedən deyil, içimizdə yuva saldı, "Kəsmə şikəstə" ilə, onun layla hərarəti ilə yavaş-yavaş evə hərəkət etmək lazımdır" dedim. Vokalçı xanım "layla hərarəti" sözünə görəmi, ya doğrudan tələsdiyi üçünmü - bilmirəm, "evdə uşaqlar gözləyir, gedək; sizinlə bir yerdə olmaq, sevdiyiniz musiqi parçalarını ifa etmək, sizi xoşhal etmək - əlimizdən gələn budur, həmişə xoş gününüz olsun!" dedi.

Salamatlaşıb yola düzəldik.

Səadət nə qədər də sadədir - ana və uşaq sevinci, evə gedən yol, çörək dilimi, təzə biçilmiş şirin ot qoxusu, mavi göy və Günəşin ılıq nəfəsi, Ay və ulduzlarla bəzənmiş gecə, musiqi nəşəsi, kitab oxumaq kefi və sadəcə var olmaq...

SON



# WORLD'S MOST VISITED TOURIST ATTRACTIONS

## FRANCE

**ANNUAL VISITORS: 10,430,000**

## DISNEYLAND PARK, MARNE-LA-VALLÉE

When Disney's first European theme park opened in 1992, many French protested the "cultural imperialism" of such an American symbol opening 40 minutes outside of Paris. Today it's one of the most-visited locations in Europe. So be prepared to queue for popular rides like It's a Small World, Space Mountain, Big Thunder Mountain, Pirates of the Caribbean, and Buzz Lightyear Laser Blast. A 3D ride inspired by the film Ratatouille opened in 2014; enter through a replica of Gusteau's restaurant.






## ANNUAL VISITORS: 9,345,000

Originally Cherokee homeland, America's most-visited national park first opened in 1940 and covers some 520,000 acres of protected Tennessee and North Carolina forestland that's bisected by the Appalachian Trail. Whether hiking Chimney Tops (or any of the 800 miles of trails) or driving the super-scenic U.S. Highway 441, visitors are sure to get an eyeful of the mystical haze that inspired the park's name. To escape the crowds, park ranger Caitlin Worth recommends heading to Balsam Mountain Road, a high-elevation gravel road accessible from the southern end of the Blue Ridge Parkway.




## ANNUAL VISITORS: 10,000,000

One of the oldest continually operating farmers' markets in the U.S. (est. 1907), this nine-acre National Historic District is famous for kitschy Seattle souvenirs, salmon-throwing fishmongers, and its "gum wall" installation art. The many seafood restaurants include Market Grill and Emmett Watson's for oysters. It's just down the street from one of the original Starbucks—complete with an early-edition logo featuring a more, er, risqué mermaid.



# PARIS

## MUSÉE DU LOUVRE

ANNUAL VISITORS: 9,334,000

The world's largest museum is both the subject of ongoing architectural controversy—not everyone agrees with the 1989 addition of I. M. Pei's 69-foot-high glass pyramid entrance—and an art-lover's wonderland of some 35,000 masterworks. Throngs parade through the former 12th-century palace to see such famous highlights as Leonardo da Vinci's smiling La Gioconda, a.k.a. Mona Lisa—a painting that, rumor has it, was originally commissioned by François I to hang in his château at Fontainebleau. And the crush of visitors continues to increase, up about 10 percent since 2010. One tip: avoid peak crowds by timing your arrival to Wednesday or Friday evening, when the museum is open until 9:45 p.m.

# CHICAGO

## NAVY PIER

While the USS Chicago—docked at the end of the pier—is a reminder of its World War I military past, this bustling Lake Michigan promenade now caters to civilians with a mix of carnival rides, dancing fountains, trinket stalls, an IMAX theater, and local food favorites Garrett Popcorn and Billy Goat Tavern. Don't miss the exceptional stained-glass museum featuring colorful works by Frank Lloyd Wright and Louis Comfort Tiffany.



# XƏZƏR UNİVERSİTETİNİN DÜNYA MƏKTƏBİ

## BAKIDA VƏ SUMQAYITDA ŞAGİRD QƏBULU ELAN EDİR



Azərbaycan bölməsi üzrə I-IX
Rus bölməsi üzrə I-IX
İngilis bölməsi üzrə I-IV siniflərə
Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir.
Azərbaycan və rus bölmələrində ingilis ikinci dil kimi tədris olunur.İngilis dili beynəlxalq dil tədrisi standartlarına uyğun tədris olunur.
VII sinifdən başlayaraq şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar.Burada biliklə yanaşı, şagirdlərin hərtərəfli inkişafına da böyük əhəmiyyət verilir. Dünya məktəbi Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization-IBO), yəni Beynəlxalq Məktəb Şəbəkəsinin üzvüdür.Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.
X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Proqramında təhsil ala bilərlər.Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar. IB Diplom proqramında təhsil almaq istəyən IX sinif şagirdləri üçün PRE IB, yəni IBDP-yə hazırlıq sinfi təşkil edilir.

**Ünvan:**

**Bakı, Əcəmi Naxçıvani 9**
**Tel.: (+994 12) 563 59 40 /47 /48**
**Mob.: (+994 70) 844 08 88**

**Sumqayıt, 44-cü məhəllə, Bakı küçəsi**
**Tel.: (+994 18) 642 30 97**
**Mob.: (+994 55) 669 96 33**

**E-mail: info@dunyaschool.az**
**http: // dunyaschool.az**

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmleri
- Kompüter mühendisliyi
- Neft-qaz mühendisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya ve radiotexnika mühəndisliyi
- Kimya mühendisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat ve informatika müəllimliyi
- Fizika müəllimliyi

### 2 QRUP

- Mühasibat uçotu ve audit
- Maliyye
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idare edilmesi
- Turizm ve otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynelxalq münasibetler
- Coğrafiya müellimliyi

### 3 QRUP

- İngilis dili ve edebiyyatı
- Azərbaycan dili və edebiyyatı
- Tercüme (İngilis dili)
- Politologiya
- İngilis dili müellimliyi
- Azərbaycan dili və edebiyyatı müellimliyi
- İbtidai sinif müellimliyi
- Tarix müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

### 5 QRUP

- Dizayn